# 15 iyun Milli Qurtuluş Günüdür

AZƏRBAYCANIN BÜTÖVLÜYÜ, MÜSTƏQİLLİYİ VƏ TƏRƏQQİSİ

RESPUBLİKA

TƏSİSÇİ: AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN İŞLƏR İDARƏSİ VƏ QƏZETİN REDAKSİYA HEYƏTİ

15 İYUN 2018-ci il CÜMƏ № 133 (6166) GÜNDƏLİK İCTİMAİ-SİYASİ, SOSİAL-İQTİSADİ QƏZET WWW.RESPUBLICA-NEWS.AZ

# Moskvada futbol üzrə dünya çempionatının təntənəli açılış mərasimi keçirilib

## *Azərbaycan Prezidenti İlham Əliyev mərasimdə iştirak edib*












**İyunun 14-də Moskvadakı "Lujniki" stadionunda futbol üzrə növbəti dünya çempionatının təntənəli açılış mərasimi keçirilib.**

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva mərasimdə iştirak ediblər.

Qeyd edək ki, iyirmiyə yaxın ölkənin dövlət və hökumət başçılarının da qatıldığı açılış mərasiminin proqramı zənginliyi və əvvəlki dünya çempionatlarının açılış mərasimlərinin proqramlarından fərqli formatı ilə əsaslı şəkildə seçildi. Budəfəki tədbir daha qısa vaxt ərzində və yığcam oldu, məşq ərəfəsində deyil, birbaşa Rusiya-Səudiyyə Ərəbistanı matçından əvvəl keçirildi.

Britaniyalı müğənni Robbi Uilyamsın və Vyana Operasının solisti, tanınmış opera müğənnisi Aida Qarifullinanın ifası mundialın açılış mərasiminə əlavə əzəmət qatdı.

Açılış mərasiminin prodüseri Rusiyanın Birinci kanalıdır. Bu əzəmətli şounun konsepsiyasının müəllifi isə rejissor Feliks Mixaylovdur. Bu işdə ona İlya Averbux da kömək göstərib. İkiqat dünya çempionu, braziliyalı futbolçu Ronaldo da açılış mərasiminə qatılıb.

Dünya çempionatına ev sahibliyi edən Rusiya Federasiyasının Prezidenti Vladimir Putin mərasimdə çıxış etdi.

Rusiya dövlətinin başçısı bütün qonaqları Moskvanın əfsanəvi "Lujniki" stadionunda salamlayaraq, dünyanın mehriban futbol ailəsini çempionatın açılışı münasibətilə təbrik etdi. Bu möhtəşəm idman hadisəsinin ilk dəfədir ki, Rusiyada keçirildiyini deyən Vladimir Putin ölkəsində bu idman növünə xüsusi sevginin bəslənildiyini də əlavə etdi. O, bu idman bayramını Rusiyada qəbul etmək üçün dünya çempionatına məsuliyyətlə hazırlaşdıqlarını bildirdi. "Harada yaşamağımızdan, hansı ənənələrə riayət etdiyimizdən asılı olmayaraq bizim hamımızı bu parlaq idman növü - futbola sevgi birləşdirir. Futbolun gücünün əsasını humanizm təşkil edir. Çünki bu, birlikdir", - deyən Rusiya Prezidenti bu birliyi gələcək nəsillər üçün qoruyub saxlamağın vacibliyini vurğuladı.

FİFA-nın prezidenti Canni İnfantino da çıxışında Rusiyada başlayan futbol üzrə dünya çempionatının idmanın bu növünün həvəskarlarına maraqlı anlar yaşadacağını söylədi.

Otuz iki ölkənin yığma komandalarının mübarizə apardığı budəfəki futbol üzrə dünya çempionatı iyunun 14-dən iyulun 15-dək davam edəcək. Çempionat Rusiyanın 11 şəhərinin 12 stadionunda keçiriləcək.

Xatırladaq ki, açılış mərasimini "Lujniki" stadionunda 80 min, televiziya ilə birbaşa yayımla isə təqribən 1 milyard nəfərə qədər tamaşaçı izləyib.

Rusiyada təşkil olunan futbol üzrə növbəti dünya çempionatı meydan sahiblərinin oyunu ilə başladı.

Açılış mərasimindən dərhal sonra "A" qrupunda mübarizə aparan Rusiya və Səudiyyə Ərəbistanının yığma komandalarının görüşü başladı.

Azərbaycan Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyevanın da baxdıqları qarşılaşmada Rusiya yığma komandası 5:0 hesabı ilə qalib gəldi. Qolları futbolçular Yuri Qazinski, Dmitri Çerışev, Artyom Dzyuba və Aleksandr Qolovin vurdular.

Xatırladaq ki, dünya çempionatında 32 komanda əvvəlcə 8 qrupda mübarizə aparır. Qruplarda birinci və ikinci yer tutan komandalar səkkizdəbir finala çıxacaqlar. Səkkizdəbir final mərhələsindən başlayaraq yarışlar Olimpiya sistemi ilə keçiriləcək, yəni, uduzan komanda mübarizəni dayandıracaq.

Final görüşü iyulun 15-də Moskvada "Lujniki" stadionunda baş tutacaq.

Üçüncü yer uğrunda matç isə iyulun 14-də Sankt-Peterburqda keçiriləcək.

**AZƏRTAC**





# Azərbaycanın Baş naziri Parisdə Fransa Prezidentinin diplomatik müşaviri ilə görüşüb

**Parisə səfəri çərçivəsində Azərbaycan Respublikasının Baş naziri Novruz Məmmədov Fransa Prezidentinin diplomatik müşaviri Filip Etiyen ilə görüşüb.**



AZƏRTAC xəbər verir ki, görüşdə siyasət, iqtisadiyyat, mədəniyyət və humanitar sahələrdəki əlaqələr, eləcə də Dağlıq Qarabağ məsələsi, Azərbaycan-Aİ münasibətləri, həmçinin regional geosiyasi vəziyyət müzakirə edilib. Yüksək səviyyəli qarşılıqlı səfərlərin təşkilinin əhəmiyyəti vurğulanıb.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı Azərbaycanın mövqeyi bildirilib. Qeyd edilib ki, Dağlıq Qarabağ münaqişənin beynəlxalq hüququn norma və prinsipləri əsasında, xüsusilə də BMT Təhlükəsizlik Şurasının qətnamələrinə uyğun olaraq ölkəmizin ərazi bütövlüyü çərçivəsində həlli istiqamətində Fransadan səylərini artırması gözlənilir.

**AZƏRTAC**

# Moskvada MDB İqtisadi Şurasının 78-ci iclası keçirilib

**Moskvada Müstəqil Dövlətlər Birliyinin (MDB) İqtisadi Şurasının 78-ci iclası keçirilib. İclasda Azərbaycanı Baş nazirin birinci müavini Yaqub Eyyubov təmsil edib.**

AZƏRTAC xəbər verir ki, iclasın gündəliyinə MDB ölkələrinin iqtisadiyyat sahəsində qarşılıqlı fəaliyyəti ilə bağlı geniş məsələlər daxil edilib. İclas iştirakçıları MDB ölkələri iqtisadiyyatının 2017-ci ildə inkişafının əsas makroiqtisadi göstəricilərini nəzərdən keçirib, MDB Dövlətlərarası Statistika Komitəsinə tapşırılıb ki, əsas makroiqtisadi göstəricilərin monitorinqini davam etdirsin. Əldə edilən məlumatlar MDB ölkələrinin hökumətlərinə göndəriləcək. Birlik ölkələrinin 2020-ci ilədək iqtisadi inkişaf strategiyasının yerinə yetirilməsi və bu strategiyanın 2016-2020-ci illəri əhatə edən üçüncü mərhələsinin tədbirlər planını, eləcə də ekonom-sinif mənzillər bazarında rəqabətin vəziyyəti ilə bağlı məsələlər də müzakirə edilib.

İclas iştirakçıları MDB ölkələrinin nüvə qəzaları və ya radiasiya qəzası vəziyyətlərində qarşılıqlı fəaliyyəti və bu cür qəzaların nəticələrinin aradan qaldırılması barədə saziş layihəsini, sərhədyanı ərazilərdə xəstəlik mənbələrinin və meşə zərərvericilərinin yaranmasının qarşısının alınması və məhv edilməsi barədə sazişlər və digər sənədlər təsdiq edilib.

Görüşdə yüksək texnologiyalı energetika avadanlığının istehsalının inkişafı sahəsində əməkdaşlıq konsepsiyası planı və milli hava hərəkətinin təşkili sistemlərinin uyğunlaşdırılması konsepsiyası layihəsi də təsdiq olunub.



İclasda Moskva Dövlət Avtomobil-Yol Texniki Universitetinin avtomobil-yol kompleksi sahəsində kadrların peşə səviyyəsinin artırılmasına dair baza təşkilatı statusu təsdiqlənib.

İqtisadi Şuranın üzvləri bir sıra maliyyə-büdcə məsələlərini müzakirə ediblər.

MDB İqtisadi Şurasının növbəti iclasını bu ilin sentyabr ayında Moskvada keçirmək qərara alınıb.

**AZƏRTAC**

# Yeni Azərbaycan Partiyasının təşkilatçılığı ilə Milli Qurtuluş Gününə həsr olunan tədbir keçirilib

**İyunun 14-də Yeni Azərbaycan Partiyasının (YAP) təşkilatçılığı ilə 15 İyun - Milli Qurtuluş Gününə həsr olunan tədbir keçirilib.**





AZƏRTAC xəbər verir ki, Baş nazirin müavini, Yeni Azərbaycan Partiyası sədrinin müavini - icra katibi Əli Əhmədov tədbirdə çıxış edərək 15 iyun tarixinin Azərbaycan tarixində özünəməxsus yerindən danışıb, bu günün xalqımızın taleyində dönüş anı olduğunu vurğulayıb. Bildirib ki, 1993-cü ildə ulu öndər Heydər Əliyevin Azərbaycanda siyasi hakimiyyətə qayıdışından sonra ölkəmizdəki hərc-mərclik, təlatümlü ictimai-siyasi vəziyyətə son qoyuldu. "Bildiyimiz kimi, o dövrdə ölkəmizin ictimai-siyasi həyatının bütün sahələrində gərgin vəziyyət mövcud idi. Bu vəziyyətdən istifadə edən Ermənistan torpaqlarımızı işğal edirdi. Təbii ki, o dövrdə Azərbaycanı sevən insanlar ölkəmizin bu vəziyyətdən çıxarılmasının vacibliyini başa düşürdülər. Bunu bacara bilən yeganə insan isə ümummilli lider Heydər Əliyev idi. Beləliklə, Ulu Öndər xalqın təkidli tələbi ilə yenidən hakimiyyətə qayıtdı. Məhz bundan sonra Azərbaycan inkişaf yoluna qədəm qoydu, respublikamızda mühüm siyasi və iqtisadi islahatlar həyata keçirildi, neft strategiyası reallaşdırıldı, cəbhədə atəşkəs əldə olundu, nizami ordu quruculuğu prosesinə başlanıldı, cəmiyyətin inkişafı üçün fundamental əsaslar yaradıldı",-deyə Əli Əhmədov vurğulayıb.

Qeyd edilib ki, Ulu Öndərin işləyib hazırladığı müasir müstəqil dövlət quruculuğu konsepsiyası müasir Azərbaycanın uğurlarının bünövrəsində dayanaraq gələcək inkişafın, misli görünməmiş uğurların əsasını qoyub. Azərbaycanın sürətli inkişaf dövrünün məhz Milli Qurtuluş Günü ilə başladığını vurğulayan Əli Əhmədov həmin siyasətin bu gün Prezident İlham Əliyev tərəfindən böyük uğurla davam etdirildiyini diqqətə çatdırıb.

Milli Məclisin komitə sədri, YAP İdarə Heyətinin üzvü Eldar İbrahimov qurtuluşa gedən yolun çox çətin olduğunu deyib. Çünki o dövrdə Azərbaycanda yarıtmaz, ancaq öz mənfəətini düşünən insanlar hakimiyyətdə idilər. Belə bir dövrdə ulu öndər Heydər Əliyevin ətrafında toplaşan, öz xalqının mənafeyini hər şeydən üstün tutan insanlar bilirdilər ki, yeni bir siyasi partiyanın yaradılmasına ehtiyac var. Bu partiya Yeni Azərbaycan Partiyası oldu. Xilaskarlıq missiyasını öz üzərinə götürərək hakimiyyətə qayıdan ulu öndər Heydər Əliyev Azərbaycanı dünya xəritəsindən silinmək təhlükəsindən xilas etdi. Ölkədə siyasi sabitlik yaratdı. Ulu öndər Heydər Əliyev ölkə rəhbərliyinə qayıtdıqdan sonra Azərbaycanın geosiyasi imkanlarından istifadə edərək müstəqilliyini qoruyub saxlamağa, ölkəmizi sürətli inkişaf yoluna çıxarmağa, xalqımızın milli mənəvi sərvətlərinə sahib çıxmasına, dünyanın müxtəlif ölkələrində yaşayan milyonlarla azərbaycanlının vahid məfkurə ətrafında birləşdirilməsinə nail oldu.

Məhz Ulu Öndərin səyləri nəticəsində "Əsrin müqaviləsi"nin imzalandığını bildirən Eldar İbrahimov deyib ki, bu gün Prezident İlham Əliyev ulu öndərin başladığı enerji, nəqliyyat layihələrini uğurla davam və inkişaf etdirir. Bu gün aparılan düzgün iqtisadi siyasət nəticəsində həm vətəndaşlarımız firavan həyat sürür, həm də Azərbaycan Avropanın enerji təhlükəsizliyində önəmli rol oynayır.

YAP Nəsimi rayon təşkilatı Gənclər Birliyinin üzvü Rəna Süleymanlı Milli Qurtuluş Gününün müasir Azərbaycan gənclərinin inkişafında yeri və rolunu xüsusi vurğulayıb. Qeyd edib ki, gənclərimiz Milli Qurtuluş Gününün əhəmiyyətini, ulu öndər Heydər Əliyevin Vətən və xalq qarşısındakı misilsiz xidmətlərini dərindən öyrənməli, Prezident İlham Əliyevin həyata keçirdiyi və ölkəmizin sürətli inkişafını təmin edən dövlət siyasətinə sadiq qalaraq, Azərbaycanın tərəqqisinə mühüm töhfə verməlidirlər.

**AZƏRTAC**

*Beynəlxalq Sərgilər Bürosunun baş katibi:*

# Bakı "Ekspo 2025" Ümumdünya Sərgisi üçün çox yaxşı namizəddir

**Bakının "Ekspo 2025" Ümumdünya Sərgisinə namizədlik dosyesi ilə yaxından tanışam. Əminliklə deyə bilərəm ki, dosye yüksək səviyyədə hazırlanıb.**



Bu fikri Beynəlxalq Sərgilər Bürosunun baş katibi Visente Lossertales jurnalistlərə müsahibəsində bildirib.

Baş katib qeyd edib ki, Azərbaycan hökuməti və əhalisi Bakı şəhərinin namizədliyini dəstəkləyir. Qələbə üçün bu, çox böyük amildir. Digər müsbət cəhət ölkənin artıq böyük beynəlxalq tədbirlər təşkil etməsi və onları uğurla reallaşdırmasıdır. Azərbaycanın bu sahədə zəngin təcrübəsi var. Deməli, Bakının namizədlik layihəsi həqiqətən də möhkəm təməl və böyük dəstək üzərində qurulub, çox mükəmməl hazırlanıb. Amma bununla belə, noyabr ayında keçiriləcək seçkiləri gözləməliyik.

Visente Lossertales vurğulayıb ki, Azərbaycan dinamik inkişaf edən ölkədir və dünyaya açıqdır. Bakı "Ekspo 2025" Ümumdünya Sərgisi üçün çox yaxşı namizəddir, mükəmməl dəstəyə və hazırlığa malikdir.

**AZƏRTAC**

# Mərkəzi Bank uçot dərəcəsini 11 faizdən 10 faizə endirib

*Mərkəzi Bankın sədri Elman Rüstəmov uçot dərəcəsinin aşağı salınması haqqında qərarı şərh edib*

**Azərbaycan Respublikası Mərkəzi Bankının İdarə Heyəti iyunun 14-dən uçot dərəcəsinin 11 faizdən 10 faizə endirilməsi haqqında qərar qəbul edib. Faiz dəhlizinin yuxarı və aşağı hədləri isə uçot dərəcəsinə simmetrik diapazonda +2 faiz səviyyəsində müəyyənləşdirilib.**



AZƏRTAC xəbər verir ki, Mərkəzi Bankın sədri Elman Rüstəmov iyunun 14-də keçirdiyi mətbuat konfransında İdarə Heyətinin qərarını şərh edib.

Mərkəzi Bankın sədri qeyd edib ki, faiz dəhlizinin parametrləri haqqında qərar son makroiqtisadi proseslərin təhlili və yenilənmiş proqnozlar nəzərə alınmaqla qəbul edilib. 2018-ci ilin ötən dövründə inflyasiya elan edilmiş hədəf diapazonundan aşağı səviyyədə qərarlaşıb, dünya enerji daşıyıcıları bazarında əlverişli qiymət trayektoriyası fonunda tədiyə balansı profisitli olaraq qalır və iqtisadi aktivlik üzrə müsbət dinamika davam edir. Son makroiqtisadi proqnozlar göstərir ki, qarşıdakı dövrdə monetar şəraitin normallaşma dinamikası xarici və fiskal sektorda gedən proseslərdən asılı olacaq.

Qərar qəbul edərkən İdarə Heyəti aşağıdakıları nəzərə alıb:

### İnflyasiya prosesləri

İnflyasiyanın azalması prosesi davam edir. 2018-ci ilin 5 ayında orta illik inflyasiya 3.2 faiz təşkil edib. Dövr ərzində əhalinin nominal gəlirlərinin artım tempi qiymətlərin ümumi səviyyəsinin artım tempini üstələyib.

Elman Rüstəmov diqqətə çatdırıb ki, inflyasiya manatın nominal effektiv məzənnəsinin möhkəmlənməsi, pul təklifinin optimal səviyyədə idarə olunması və inflyasiya gözləntilərinin azalması kimi amillərin təsiri altında azalır. Əlavə olaraq may ayından başlayaraq mövsümi amillər də inflyasiyanın azalmasını dəstəkləyir. Ev təsərrüfatları və real sektor müəssisələri arasında aparılmış monitorinqlər göstərir ki, inflyasiya gözləntiləri son illərin minimumuna enib.

Son proqnozlar makroiqtisadi meyillərin cari dinamikasının saxlanması halında 2018-ci ilin sonuna inflyasiyanın birrəqəmli səviyyədə və hədəf intervalında qalacağını göstərir. İnflyasiyanın başlıca risklərinə əsas ticarət tərəfdaşlarında inflyasiyanın yüksəlməsi, yerli istehsal xərclərinin artması, fiskal genişlənmə və bu əsasda məcmu tələbin artması, məzənnə və inflyasiya gözləntilərinin asimmetrik həssaslığı aiddir.

### Xarici şərait

Tədiyə balansı göstəricilərinin yaxşılaşmasının davam etdiyini deyən Mərkəzi Bankın sədri vurğulayıb ki, I rübdə cari əməliyyatlar hesabında ÜDM-in 15.4 faizi səviyyəsində profisit formalaşıb. Xarici sektorda pozitiv meyillər II rübdə davam edir. 2018-ci ilin 5 ayında ötən ilin müvafiq dövrü ilə müqayisədə ticarət balansının müsbət saldosu 2.1 dəfə, ixrac 65.8 faiz, qeyri-neft ixracı 14.2 faiz artıb. Qeyri-neft iqtisadiyyatının ixrac potensialının yüksəlməsi və əlverişli neft qiymətləri xarici sektor göstəricilərinin yaxşılaşmasının başlıca amilidir.

Qeyd edilib ki, ticarət balansı ilə yanaşı, xidmətlər balansında da yaxşılaşma davam edir. I rübdə xidmətlər balansının kəsiri ötən ilin eyni dövrü ilə müqayisədə 2 dəfədən çox azalıb, turizm xidmətləri balansında müsbət saldo qorunub. Pul baratlarının dinamikası da ölkənin xarici valyuta daxilolmalarının artmasına müsbət təsir göstərib.

Xarici sektor göstəricilərinin yaxşılaşması şəraitində ölkənin strateji valyuta ehtiyatları artmaqda davam edib.

"Son proqnozlara görə 2018-ci ilin sonuna tədiyə balansı göstəricilərinin əlverişli olaraq qalacağı gözlənilir. Ortamüddətli dövrə isə tədiyə balansı üçün başlıca təhdidlər beynəlxalq enerjidaşıyıcıları bazarındakı qeyri-müəyyənliklər, habelə məcmu tələbin genişlənməsi və tərəfdaş ölkələrdəki məzənnə ucuzlaşmalarının təsiri ilə idxalın yüksək templə artmasıdır", - deyə Elman Rüstəmov vurğulayıb.

### İqtisadi aktivlik

Mərkəzi Bankın sədri deyib: "İqtisadi aktivlikdə pozitiv dinamika 2018-ci ildə də davam edib. 2018-ci ilin yanvar-may aylarında iqtisadi artım 1.1 faiz olub, o cümlədən qeyri-neft sektorunda 1.9 faizlik iqtisadi artım baş verib. İqtisadi artım qeyri-neft sənayesində 8.1 faiz, kənd təsərrüfatında 8.6 faiz təşkil edib. Xarici tələbin və dövlət investisiyalarının artması qeyri-neft sektorunda iqtisadi artımı dəstəkləyən başlıca amillərdir. İstehlakçı inamı göstəricilərinin yaxşılaşması, əhali gəlirlərinin yüksəlməsi və pərakəndə kreditləşmənin tədricən bərpası da iqtisadi aktivliyə artırıcı təsir edir. Mərkəzi Bank tərəfindən real sektorun monitorinqinin nəticələri də ötən illə müqayisədə iqtisadi aktivliyin artdığını təsdiq edir. Məcmu buraxılış kəsiri və iqtisadi artımın potensial səviyyəsi üzrə qiymətləndirmələr iqtisadi aktivlikdəki yüksəlişin hələ ki, inflyasiyanı yüksəltmədiyini göstərir".

Son proqnozlar 2018-ci ilin sonuna iqtisadi artımın davam edəcəyini göstərir. Orta və uzunmüddətli perspektivdə ölkədə iqtisadi artımın yüksələrək qlobal iqtisadi artım tempini üstələməsi makroiqtisadi sabitliyin qorunmasından və iqtisadiyyatın şaxələndirilməsi istiqamətində həyata keçirilən islahatların sürətindən asılı olacaq.

### Monetar şərait

2018-ci ildə monetar şəraitin neytrallığa yaxınlaşmaq istiqamətində dəyişdiyini deyən E.Rüstəmov bildirib ki, monetar şəraitin tarazlı yumşaldılması tədbirləri qiymət sabitliyi ilə iqtisadi artıma dəstək arasında balans yaratmağa xidmət edib.

İlin ötən dövründə Mərkəzi Bank ümumilikdə pul bazasına artırıcı təsir göstərən monetar əməliyyatlar həyata keçirib. Mərkəzi Bankın qısamüddətli notlar və depozit hərracları vasitəsilə sterilizasiya əməliyyatlarının qalığı yanvar-may aylarında 12.3 faiz azalıb ki, bu da fiskal əməliyyatların pul bazasına azaldıcı təsirini qismən neytrallaşdırıb. Kredit aktivliyinin zəif bərpası və bank sistemində irihəcmli struktur likvidliyi şəraitində Mərkəzi Bankın açıq bazar əməliyyatları üzrə faiz dərəcələri faiz dəhlizinin aşağı sərhəddinə yaxın səviyyədə formalaşmaqdadır.

Mərkəzi Bankın sədri deyib ki, inflyasiya gözləntilərinin azalması şəraitində 2018-ci ilin ötən dövründə ölkədə de-dollarlaşma prosesləri davam edib. İlin əvvəlindən xarici valyutada depozitlərin geniş pul kütləsində (M3 pul aqreqatı) xüsusi çəkisi 2.1 faiz bəndi, fiziki şəxslərin əmanətlərinin dollarlaşması isə 3.6 faiz bəndi azalıb.

Mərkəzi Bank 2018-ci ilin qalan dövründə də inflyasiya dinamikasını, inflyasiya risklərini, iqtisadi artım perspektivlərini və monetar sektorda gedən prosesləri nəzərə almaqla faiz dəhlizi parametrlərinə dair qərar verəcək.

Faiz dəhlizinin parametrləri Mərkəzi Bankın İdarə Heyətində növbəti dəfə 2018-ci ilin avqust ayında müzakirə ediləcək.

Mərkəzi Bankla əlaqə: Tel.: (994 12) 493 11 22, daxili 374 və ya 381 Faks: (994 12) 493 55 41, R.Behbudov küçəsi, 90, E-mail: press@cbar.az, Bakı, AZ 1014 URL: http://www.cbar.az

**AZƏRTAC**

*XİN:*

# Qondarma Dağlıq Qarabağ rejiminin "sənədi"nin BMT-də yayılması xəbəri yalan və cəfəngiyatdır

**Ermənistanın BMT yanındakı daimi nümayəndəliyinin Azərbaycanın işğal olunmuş ərazilərində yaradılan qondarma rejim adından BMT-də "sənəd"lərin yayılması ilə əlaqədar Xarici İşlər Nazirliyinin mətbuat xidmətinin rəhbəri Hikmət Hacıyev açıqlama yayıb.**

Bu barədə AZƏRTAC-a Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən məlumat verilib.

Açıqlamada deyilir: "Məlum olduğu kimi, cari ilin mayında Ermənistanın BMT yanındakı daimi nümayəndəliyi bu ölkə tərəfindən Azərbaycan Respublikasının işğal edilmiş ərazilərində yaradılmış qondarma rejim adından BMT-də sənəd yayıb. Bundan əvvəl də Ermənistanın BMT yanında nümayəndəliyi tərəfindən bənzər addımlar atılmışdı.

Bu məsələdə də Ermənistanın BMT yanında nümayəndəliyi saxtakarlıq və BMT üzv dövlətlərini aldatmağa cəhd etmək yolunu seçib. Belə ki, Ermənistanın BMT yanında nümayəndəliyi tərəfindən göndərilən məktuba qondarma rejim adından hər hansı bir sənəd əlavə edilir. Sonra bu Ermənistan KİV-də qondarma rejimin "sənədi"nin guya BMT-də yayılması kimi təqdim olunur. Əslində isə bu yalan və cəfəngiyatdır.

Bununla əlaqədar olaraq cari ilin 7 iyun tarixində Azərbaycan Respublikasının BMT yanındakı daimi nümayəndəliyi tərəfindən BMT-nin baş katibinə məktub ünvanlanıb. Elə həmin gün sənəd BMT Təhlükəsizlik Şurasının sədri tərəfindən TŞ-nin üzvləri arasında yayılıb və BMT-nin rəsmi sənədi kimi dərc olunub.

Məktubda BMT TŞ tərəfindən 1993-cü ildə qəbul edilmiş 822, 853, 874, 884 saylı qətnamələrə istinad edilərək, ölkəmizin suverenliyi, ərazi bütövlüyü və sərhədlərinin toxunulmazlığına hörmət edildiyi, Dağlıq Qarabağ bölgəsinin Azərbaycan Respublikasının ayrılmaz hissəsi olduğunun bir daha təsdiqləndiyi bildirilir. Habelə ərazinin zəbt olunması üçün gücdən istifadə edilməsinin qəbuledilməzliyi və işğalçı qüvvələrin işğal edilmiş ərazilərdən dərhal və qeyd-şərtsiz çıxarılması barədə tələblərin əks olunduğu diqqətə çatdırılır.

Bildirilib ki, Azərbaycanın işğal olunmuş ərazilərində Ermənistan tərəfindən yaradılmış qondarma rejim hərbi təcavüz və qanlı etnik təmizləmənin nəticəsidir.

Məktubda, həmçinin Ermənistanın beynəlxalq ictimaiyyətin mövqeyinə məhəl qoymayaraq Azərbaycana qarşı törətdiyi təcavüzə görə davamlı şəkildə məsuliyyətdən yayınması cəhdlərinə şərh verilərək, İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin "Çıraqov və başqaları Ermənistana qarşı" işi üzrə 2015-ci ildə qəbul etdiyi hüquqi qərara istinad edilib. Məlum olduğu kimi, məhkəmənin qərarında qondarma rejimin Ermənistanın nəzarətində olduğunu və onun siyasi, maliyyə, hərbi və digər dəstəyi sayəsində mövcud olduğu öz təsbitini tapıb.

Bir daha vurğulanıb ki, Ermənistan yürütdüyü təcavüz və anneksiya siyasəti ilə heç zaman güddüyü məqsədlərinə nail ola bilməyəcək, Dağlıq Qarabağ Azərbaycanın ayrılmaz hissəsidir, bu, belə olub və gələcəkdə də belə olacaq və Ermənistanın öz qoşunlarını işğal edilmiş Azərbaycan ərazilərindən çıxarmaqdan başqa yolu yoxdur.

Məktubda rəsmi Yerevanın öz xalqı və beynəlxalq ictimaiyyəti çaşdırmaq üzrə cəhdlərə son qoymalı və münaqişənin həll edilməsi məqsədilə üzərinə düşən öhdəliklərini yerinə yetirməli olduğu vurğulanıb və yalnız belə olan şəraitdə bölgədə çoxdan gözlənilən sülh və sabitliyin bərqərar ola biləcəyi qeyd edilib".

**AZƏRTAC**

# Dünya Bankı ilə ədliyyə sahəsində birgə layihələr uğurla həyata keçirilir

**Son illər Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə məhkəmə hakimiyyətinin müstəqilliyinin möhkəmləndirilməsinə xidmət edən islahatlar aparılır, ədalət mühakiməsinə çatımlılıq, vətəndaşların məhkəmələrə müraciət imkanları asanlaşdırılır, məhkəmə infrastrukturunun yüksək statusuna uyğun müasirləşdirilməsi və "elektron məhkəmə" informasiya sisteminin tətbiqi üzrə ardıcıl tədbirlər görülür.**



Ədliyyə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, bu sahədə islahatlara nüfuzlu beynəlxalq qurumlar tərəfindən də böyük maraq göstərilir. Dünya Bankı ölkəmizdə məhkəmə-hüquq islahatlarına dəstək göstərir. On ildən artıqdır ki, ədliyyə sisteminin müasirləşdirilməsinə dair birgə layihələr uğurla həyata keçirilir. Bu layihələr çərçivəsində, habelə dövlət büdcəsi hesabına paytaxtda və bölgələrdə 14 məhkəmə üçün yeni, müasir binalar və komplekslər tikilərək istifadəyə verilib. Hazırda isə 7 məhkəmə üçün belə binaların inşası aparılır. Bir çox məhkəmə bina və komplekslərin açılışlarında dövlətimizin başçısı şəxsən iştirak edib, müvafiq tövsiyə və tapşırıqlarını verib.

İyunun 14-də ədliyyə naziri Fikrət Məmmədov ölkəmizdə səfərdə olan Dünya Bankının icraya dəstək missiyasının nümayəndələri ilə görüşüb.

Milli Qurtuluş Günü ərəfəsinə təsadüf edən görüşdə nazir xalqımızın xilaskarı ümummilli lider Heydər Əliyevin müəyyən etdiyi dövlət inkişafı kursunu uğurla həyata keçirən Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin sürətli inkişafını, yenicə istifadəyə verilmiş Trans-Anadolu qaz kəmərinin (TANAP) qlobal əhəmiyyətini vurğulayıb.

Nazir dövlətimizin başçısının siyasi iradəsi ilə məhkəmə sisteminin təkmilləşdirilməsi üzrə görülən işlərdən danışıb, Dünya Bankı ilə ədliyyə sahəsində uzun müddətdir səmərəli əməkdaşlıq edildiyini, Bankın məhkəmə-hüquq islahatlarına dəstəyini qeyd edərək ədliyyə və məhkəmə infrastrukturunun müasirləşdirilməsi üzrə birgə həyata keçirilən layihələrin nəticələrini vurğulayıb. Bildirilib ki, aparılan islahatlara beynəlxalq maraq artaraq artıq bir çox dövlətlərin nümayəndələri müsbət təcrübəmizdən bəhrələnmək üçün ölkəmizə səfərlər edir.

Dünya Bankının ölkəmizlə əməkdaşlığını yüksək qiymətləndirən Bankın Avropa və Mərkəzi Asiya regionunun dövlət idarəçiliyi üzrə meneceri Daniel Boys bu layihənin Bankın 25 il ərzində müxtəlif sahələrdə həyata keçirdiyi 50-dən çox layihələr içərisində ən uğurlularından olduğunu qeyd edib. Azərbaycanın məhkəmə sistemində nailiyyətlərinin artıq beynəlxalq aləmdə tanındığını və müxtəlif beynəlxalq mükafatlara layiq bilindiyini söyləyib.

Nümayəndə heyəti səfər zamanı layihə çərçivəsində inşa olunmuş müasir Şəki məhkəmə kompleksi ilə tanışlıqdan məmnunluğunu ifadə edərək, bu sahədə həyata keçirilən tədbirlərin, o cümlədən ən qabaqcıl informasiya-kommunikasiya texnologiyalarının, xüsusilə elektron məhkəmə informasiya sisteminin tətbiqinin şahidi olduqlarını bildirib. Həmçinin birgə layihənin icrası barədə məlumat verilib, onun davam etdirilməsinin perspektivlərinə dair faydalı fikir mübadiləsi aparılıb.

Qonaqlar nazirlikdə bu il 100 illiyi qeyd edilən Azərbaycan ədliyyəsinin tarixi muzeyi ilə tanış olublar.

**AZƏRTAC**

# Milli Qurtuluş Günü ədliyyə orqanlarında qeyd olunub

**1993-cü il iyunun 15-də xalqımızın azadlığının, dövlətçiliyimizin müqəddəratının həll edildiyi bir vaxtda ümummilli lider Heydər Əliyev ölkə rəhbərliyinə qayıdaraq çətin və şərəfli xilaskarlıq missiyası nəticəsində Azərbaycanı müstəqilliyini itirmək təhlükəsindən xilas edərək onu gələcəyə inamla irəliləyən güclü və sabit bir dövlətə çevirib. Dahi öndərin ölkə rəhbərliyinə qayıdışının - Milli Qurtuluş Gününün 25 illiyi ölkəmizdə geniş qeyd olunur, Ümummilli Liderin Azərbaycanın dərin ictimai-siyasi və iqtisadi böhrandan çıxarılmasında, dövlət müstəqilliyinin qorunub möhkəmləndirilməsində misilsiz xidmətləri qədirbilən xalqımız tərəfindən böyük ehtiram və minnətdarlıq hissi ilə xatırlanır.**

Ədliyyə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Milli Qurtuluş Günü Ədliyyə Nazirliyində və onun bütün struktur qurumlarında geniş qeyd olunub, bayram münasibətilə nazirliyin rəhbərliyi və kollektivi ümummilli lider Heydər Əliyevin nazirlikdəki büstü önünə gül dəstələri qoyub, əziz xatirəsini bir dəqiqəlik sükutla yad ediblər.

Tədbirdə ədliyyə naziri Fikrət Məmmədov əbədiyaşar lider Heydər Əliyevin Azərbaycan xalqı və dövləti qarşısındakı fədakar xidmətlərindən, Ümummilli Liderin Azərbaycanda müasir ədliyyə sisteminin yaradılmasına və fəaliyyətinə qayğısından bəhs edib, Ulu Öndərin siyasi kursunu uğurla davam etdirən Prezident İlham Əliyevin rəhbərliyi ilə respublikamızın bütün sahələrində qazanılmış böyük nailiyyətləri vurğulayıb.

Həmçinin ədliyyə orqanlarına qulluğa qəbul olunmuş bir qrup gənclərlə görüş keçirilib.

Gənclər əvvəlcə Heydər Əliyev Sarayının qarşısındakı parka gələrək Ulu Öndərin xatirəsini ehtiramla anıb, abidəsi önünə əklil qoyublar.

Görüşdə nazir müavini Toğrul Musayev ulu öndər Heydər Əliyevin zəngin həyat yolundan, titanik fəaliyyətindən, ölkəmizdə qanunun aliliyi, insan hüquqlarının təminatı, dövlət quruculuğu istiqamətində misilsiz xidmətlərindən danışıb, dahi öndərin hüquq mühafizə orqanlarında kadrların seçilib yerləşdirilməsi, onların Azərbaycan dövlətinə sədaqətlə xidmət etməsi, sağlam mənəviyyata, yüksək mənəvi keyfiyyətlərə malik olması ilə bağlı tələblərini xüsusilə diqqətə çatdırıb, ölkə başçısının rəhbərliyi ilə aparılan dövlət gənclər siyasətinə uyğun olaraq həyata keçirilən tədbirləri qeyd edib.

Çıxış edən gənclər dahi öndər Heydər Əliyevin memarı və qurucusu olduğu müstəqil Azərbaycanımızın hərtərəfli inkişafı naminə sədaqətlə xidmət göstərəcəklərini vurğulayıb, onlara bu əziz bayram ərəfəsində göstərilən yüksək etimadı doğruldacaqlarına, ədliyyə işçisi adını şərəflə daşıyacaqlarına və daim uca tutacaqlarına söz veriblər.

Bayramla əlaqədar nazirlikdə Heydər Əliyev Muzeyində əbədiyaşar liderimizin həyatı və fəaliyyəti, zəngin dövlətçilik irsi ilə bağlı yeni foto və ekspozisiyalarla tanış olunub, kinozalda ümummilli liderə həsr olunmuş filmlər, eləcə də foto-slaydlar nümayiş etdirilib. Əməkdaşlar, həmçinin Nizami Kino Mərkəzində Heydər Əliyevin 95 illik yubileyinə həsr olunmuş "Qılınc və qalxan" sənədli filminə tamaşa ediblər.

**AZƏRTAC**

# Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsində kollegiya iclası keçirilib

**İyunun 14-də Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsində kollegiya iclası keçirilib.**

Dövlət Komitəsindən AZƏRTAC-a bildiriblər ki, Komitə sədri Rövşən Rzayev iclası açaraq aprelin 11-də keçirilmiş prezident seçkilərinin ölkəmizin ictimai-siyasi həyatında mühüm hadisə olduğunu, dövlətimizin başçısı İlham Əliyevin yenidən bu ali vəzifəyə seçilməsinin xalq-iqtidar birliyinin möhkəmliyini bir daha nümayiş etdirdiyini vurğulayıb. Prezident İlham Əliyevin mərkəzi icra hakimiyyəti orqanları, o cümlədən Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi qarşısında çox mühüm və təxirəsalınmaz vəzifələr qoyduğu qeyd edilib. Verilən tapşırıqları vaxtında və yüksək səviyyədə yerinə yetirmək üçün daha böyük məsuliyyət və əzmkarlıqla çalışmağın zəruriliyi diqqətə çatdırılıb. Bildirilib ki, Prezident İlham Əliyevin siyasətinin mərkəzində ölkə vətəndaşları, onların sosial rifahı dayanır ki, bu baxımdan da məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılması istiqamətində həyata keçirilən tədbirlər və layihələr prioritet hesab edilir.

İclasda gündəlikdəki məsələlərə dair müzakirələr aparılıb, qarşıda duran vəzifələr müəyyənləşdirilib, onların yerinə yetirilməsi üçün konkret tapşırıqlar verilib.

**AZƏRTAC**

# Azərbaycan və Qazaxıstan bütün beynəlxalq tədbirlərdə bir-birini dəstəkləyir

**İyunun 14-də Qazaxıstan Respublikası Prezidenti Administrasiyası Dəftərxanasının rəhbəri Mahmud Kasımbekovun başçılıq etdiyi nümayəndə heyəti Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyində olub.**

AZƏRTAC xəbər verir ki, Mahmud Kasımbekov mədəniyyət naziri Əbülfəs Qarayev ilə görüşündə Azərbaycana səfəri çərçivəsində Heydər Əliyev Mərkəzində Qazaxıstan Prezidentinin həyat və fəaliyyətindən bəhs edən "Nursultan Nazarbayev. Həyat yolu" kitabının Azərbaycan dilində nəşrinin təqdimat mərasimi ilə bağlı təəssüratlarını bölüşüb. Qeyd olunub ki, Azərbaycan ilə Qazaxıstan arasında münasibətlər ulu öndər Heydər Əliyevlə Nursultan Nazarbayevin möhkəm dostluğu sayəsində daha da möhkəmlənib. İki ölkə rəhbərinin xalqlarımız arasında dostluğun daha da möhkəmlənməsi naminə göstərdiyi səylər, tarixi səfərlər, qarşılıqlı səmimi münasibətlər bu gün də davam və inkişaf etdirilir.

Əbülfəs Qarayev Azərbaycanla Qazaxıstan arasında mədəniyyət sahəsində mövcud əməkdaşlıq əlaqələrindən söz açıb. Ölkələrimiz arasında dostluq münasibətlərinin qədim tarixi köklərə malik olduğunu diqqətə çatdıran nazir vurğulayıb ki, bu tarixi, milli bağlılıq səbəbindən iki qardaş ölkə bütün beynəlxalq tədbirlərdə bir-birini dəstəkləyir. Azərbaycanın Qazaxıstanla hərtərəfli əməkdaşlığı mövcuddur və bu əlaqələr daha da genişlənir.



Nazir iki dövlət arasında münasibətlərin yüksək səviyyədə olmasının əsasında Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevlə Nursultan Nazarbayevin çox yaxın dostluğunun dayandığını vurğulayıb. Diqqətə çatdırıb ki, iki ölkə arasındakı bu dostluq Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Qazaxıstan ilə Azərbaycan strateji tərəfdaş ölkələrdir. 2016-cı ildə UNESCO-nun Qeyri-Maddi Mədəni İrsin Qorunması üzrə Hökumətlərarası Komitəsinin Efiopiyanın paytaxtı Əddis-Əbəbə şəhərində keçirilən 11-ci sessiyasında ölkəmizin təşəbbüsü ilə Azərbaycan, Türkiyə, İran, Qazaxıstan və Qırğızıstan tərəfindən UNESCO-ya birgə təqdim edilən "Lavaş, katırma, jupka, yufka - nazik çörəyin hazırlanma və paylaşma mədəniyyəti" təşkilatın Qeyri-Maddi Mədəni İrs üzrə Reprezentativ siyahısına daxil edilib.

Əbülfəs Qarayev, həmçinin TÜRKSOY-un layihələrində ölkələrimizin fəal iştirakını yüksək qiymətləndirib. Qeyd edib ki, "İstanbul - Avropa Mədəniyyətinin Paytaxtı - 2010" mədəniyyət ili çərçivəsində I Beynəlxalq İstanbul Opera Festivalında TÜRKSOY-un təşəbbüsü ilə hazırlanmış "Koroğlu" operasının nümayişində və ümumilikdə bu layihədə Azərbaycan və Qazaxıstan da yaxından iştirak edib. Bu tamaşa Bakı, Bişkek, Almatı və Ankara şəhərlərində də böyük uğurla nümayiş olunub.

Nazir ölkələrimiz arasında əlaqələrin bundan sonra daha da genişlənəcəyinə əminliyini bildirib.

Qazaxıstanın mədəniyyət və idman naziri Arıstanbek Muxamediulı isə gələcəkdə iki ölkə arasında müştərək mədəni layihələrin həyata keçirilməsi istiqamətində fikirlərini bölüşüb.

Görüşdə Azərbaycanda və Qazaxıstanda qarşılıqlı mədəniyyət günlərinin keçirilməsi, habelə kino və teatr sahəsində əməkdaşlıqla bağlı bir sıra məsələlər müzakirə edilib.

**AZƏRTAC**

# Bakıda ilk dəfə olaraq "CANSO-2020" Ümumdünya aeronaviqasiya sammiti keçiriləcək

**Azərbaycanın paytaxtı 2020-ci ildə CANSO (Civil Air Navigation Services Organization) beynəlxalq aeronaviqasiya təminatı provayderləri təşkilatının "Global ATM Summit" ümumdünya sammitinə ev sahibliyi etmək üçün seçilib.**

Bakının namizədliyi Banqkokda İcraiyyə komitəsinin (FAA (ABŞ), Kanada, Almaniya, Çexiya, Argentinanın aeronaviqasiya sistemləri, Sinqapur, Tanzaniya, Böyük Britaniya və Səudiyyə Ərəbistanının mülki aviasiya administrasiyalarının rəhbərlərindən ibarətdir) iclasında yekdilliklə seçilmişdir. Daha sonra CANSO-nun baş məclisi zamanı Bakının namizədliyinin lehinə 70-dən çox ölkə səs verib.

"Global ATM Summit" illik sammiti mülki aviasiya sahəsində ən mötəbər tədbirlərdən biridir. Sammitdə dünyanın 100-dən çox ölkəsindən 250-dən çox iştirakçı iştirak edir. Bu tədbir miqyasına görə tez-tez aviasiya sahəsində olimpiada ilə müqayisə edilir.

Azərbaycanın mülki aviasiya tarixində bu cür böyük və əhəmiyyətli sammit Bakıda ilk dəfə olaraq keçiriləcək. CANSO-nun böyük əhəmiyyətli beynəlxalq sammitin keçirilməsini Bakıya etibar etməsi qərarı Azərbaycan Prezidenti İlham Əliyevin mülki aviasiyaya göstərdiyi daimi diqqət və qayğısının, eyni zamanda bu sahədə əldə olunan uğurların əyani göstəricisidir.

2020-ci il üçün tədbirin əsas mövzusu gələcəkdə hava axınlarının qlobal təşkilinin strateji istiqamətini müəyyənləşdirən yenidən baxılmış "CANSO: Fit for the Future of ATM" proqramın təsdiq edilməsi olacaq.




Son illərdə sammit Dublində (2014), Durbanda (2015), Vankuverdə (2016) və Kopenhagendə (2017) keçirilmişdir. Bu il Banqkokda keçirilən sammit 2019-cu ildə Cenevrədə keçiriləcək.

CANSO ümumilikdə dünya hava trafikinin 85 faizini əhatə edir və gələcək təhlükəsiz hava məkanı modelinin yaradılması məqsədilə aeronaviqasiya xidmətləri provayderlərini, bütün dünyanın aviasiya hakimiyyətlərinin tənzimləyici və icra orqanlarını, həmçinin aviasiya sənayesinin aparıcı istehsalçılarını özündə birləşdirir.

Bu gün CANSO-nun bütün dünyada 164-dən çox üzvü var. Azərbaycan 2005-ci ildən təşkilatın üzvüdür.

"Azərbaycan Hava Yolları" QSC-nin struktur bölməsi olan "Azəraeronaviqasiya" (AZANS) Avropa və Asiyanı birləşdirən əsas hava hərəkəti idarəsidir. Hər il Azərbaycan Respublikasının ərazisi üzərindən 90 mindən çox tranzit uçuşlar yerinə yetirilir. Azərbaycanın əlverişli coğrafi mövqeyi həmçinin ölkə ərazisində postsovet məkanında yeganə olan Hava Məkanından İstifadə, Strategiya və İnkişaf üzrə Səmərəlilik Mərkəzinin (ASEC) açılmasına imkan vermişdir.

**"Azərbaycan Hava Yolları" QSC-nin mətbuat xidməti.**

# Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə Kaluqa vilayətində tələbələrin "Turizm toplantısı" turniri keçirilib

**Heydər Əliyev Fondunun vitse-prezidenti, Rusiyanın Azərbaycanlı Gənclər Birliyinin (RAGB) sədri Leyla Əliyevanın təşəbbüsünə əsasən, Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin dəstəyi ilə Rusiya Federasiyasının Kaluqa vilayətində şəhərətrafı "PineRiver" otelində tələbələrin "Turizm toplantısı" turniri keçirilib.**

AZƏRTAC xəbər verir ki, RAGB-nin idarə heyətinin üzvü Emin Hacıyev açılış mərasimində idman toplantısının iştirakçılarını salamlayaraq, gənclər təşkilatı tərəfindən keçirilən idman tədbirlərinə göstərilən marağa görə onlara təşəkkürünü bildirib.

E.Hacıyev gənclərə RAGB-nin fəaliyyəti barədə, görülmüş işlər və gələcək planlar barədə məlumat verib. O deyib: "Leyla xanım Əliyeva bu yaxınlarda, mayın 31-də Həştərxanda RAGB-nin regional nümayəndəliklərinin üzvləri ilə görüşüb. Mühüm məsələlər qaldırılan görüşün iştirakçıları fikir mübadiləsi aparıb, qarşıdakı vəzifələri müzakirə ediblər. Leyla xanım öz çıxışında RAGB-nin idman layihələrinə diqqəti cəlb edib, bizim fəalların bu sahədə qazandığı uğurları qeyd edib. Mənə çox xoşdur ki, siz hamınız sağlam həyat tərzinə böyük diqqət yetirirsiniz. Bizim bugünkü turnirimiz Azərbaycanın istedadlı gənclərini birləşdirir, onların vətənpərvərlik ruhunu möhkəmlədir. Bütün bunlar bizim təşkilatın əsasını təşkil edir. Qarşıda bizi maraqlı layihələr gözləyir. Sizi bu layihələrdə görməyə şad olarıq. Mən hər birinizə yaxşı oyun və gümrahlıq arzu edirəm".





Sonra komandalar təqdim edilib, onlara təlimat verilib, daha sonra Rusiya Federasiyasının, Azərbaycan Respublikasının və RAGB-nin bayraqları qaldırılıb.

İdman-sağlamlıq turnirinin ən güclü və ən yaxşı iştirakçıları adı uğrunda M.V.Lomonosov adına Moskva Dövlət Universitetini (MDU), RF Hökuməti yanında Maliyyə Universitetini, Ali İqtisad Məktəbini, İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetini (MDTU), Q.V.Plexanov adına Rusiya İqtisad Universitetini (RİU), Moskva Dövlət Pedaqoji Universitetini (MDPU), RAGB-nin Kaluqa regional bölməsini təmsil edən 12 komanda mübarizə aparıb.

Yarışlarda RAGB-nin 100-ə yaxın fəal üzvü iştirak edib. Onlar "Friroup", "Skaladrom", Kamandan oxatma, "Yüksək şəhərcik", "Turizm zolağı", Kanoedə üzmə və digər növlərdə güclərini sınayıblar.

Yarışların yekunlarına əsasən "Panterı" komandası (İ.M.Seçenov adına MDTU) oyunun qalibi olub. İkinci yeri MDPU-nun "Şirlər" komandası, üçüncü yeri MADİ-nin "Qorillalar" komandası tutub. "Canavarlar", "Şahinlər", "Ayılar" komandaları qələbə əzminə görə təltif ediliblər.

İdman yarışlarının iştirakçıları bu münasibətlə təşkil edilmiş səhra mətbəxində qidalanıblar.

**AZƏRTAC**

*15 iyun Milli Qurtuluş Günüdür*

# Azərbaycanın tərəqqisinə və firavanlığına həsr olunmuş həyat yolu

**Ümummilli liderimiz Heydər Əliyev Azərbaycan xalqının tarix boyu yetişdirdiyi nadir şəxsiyyətlərdən biridir. Həyatının mənasını xalqa və dövlətə xidmətdə görən ulu öndərimiz bu müqəddəs amal uğrunda ən çətin sınaqlara mərdliklə sinə gərən millət fədaisi kimi daim böyük ehtiramla, rəğbətlə xatırlanır. Böyük tarixi missiyaları yerinə yetirmək qüdrətinə malik olan dahi şəxsiyyətlər arasında ümummilli liderimiz Heydər Əliyevin müstəsna yeri vardır. Öz xalqı və Vətəni qarşısında misilsiz xidmətlərinə, tarixi proseslərdə həlledici roluna görə ulu öndəri dünya miqyaslı siyasi nəhənglərlə müqayisə edirlər. Çünki Heydər Əliyevin adı Azərbaycan xalqının lideri və xilaskarı kimi müasir tariximizə əbədi həkk olunmuşdur. Bütün ömrünü Azərbaycanın tərəqqisinə sərf edən bu müdrik insan demişdir: "Mənim üçün hər şeydən əziz mənim xalqımdır, mənim Vətənimdir, mənim torpağımdır".**



Ulu öndər Azərbaycana rəhbərlik etdiyi illər ərzində böyük, elmi, intellektual, kadr, iqtisadi və enerji potensialı yaradılmasına nail olmuş, ölkəmizin müstəqil yaşaması üçün möhkəm təməl qoymuşdur. Məhz buna görə də Azərbaycan xalqı qazanılmış müstəqilliyə və onun qorunub saxlanması sahəsində əldə edilmiş bütün nailiyyətlərə görə dahi şəxsiyyətə daim minnətdarlıq ifadə edir. Heydər Əliyev yenidən hakimiyyətə qayıdarkən öz xalqına sədaqət və sevgisini ifadə edib: "Mənim həyatım xalqa məxsusdur və bundan sonra ömrümün qalan hissəsini də xalq üçün əsirgəməyəcəyəm. Həyatımın mənasını ancaq xalqa sədaqətlə xidmət etməkdə görürəm. Mənim üçün ən böyük mükafat bundan sonra da xalqın etimadını doğrultmaqdan ibarətdir".

Azərbaycan xalqının minillik arzusunu tarixi reallığa çevirmiş, böyük qurbanlar bahasına əldə olunan müstəqilliyi zamanın çətin sınaqlarından çıxararaq qoruyub saxlamış ulu öndərin respublikamıza rəhbərlik etdiyi 34 il ərzində göstərdiyi xidmətləri saymaqla qurtaran deyil. Ümummilli liderimizin ən böyük xidməti isə müstəqil siyasət yürüdən güclü Azərbaycan dövlətini yaratmasıdır. Xalq Heydər Əliyevi yalnız siyasi lider kimi deyil, həm də milli dövlətçilik ideologiyasının müəllifi kimi qəbul edir. Həqiqətən də, Heydər Əliyev siyasi kursundan kənarda Azərbaycan dövlətçiliyi yoxdur və ola da bilməz.

1993-cü il iyunun 15-i Azərbaycan tarixinə Milli Qurtuluş Günü kimi daxil olub və dövlətçiliyimiz yox olmaq təhlükəsindən xilas edilib. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev öz xilaskarlıq missiyası ilə ölkəmizin müstəqilliyini qorudu, respublikada tüğyan edən ictimai-siyasi böhranı aradan qaldırdı və inkişafın təməlini qoydu. Bu gün milli qurtuluş ideologiyasının təntənəsi müstəqil respublikamızın davamlı inkişafında özünü büruzə verir, regionda və dünyada Azərbaycanın nüfuzu daha da artır.

Milli qurtuluş fəlsəfəsi sözün geniş mənasında Azərbaycanın mövcudluğunu, onun ən böyük tarixi nailiyyəti olan müstəqilliyini təmin etdi. Xalqın təkidli tələbi ilə ikinci dəfə hakimiyyətə qayıdan Heydər Əliyev iyunun 15-də Azərbaycan Ali Sovetinin sədri seçildi. Ulu öndər böyük risklərə baxmayaraq, xalqın qurtuluşu missiyasını cəsarətlə öz üzərinə götürdü. Bununla da ölkədə uzun illər davam edən gərginlik və qarşıdurma səngidi, respublikamız vətəndaş müharibəsindən və parçalanma təhlükəsindən xilas oldu. Beləliklə, bu mühüm tarixi gün xalqımızın yaddaşına Milli Qurtuluş Günü kimi həkk olundu və 1997-ci ildən etibarən parlamentin qərarı ilə rəsmi bayram kimi qeyd olunur.

Milli Məclisin 1993-cü il iyunun 15-də keçirilən iclasındakı çıxışında ulu öndər Azərbaycan dövlətçiliyinin gələcək inkişaf strategiyasını elan etdi və sonrakı illərdə onu həyata keçirdi. Əgər müstəqilliyi qazanmaq ilkin şərt idisə, ikinci vacib məsələ onu qoruyub inkişaf etdirmək idi və bu, ümummilli liderin iradəsi sayəsində reallığa çevrildi. Heydər Əliyev milli dövlətçiliyimizin konsepsiyasını yaratdı. Bütün maneələrə baxmayaraq ən qısa müddətdə ölkədə ictimai-siyasi sabitlik bərpa olundu. AXC-Müsavat hakimiyyəti isə təbii ki, Heydər Əliyevin uğurlarını qısqanclıqla qarşılayıb ona mane olmağa çalışdı. Vəziyyətdən səbirlə çıxan Prezident Heydər Əliyev televiziya vasitəsilə xalqa müraciət etdi. İyunun 20-də Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması məqsədilə yerli və xarici jurnalistlər üçün brifinq keçirdi. İyunun 21-də isə bir sıra ölkələrin diplomatları ilə görüşdü. Bu sahədə yürüdülən siyasət respublikanı informasiya blokadasından çıxardı. Dünyada ölkəmizlə bağlı formalaşan fikir müsbət yönümdə dəyişdi. Məhz belə bir mürəkkəb siyasi şəraitdə Heydər Əliyevin böyük potensialı Azərbaycanın müstəqilliyinin qarantına çevrildi. Ümummilli liderin şəxsiyyəti, onun özünəməxsus siyasi idarəetmə qabiliyyəti, xarizması, qətiyyəti, uzaqgörənliyi böhrana son qoydu, xalqımız Azərbaycan və azərbaycançılıq ideyaları ətrafında birləşdi. Ümummilli liderin müdrikliyi və qətiyyəti sayəsində Azərbaycanda vətəndaş qarşıdurmasına birdəfəlik son qoyuldu, ölkəmiz xaosdan, siyasi çəkişmələrdən, sosial-iqtisadi böhrandan xilas oldu. Azərbaycan müstəqil, demokratik, hüquqi və dünyəvi dövlət kimi inkişaf etməyə başladı. Respublikanın qarşısında duran problemlər mərhələlərlə həll olundu, əmin-amanlıq, siyasi sabitlik yarandı. İctimai-siyasi, sosial-iqtisadi, elmi və mədəni həyatda əsaslı dönüş başlandı, xalqımızın bütövlüyü, həmrəyliyi, milli birliyi təmin edildi, Azərbaycanın dünya birliyinə inteqrasiyası başlandı.

Ümummilli lider Heydər Əliyevin 1993-cü il iyunun 15-də Azərbaycanda hakimiyyətə qayıdışı dövlətçilik tariximizin şanlı səhifəsini təşkil edir. Qədirbilən xalqımız böyük xilaskarının xidmətlərini unutmur və 15 İyun - Milli Qurtuluş Gününü hər il yüksək əhvali-ruhiyyə ilə qeyd edir.

Ulu öndər Azərbaycanda hamının - bütün vətəndaşların hüquqlarını qoruya bilən dövlətin əsasını qoydu, yalnız hüququn aliliyinə əsaslanan idarəetmə sistemi yaratdı. Bunun üçün, ilk növbədə ictimai-siyasi sabitliyin bərqərar edilməsinə nail olmaq lazım idi. Ümummilli liderimizin gərgin səyləri möhkəm sabitliyin yaradılmasına və Azərbaycanda normal siyasi münasibətlər sisteminin formalaşmasına gətirib çıxardı ki, bu da ümumilikdə dövlətin siyasi əsaslarının möhkəmləndirilməsinə səbəb oldu.

XX əsrin sonu Azərbaycanda müstəqil dövlətçilik ənənələrinin formalaşması mərhələsidir. Bu mərhələnin şəriksiz müəllifi alternativi olmayan unudulmaz şəxsiyyət Heydər Əliyevdir. Ümummilli lider şəxsiyyət kimi zamanın yaddaşında bir də ona görə əbədilik qazanıb ki, tükənməz istedadını, zəngin təcrübəsini azad və müstəqil dövlət qurmağa sərf edib və hər şeydən əvvəl xalqın xilaskarı olub. Buna görə də xalqın əbədi məhəbbətini qazanıb. Onun parlaq ideyaları hələ uzun illər boyu gələcəyə gedən yollarımızı işıqlandıracaqdır. Bütün mənalı ömrünü xalqa həsr edən bu nurlu şəxsiyyətə bəslənilən sevgi sonsuzdur. Qədirbilən xalqımız onun xidmətlərini heç vaxt unutmayacaq, parlaq ideallarını öz yolunda mayaka çevirəcəkdir. Xalqımız Heydər Əliyev irsindən zaman-zaman bəhrələnəcəkdir.

Ümummilli liderimizin xalqın birliyi yolunda göstərdiyi titanik fəaliyyəti hər bir soydaşımız üçün nümunədir. Biz Azərbaycanı sevməyi ümummilli liderimizdən öyrənməliyik. Heydər Əliyev dünyaya yalnız xalq üçün, onun səadətə yetişməsi üçün gəlmişdi. Haqqın, ədalətin bərpası, ölkənin inkişaf etdirilib sivil cəmiyyətə çevrilməsi üçün çəkdiyi min bir əziyyət onun tale yolu, ömür yolu olmuşdur. Ümummilli liderimiz əmanət olaraq xalqımıza zəngin maddi və mənəvi dəyərlər, siyasi və iqtisadi cəhətdən etibarlı dayaqlar üzərində qurulmuş Azərbaycan qoydu. 1994-cü ildə imzalanan "Əsrin müqaviləsi" Heydər Əliyevin uzaqgörən neft siyasətinin ilk konturları idi. Məhz bu müqavilədən sonra inkişaf etmiş dünya dövlətlərinin Azərbaycana, burada cərəyan edən proseslərə marağı artdı. Ölkədə uğurlu islahatların bünövrəsi qoyuldu. Ümummilli liderimiz Heydər Əliyevin Azərbaycan Respublikasının dövlət müstəqilliyi qazanmasında, onun təhsil, elm, mədəniyyət sahəsində böyük uğurlar əldə etməsində əvəzsiz xidmətləri olmuşdur. Uzun illər, qərinələr keçəcək, ümummilli lider, dahi şəxsiyyət və dünya şöhrətli siyasətçi Heydər Əliyevin xalqımız qarşısında xidmətlərinin yeni-yeni çalarları məlum olacaqdır.

Dahi şəxsiyyətlərin, mütəfəkkirlərin, filosofların, öz xalqlarının tarixində, o cümlədən bəşəri dəyərlərin, dövlətçilik ənənələrinin inkişafında oynadıqları rol zaman keçdikcə öz tarixi dəyərini daha aydın göstərir. XX əsrin ikinci yarısında Azərbaycanın, regionun, SSRİ adlanan böyük bir fövqəldövlətin təhsilinin, sənayesinin, elminin, mədəniyyətinin idarə və inkişaf etdirilməsində böyük şəxsiyyət Heydər Əliyevin xidmətləri əvəzsizdir. Ulu öndər Heydər Əliyevin Azərbaycana birinci dəfə rəhbərlik etdiyi 1969-1982-ci illərdə sənayenin, istehsalatın, elmin, təhsilin, mədəniyyətin, bir sözlə hər bir sahənin əsaslı inkişafına nail olunmuşdu. 1970-ci ildə 1965-ci illə müqayisədə respublikada ümumdaxili məhsul 34 faiz, milli gəlir 33 faiz, sənaye istehsalı 37 faiz, kənd təsərrüfatı 27 faiz, əsaslı vəsait qoyuluşu 43 faiz, əsas istehsal fondları 34 faiz artmışdı. Növbəti illərdə bu inkişaf dinamikası daha da güclənmişdi. Ümumiyyətlə, 1969-cu ilədək Azərbaycanda cəmi 233 iri və orta sənaye müəssisəsi işləyirdisə, 1970-1982-ci illərdə bölgələri də əhatə edən 300-ə yaxın yeni iri və orta sənaye müəssisəsi işə salınmışdı. O, Sovet imperiyası dövründə sərt totalitar rejimin, az da olsa, verdiyi imkanlardan maksimum istifadə edərək, bəzən isə imkanları məhdudlaşdıran qanunlardan məharətlə yan keçərək Azərbaycanın sosial-iqtisadi, siyasi-mədəni inkişafı, bütövlükdə onun çiçəklənməsi üçün mümkün olan hər şeyi etmişdir.

**"Təhsil millətin gələcəyidir"** deyən ümummilli lider Heydər Əliyev Azərbaycanda hakimiyyətə gəlişinin ilk günündən onun inkişafına qayğını ön plana çəkərək, təhsilin yüksəlişinə nail olmaq üçün bütün potensial imkanlardan istifadəyə geniş şərait yaratmışdır. Nəticədə, ötən əsrin 70-80-ci illəri Azərbaycan təhsilinin sürətlə yüksəliş illəri kimi tarixi yaddaşımıza daxil olmuşdur. Keçmiş SSRİ-nin ali rəhbərliyində çalışdığı 1982-1987-ci illərdə Heydər Əliyev digər sahələrlə yanaşı, super dövlətin təhsil sisteminə, eləcə də SSRİ-də keçirilən ümumi təhsil və peşə məktəbi üzrə islahat prosesinə rəhbərlik etmişdir. 70-80-ci illərdə Heydər Əliyevin qayğısı nəticəsində 350 mindən çox şagird yeri olan 680 ümumtəhsil məktəbi tikilib istifadəyə veilmişdir. 1969-1982-ci illərdə məktəbəqədər tərbiyə müəssisələrinin sayı 1600-dən 1875-ə çatmış, 1979-cu ildə orta məktəblərin şəbəkəsi 1965-ci illə müqayisədə 3 dəfədən çox artmışdır.

Müdrik dövlət başçısının təhsilin inkişafına göstərdiyi misilsiz xidmətlərdən biri də 1970-1980-ci illərdə azərbaycanlı gənclərin keçmiş SSRİ-nin ən nüfuzlu ali məktəblərinə oxumağa göndərilməsi idi. O vaxt Azərbaycandan kənarda təhsil almağa göndərilmiş, indi xalqımızın fəxrlə "Heydər Əliyevin kadrları" adlandırdığı 15 mindən çox gənc bu gün xalq təsərrüfatının, elm, təhsil, mədəniyyətin müxtəlif sahələrində uğurla çalışırlar. Ulu öndərimiz hakimiyyətdə olduğu bütün dövrlərdə - 1970-80-ci illərdə, həm də müstəqillik dövründə Azərbaycanın və xalqımızın hərtərəfli inkişafında çox mühüm rol oynayıb. Bu dahi şəxsiyyətin müəyyənləşdirdiyi müdrik siyasi kurs bu gün də, gələcəkdə də dəyişməz olaraq qalacaqdır. Çünki bu siyasət Azərbaycana daim uğur, xoşbəxtlik gətirir. Ulu öndərimizin siyasəti yaşayır, möhkəmlənir və zənginləşir.

**"Hər bir xalq öz dili ilə yaranır. Ancaq xalqının dilini yaşatmaq, inkişaf etdirmək və dünya mədəniyyəti səviyyəsinə qaldırmaq xalqın qabaqcıl adamlarının, elm, bilik xadimlərinin fəaliyyəti nəticəsində mümkün olur..."** - deyən ulu öndərin o zaman bütün təzyiqlərə baxmayaraq, 1978-ci il Konstitusiyasında Azərbaycan dilini dövlət dili kimi qəbul etdirməsi həqiqətən onun öz xalqı, öz vətəni qarşısında göstərdiyi böyük xidmət olmuşdur.

1969-cu ildən etibarən, Heydər Əliyevin Azərbaycan rəhbərliyinə qayıdışı və həyata keçirdiyi təxirəsalınmaz tədbirlərin nəticəsi olaraq ölkədə ictimai-siyasi, sosial, iqtisadi, elmi-mədəni yüksəliş baş vermişdir. Onun bu fəaliyyəti, həmçinin, beynəlxalq əlaqələrdə dönüş yaratmış, elmi əsaslara, beynəlxalq norma və prinsiplərə uyğun müstəqil dövlət quruculuğunun başlanmasına təkan vermişdir.

Dünya şöhrətli siyasi və dövlət xadimi Heydər Əliyevin bütün ömrü doğma vətənimizin iqtisadi, sosial və mədəni tərəqqisinə, xalqımızın firavanlığı və xoşbəxtliyi, ölkəmizin dünya birliyində özünəməxsus layiqli yer tutması uğrunda mübarizəyə həsr olunmuşdur. Heydər Əliyev keşməkeşli, yaradıcı həyatını demək olar ki, dövlət işinə həsr etmişdir. Müasir tariximizin çox vacib bir dövrü, habelə bugünkü həyatımız məhz bu böyük şəxsiyyətin siyasi iradəsi, dövlətçilik təfəkkürü, idarəetmə qabiliyyəti ilə müəyyən olunub. Azərbaycan xalqının və dövlətçiliyinin inkişafında misilsiz xidmətləri olan ümummilli lider, milli dövlətçiliyimizin memarı və qurucusu Heydər Əliyevin həyatı, siyasi və dövlətçilik fəaliyyəti tarixə qızıl hərflərlə yazılıb. Böyük öndərimiz tariximizə xilaskar kimi daxil olub və respublikamıza rəhbərlik etdiyi hər iki dövrdə bu missiyanı çox böyük uğurla yerinə yetirib. Müasir Azərbaycan cəmiyyətinin formalaşması, müstəqil Azərbaycan dövlətinin qurulması birbaşa Heydər Əliyevin adı ilə bağlıdır. Təsadüfi deyil ki, ümummilli liderimiz azərbaycanlı olması ilə fəxr etdiyi kimi, hər bir azərbaycanlı da bu gün Heydər Əliyevin ən böyük sənət əsəri olan müstəqil, inkişaf etməkdə olan Azərbaycanın vətəndaşları olmaqdan qürur duyur, böyük öndərə sayğı və məhəbbətini onun ideyaları ətrafında daha da sıx birləşməklə nümayiş etdirir.

Ulu öndər siyasi fəaliyyətinin bütün mərhələlərində Vətənə, xalqa, torpağa sonsuz məhəbbət və sədaqət hissi ilə, qurub-yaratmaq amalı ilə yaşamış, hər zaman milli dəyərlərə bağlı olmuşdur. Ümummilli liderimiz bütün zəngin və mənalı həyatı boyu daim xalqını, Vətənini düşünmüş, Azərbaycanın ən çətin məqamlarında onu üzləşdiyi faciələrdən, çətinliklərdən xilas etmək üçün misilsiz fədakarlıqlar göstərmiş, təbiətin bəxş etdiyi bir çox keyfiyyətlər sayəsində tarixi hadisələrin inkişaf məcrasını qabaqcadan müəyyən edə bilmişdir. Heydər Əliyev milli tarix üçün böyük əhəmiyyət daşıyan qərarlar qəbul edilən zaman əsl vətənpərvər mövqeyi tutmuş, özünün siyasi bacarığı sayəsində Azərbaycanı ictimai-siyasi böhrandan xilas etmiş, xalqının qəlbində sabaha inam hissi yaratmağı bacarmışdır. Ulu öndər Azərbaycanda hamının eyni dərəcədə inandığı bir ideologiyanın müəllifidir. O, bütün vətəndaşların hüquqlarını qoruya bilən dövlətin əsasını qoydu və yalnız hüququn aliliyinə əsaslanan idarəetmə sistemi yaratdı. Bunun üçün, ilk növbədə ictimai-siyasi sabitliyin bərqərar edilməsinə nail olmaq lazım idi. Ümummilli liderimizin gərgin səyləri möhkəm sabitliyin yaradılmasına və Azərbaycanda normal siyasi münasibətlər sisteminin formalaşmasına gətirib çıxardı ki, bu da ümumilikdə dövlətin siyasi əsaslarının möhkəmləndirilməsinə səbəb oldu.

XX əsrin sonu Azərbaycanda müstəqil dövlətçilik ənənələrinin formalaşması mərhələsidir. Bu mərhələnin şəriksiz lideri alternativi olmayan unudulmaz şəxsiyyət Heydər Əliyevdir. Ümummilli lider şəxsiyyət kimi zamanın yaddaşında bir də ona görə əbədilik qazanıb ki, tükənməz istedadını, zəngin təcrübəsini azad və müstəqil dövlət qurmağa sərf edib və hər şeydən əvvəl, xalqın xilaskarı olub. Milyonlarla insanın ümid çırağına çevrilərək qəlblərdə əbədi yurd salmaq heç də bütün rəhbərlərə, liderlərə nəsib olmur. Hələ sağlığında canlı əfsanəyə çevrilmiş Heydər Əliyev ürəklərdə özünə əbədi abidə ucaldıb. Onun parlaq ideyaları hələ uzun illər boyu gələcəyə gedən yollarımızı işıqlandıracaqdır. Bütün mənalı ömrünü xalqa həsr edən bu nurlu şəxsiyyətə bəslənilən sevgi sonsuzdur. Qədirbilən xalqımız onun xidmətlərini heç vaxt unutmayacaq, parlaq ideyalarını öz yolunda mayaka çevirəcəkdir.

Heydər Əliyev dünyanın nadir insanlarındandır. O, hamının qəlbinə yol tapmağı bacarır, yaddaşlarda dərin iz qoyurdu. Təkrarsız, heyrətamiz yaddaşa malik Heydər Əliyev əsl rəhbərə xas olan ensiklopedik biliyə malik idi. Geniş və zəngin fəaliyyəti onu milli maraqlar çərçivəsinə sığmayan, bəşəri dəyərlərin əxz olunmasında fəal iştirak edən böyük bir siyasətçiyə, dahi bir şəxsiyyətə çevirmişdi. Bu yenilməz şəxsiyyət həm də təvazökarlıq simvolu idi. Ona görə də təkcə bizim xalqımız deyil, bütün dünya ölkələri bu görkəmli dövlət xadiminə, əsrimizin siyasi həyatında mühüm yer tutmuş, uzun və şərəfli yol keçmiş, ən yüksək vəzifələrin məsuliyyətini daşımış insana dərin hörmət və ehtiram bəsləyir.

Ümummilli liderimizin xalqın birliyi yolunda göstərdiyi titanik fəaliyyəti hər bir soydaşımız üçün örnək olmalıdır. Biz Azərbaycanı sevməyi Heydər Əliyevdən öyrənmişik. **"Azərbaycan mənim ürəyimdir, nəfəsimdir",** - deyə böyük öndərimiz millətimizin və dövlətimizin əbədiyaşarlığı üçün əvəzsiz bir siyasi xətt, ideoloji baza miras qoydu. Heydər Əliyevin həyat və fəaliyyəti böyük bir məktəbdir və daim öyrənilməlidir. Şükürlər olsun ki, Ulu Tanrı xalqımızın taleyinə çətin, əzablı günlər yazsa da, bu əzablara sinə gərə biləcək bütün düyünləri açmağa qadir olan Heydər Əliyev dühası kimi böyük şəxsiyyət də qismət edib. Xalq yolunda canını fəda etmiş, bütün həyatı boyu Vətənini və millətini düşünmüş ümummilli liderimizin ideyaları daim yaşayacaq, Azərbaycan xalqı, bütün türk dünyası onu heç vaxt unutmayacaq. Bütün ömrünü xalqımızın tərəqqisinə və firavanlığına həsr etmiş ulu öndərin həyat və fəaliyyəti bizim üçün güc mənbəyidir. Həyatımızın elə bir sahəsi yoxdur ki, orada ümummilli liderimizin izi olmasın. Bugünkü Azərbaycanın sürətli inkişafının təməl daşları da məhz Heydər Əliyevin qüdrətli əlləri ilə hörülüb. Müstəqil Azərbaycan Respublikası Heydər Əliyevin şah əsəridir. Dünya şöhrətli siyasi və dövlət xadimi Heydər Əliyevin bütün ömrü doğma vətənimizin iqtisadi, sosial və mədəni tərəqqisinə, xalqımızın firavanlığı və xoşbəxtliyi, ölkəmizin dünya birliyində özünəməxsus layiqli yer tutması uğrunda mübarizəyə həsr olunmuşdur. Müasir tariximizin çox vacib bir dövrü, habelə bugünkü həyatımız məhz bu böyük şəxsiyyətin siyasi iradəsi, dövlətçilik təfəkkürü, idarəetmə qabiliyyəti ilə müəyyən olunub. Azərbaycan xalqının və dövlətçiliyinin inkişafında misilsiz xidmətləri olan ümummilli lider, milli dövlətçiliyimizin memarı və qurucusu Heydər Əliyevin həyatı, siyasi və dövlətçilik fəaliyyəti tarixə qızıl hərflərlə yazılıb.

Ümummilli liderimizin bizə ərməğan qoyub getdiyi zəngin irsi bu gün də, sabah da öyrənilməli, onun əsas mahiyyəti dərk edilməlidir. Bu zəngin irs müstəqil Azərbaycan dövlətinin sütunudur. Məhz bu qüdrətli sütunlar üzərində ucalan müasir Azərbaycan güclü ola bilib. İctimai həyatımızın elə bir sahəsini tapmaq mümkün deyil ki, orada Heydər Əliyevin hərarəti duyulmasın. Ulu öndərimizin hələ 23 il bundan əvvəl uzaqgörənliklə müəyyənləşdirdiyi, konseptual əsaslarını yaratdığı xarici və daxili siyasət kursu, milli neft strategiyası bu gün öz möhtəşəm bəhrələrini verir. "Əsrin müqaviləsi" çərçivəsində reallaşan Bakı-Tbilisi-Ceyhan neft, Bakı-Tbilisi-Ərzurum qaz kəmərləri layihələri Heydər Əliyevin milli neft strategiyasının təntənəsi, Azərbaycanın xoşbəxt gələcəyinin möhkəm bazası və möcüzəli açarıdır. İndiyədək əldə etdiyimiz bütün bu möhtəşəm nailiyyətlərin təməlində ümummilli liderimiz, dünya səviyyəli siyasətçi, dövlət xadimi Heydər Əliyevin Azərbaycanın nəinki bugünkü, hətta bir neçə əsr bundan sonrakı inkişafını da təmin etməyə qadir olan siyasi kursu, milli konsepsiyaları dayanır. Çoxəsrlik dövlətçilik tariximizdə müstəsna yeri olan Heydər Əliyev özünün zəngin siyasi fəaliyyəti sayəsində ölkəmizin hərtərəfli inkişafı prosesinə təkan verərək, onu daimi yüksəliş yoluna çıxarıb. XX əsrin sonlarında xalqımız özünün müstəqillik mübarizəsinin nəticəsi kimi dövlət suverenliyinin yenidən bərpasına nail oldu. Şübhəsiz ki, özünün tarixi keçmişi baxımından zəngin dövlətçilik ənənələrinə malik olan xalqımız bu müstəqilliyə layiq təkamül yolu keçmiş, böyük qurbanlar bahasına azad ölkədə yaşamaq haqqı qazanmışdır. Lakin o da bir gerçəklikdir ki, respublikamızın dövlət müstəqilliyini bərpa etdiyi tarixi şərait SSRİ-ni süquta aparan, bütövlükdə dünyada gedən və dünyanın siyasi xəritəsinin yenidən çəkilməsi kimi xarakterizə edilən qlobal proseslərlə müşayiət edilirdi. Azərbaycan özünün müstəqilliyinin ilk illərindən yeni geosiyasi vəziyyətin diqtə etdiyi ciddi siyasi, iqtisadi, sosial və idarəçilik problemləri ilə qarşılaşmalı oldu. Ermənistanın hərbi təcavüzünün nəticəsi kimi ortaya çıxan Dağlıq Qarabağ problemi və iqtisadi tənəzzül, hüquqi qeyri-müəyyənlik, siyasi təlatümlər, zorakılıqlarla müşayiət olunan hakimiyyət ambisiyaları dövlət həyatını və cəmiyyəti idarəolunmaz vəziyyətə gətirmişdi. Bütövlükdə isə bu problemlər milli təhlükəsizliyin və müstəqilliyin özünün mövcudluğunu ciddi təhdid edəcək səviyyəyə qədər qalxmışdı.

1993-cü ilə qədər ölkəmiz elə vəziyyətə düşmüşdü ki, bir daha dirçələcəyimizə gümanımız yox idi, Azərbaycanın bir dövlət kimi mövcudiyyəti şübhə altına düşmüşdü. Elə bir xaos, özbaşınalıq şəraiti yaranmışdı ki, bundan baş çıxarmaq hər kəsin işi deyildi, yaxın gələcəkdə respublikada sabitliyin bərpa olunacağına bütün dünya şübhə ilə yanaşırdı. Problemlər baş alıb gedirdi, həmin problemləri aradan qaldıra biləcək yeganə qüvvə isə yalnız Heydər Əliyev şəxsiyyəti ola bilərdi. Ölkəni görünməmiş bəlalardan xilas etmək üçün lazım olan enerji, müdriklik və uzaqgörənlik yalnız bu nadir insanda var idi, ümidlər yalnız ona idi.

Heydər Əliyevin hakimiyyətinin ikinci mərhələsi nə qədər təlatümlü, ictimai-siyasi gərginliklərlə səciyyələnən dövrə təsadüf etsə belə, ona xas uzaqgörənlik və siyasi müdriklik, iradə yenilməzliyi, ən əsası, doğma Vətəni düçar olduğu bəlalardan xilas etmək istəyi ölkəmizi sürətlə fəlakətə aparan təhlükəli proseslərin qarşısını almağa, xalqın müstəqilliyə və firavan gələcəyə inamını qaytarmağa qadir olan yeganə qüvvə kimi təsdiqlənmişdir. Ulu öndərimiz Heydər Əliyev böyük şəxsiyyət olaraq cəmiyyətin sivil inkişafını hər bir fərdin maraq və mənafelərinin etibarlı təminatında görərək bunun üçün zəruri tədbirləri həyata keçirmişdir. Məhz ulu öndərin gərgin səyləri nəticəsində hüquqi, demokratik, dünyəvi dövlət quruculuğu yolu ilə irəliləyən müstəqil respublikamızda vətəndaş cəmiyyətinin formalaşması, insanların azad, sərbəst yaşaması, qanunun aliliyinin təmin edilməsi üçün ən yüksək tələblərə cavab verən normativ-hüquqi baza yaradılmışdır. Hüquqa və ədalətə söykənən vətəndaş cəmiyyətinin əsası qoyulmuş, onun təkmilləşdirilməsi prosesi uğurla davam etdirilmişdir. Bu gün Heydər Əliyev idealları yaşayır və qalib gəlir. Azərbaycanda çox böyük sürətlə məktəblər, xəstəxanalar və sair obyektlər tikilir, insanları narahat edən əsas məsələlər öz həllini tapır. Ölkəmizə bütün sahələrdə gərgin iş gedir və bu işlər Azərbaycanın xoşbəxt gələcəyinə xidmət edir.

Hər bir azərbaycanlı fərəh hissi keçirir ki, dövlətimizin idarəçilik sükanı başında milli öndər Heydər Əliyevin yetirməsi, onun yaratdığı siyasi məktəbin davamçısı möhtərəm Prezidentimiz İlham Əliyev durur. Hər bir azərbaycanlının prezidenti olacağını qətiyyətlə bildirən və ötən müddət ərzində sözünün, vədinin sahibi olduğunu əməli işi, genişmiqyaslı fəaliyyəti ilə bir daha sübut edən cənab İlham Əliyevlə xalqımız yeni-yeni müvəffəqiyyətlərə, uğurlara nail olacaq, dövlətçiliyimizin inkişafı və möhkəmləndirilməsi istiqamətində mühüm göstəricilər əldə edəcəkdir. Möhtərəm Prezidentimiz İlham Əliyevin apardığı daxili və xarici siyasət bir daha sübut edir ki, ulu öndərin qətiyyətli səyləri nəticəsində müstəqilliyi tam təmin olunan dövlətimiz durmadan inkişaf edir, çiçəklənir və qüdrətli dövlətə çevrilir.

Müasir dünyada hər bir ölkənin gələcəyi həmin ölkədə təhsilin səviyyəsi ilə ölçülür. Təhsilin inkişafı hər bir ölkədə inkişaf konsepsiyasının mühüm tərkib hissəsidir. Azərbaycan da bu ölkələr sırasındadır. Ölkəmizdə son illərdə təhsilin inkişafı ilə bağlı həyata keçirilən tədbirlər deməyə əsas verir ki, Azərbaycan öz gələcəyini daha etibarlı və inamlı görmək əzmindədir. Bundan başqa, zəngin təbii sərvətləri ilə dünyanın diqqətində olan Azərbaycan bu sərvətlərdən səmərəli istifadə ilə insan kapitalının daha da inkişaf etdirilməsini başlıca istiqamət seçmişdir.

Prezident İlham Əliyevin təhsilin inkişafına göstərdiyi diqqət və qayğı onu təsdiqləyir ki, bu mühüm amil son dövrlərdə dövlət siyasətinin mühüm prinsipləri sırasına daxil edilmişdir. Bu proses təkcə paytaxt ilə məhdudlaşmır, bölgələri də əhatə edir. Təsadüfi deyil ki, son bir neçə ildə - XXI əsr Azərbaycanında əsl təhsil bumu yaşanmışdır. Ölkəmizdə heç bir dövrdə olmayan qədər məktəblər tikilmiş, bir çox məktəblər üçün yeni korpuslar inşa olunmuşdur. Bu proses ən ucqar bölgələrimizi də əhatə etmişdir. Məktəblərin maddi-texniki bazasının gücləndirilməsi istiqamətində də mühüm işlər görülmüşdür. Bütün orta təhsil ocaqlarında internetə qoşulmuş kompüter sinifləri yaradılmışdır.

Müstəqil respublikamızda son illər ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə müasir istehsal müəssisələr, texnoparklar istifadəyə verilmişdir. Belə ki, innovativ texnologiyaları və üsulları mənimsəyən ixtisaslı mühəndis kadrların hazırlanması üçün güclü maddi-texniki bazaya malik bir ali təhsil ocağının yaranmasına böyük ehtiyac duyulurdu. Və nəhayət ölkə Prezidenti cənab İlham Əliyevin 8 noyabr 2016-cı il tarixli sərəncamı ilə Bakı Mühəndislik Universiteti yaradılmışdır. Bu gün fəxrlə demək olar ki, yarandığı müddət ərzində universitet respublikamızda fundamental və tətbiqi elmi tədqiqatlar aparmaq üçün insan kapitalına və güclü maddi-texniki bazaya malik olan ali təhsil müəssisələrindəndir. Ali təhsilin bütün səviyyələri üzrə mühəndis kadrların hazırlığını, bu sahədə ali və əlavə təhsil proqramlarını həyata keçirən, fundamental və tətbiqi elmi tədqiqatlar aparan universitetdə ölkə iqtisadiyyatının hazırkı inkişaf səviyyəsinə əsasən mövcud elm tutumlu sənaye müəssisələrində istehsal proseslərini təşkil etmək və innovativ texnologiyalarla işləmək bacarığına malik mütəxəssislərin hazırlığının həyata keçirilməsi nəzərdə tutulub. Artıq burada iqtisadiyyat və idarəetmə, mühəndislik ixtisasları üzrə ingilis və Azərbaycan dili üzrə kadrlar hazırlanır. Hazırda universitetdə iqtisadiyyat ixtisasları üzrə dünya iqtisadiyyatı, mühasibat üçotu və audit, maliyyə, sənayenin təşkili, biznesin idarəolunması, dövlət və bələdiyyə idarəetməsi ixtisasları ilə yanaşı, 10-dan çox müasir mühəndislik ixtisasları, mexanika və maşın mühəndisliyi, elektroenergetika, kompüter, memarlıq, inşaat, sənaye, loqistika və nəqliyyat texnologiyaları, şəhərsalma, proseslərin avtomatlaşdırılması üzrə ilk dəfə olaraq qəbul aparılacaqdır. Universitetdə eləcə də magistratura hazırlığı da yüksək səviyyədə təşkil olunub və müasir ixtisaslar üzrə magistr qəbulu həyata keçirilir. Burada həmçinin müasir texnopark da fəaliyyət göstərir, bir sıra müəssisələrlə birgə işlər yerinə yetirilir. Universitet Publik hüquqi şəxs statusundan yararlanaraq maliyyə vəsaitlərinin gətirilməsi üçün maddi-texniki və kadr potensialından istifadə edərək yeni yollar axtarır. Bu məqsədlə universitetdə məzunlarla iş və karyera planlama şöbəsi yaradılıb. Təhsil ocağı beynəlxalq əlaqələrin genişləndirilməsinə yeni layihələrdə iştirak, qrantların alınması və digər məsələləri diqqət mərkəzində saxlayır.

Universitetdə təhsil almaq üçün yaradılmış sağlam mühit və şəraiti xüsusi qeyd etmək istərdim. Burada müasir tələbə yataqxanaları, informasiya-kommunikasiya texnologiyalarının son nailiyyətlərindən istifadə edərək prosesin Bolonya prinsipinin tələblərinə uyğun təşkili üçün elektron universitet qurulmuşdur. Müasir laboratoriyaların açılması, mövcud avadanlıqların, cihazların olması yeni texnologiyaların mənimsənilməsində tələbələr üçün böyük imkanlar açır. Universitetdə alternativ enerji, istilik texnikası laboratoriyaları, proseslərin avtomatlaşdırılması, proqramla idarə olunması, maşınqayırma dəzgahları, hidravlik və pnevmatik qurğuların olması, maşın və mexanika universitetdə keyfiyyətli kadr hazırlığına geniş imkan yaradır.

Ölkə Prezidenti cənab İlham Əliyevin 24 oktyabr 2013-cü il tarixli sərəncamı ilə "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası" və 19 yanvar 2015-ci il tarixli Sərəncamı ilə təsdiq edilmiş Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nın həyata keçirilməsi ilə bağlı Fəaliyyət Planı"nın icrası istiqamətində çoxşaxəli işlər həyata keçirilir.

Bu gün ümummilli liderimizin siyasi kursu möhtərəm Prezidentimiz İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Bu isə müstəqil ölkəmizə yeni-yeni tarixi nailiyyətlər qazandırır. Dövlət müstəqilliyimiz daim güclənir və Azərbaycan Cənubi Qafqazın lider ölkəsi olmaqla dünya birliyində fəal mövqe qazanır. Artıq ölkəmizdə elmin, təhsilin, mədəniyyətin inkişafı üçün titanik işlər həyata keçirilməkdədir. Belə ki, universitetlərin, orta təhsil məktəblərinin maddi-texniki bazasının möhkəmləndirilməsi, elm tutumlu texnologiyaların inkişafı üçün texnologiyalar parklarının yaradılması, yeni müasir istehsalat müəssisələrinin işə salınması, müxtəlif infrastruktur layihələrin uğurla həyata keçirilməsi dövlətimizin diqqət mərkəzindədir. Azərbaycanın kosmos ölkəsi olması dövlətimizin apardığı siyasətin bilik iqtisadiyyatına əsaslanan, gələcəyə hesablanmış uğurlu strateji siyasət olduğuna bariz nümunədir. Belə praqmatik, uğurlu siyasətin müəllifi isə Heydər Əliyev məktəbinin layiqli davamçısı möhtərəm Prezident cənab İlham Əliyevdir.

Biz bu gün ulu öndərimizi xatırlayır, iftixarla deyirik ki, bəli, Azərbaycanın ümummilli lideri, Azərbaycan dövlətinin xilaskarı, yeni Azərbaycanın memarı Heydər Əliyev bizim qəlbimizdə daim yaşayır və yaşayacaq, gələcək nəsillər onun həyat yolunu araşdıracaq və öyrənəcəklər. Memarı və qurucusu ümummilli liderimiz olan müstəqil dövlətimiz qarşısında hər bir vətəndaşın borcu Heydər Əliyevin şah əsəri olan Azərbaycanı qoruyub yaşatmaqdır.

**Havar MƏMMƏDOV,**
**Bakı Mühəndislik Universitetinin rektoru, texnika elmləri doktoru, əməkdar elm xadimi, professor.**

*15 iyun Milli Qurtuluş Günüdür*

# MÜASİR AZƏRBAYCAN DÖVLƏTİNİN BANİSİ

**XX əsrdə dünya siyasətində və siyasi tarixində özünəməxsus parlaq səhifələr yazmış görkəmli dövlət xadimlərindən, dünya şöhrətli siyasətçilərdən və unikal tarixi şəxsiyyətlərdən biri də Azərbaycan xalqının ümummilli lideri Heydər Əlirza oğlu Əliyevdir. Onun adı qızıl hərflərlə tarixə həkk olunmuş, dünya tarixində böyük rol oynamış, silinməz izlər qoymuş, təkcə öz xalqının və dövlətinin yox, bütövlükdə dünya xalqlarının taleyinə həlledici təsir göstərmiş böyük şəxsiyyətlər sırasında çəkilir və ABŞ-da Corc Vaşinqton, Böyük Britaniyada Oliver Kromvel, Fransada Şarl De-Qoll, Almaniyada Konrad Adenhauer, Rusiyada Böyük Pyotr, Türkiyədə Mustafa Kamal Atatürk, İranda Ayətullah Xomeyni və başqa siyasi liderlərlə müqayisə olunur. Heydər Əliyev XX əsrin 70-80-ci illərində Azərbaycan Sovet Sosialist Respublikasının rəhbəri (1969-cü il 14 iyul-1982-ci il 13 dekabr) olmuş və daha sonra dünyanı idarə edən iki supergücdən biri - Sovet Sosialist Respublikaları İttifaqının - (SSRİ) dövlətinin rəhbərlərindən biri seçilmişdir. O, SSRİ-nin paytaxtı Moskva şəhərində dünya siyasətinin mərkəzi olan Kremldə Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsi Siyasi Bürosunun üzvü və SSRİ Nazirlər Soveti sədrinin birinci müavini olmuş, həmin ali dövlət və partiya orqanlarında ən yüksək vəzifələrə seçilən bir azərbaycanlı, türk və müsəlman olaraq həmin dövrlərdə xalqımızı şərəflə təmsil etmişdir.**



Heydər Əliyev haqq-ədalət carçısı, möhkəm əqidəli, mübariz şəxsiyyət idi. Ümummilli liderin bütün uğurlarının mənbəyində, ilk növbədə, onun əqidəsi, öz xalqına, dövlətinə və dövlətçiliyə sonsuz sədaqəti, tükənməz enerjisi və təşkilatçılıq bacarığı, haqq-ədaləti qorumaq və bu yolda dönmədən mübarizə aparmaq, haqsız güclünün yox, haqlı zəiflərin hüququnu müdafiə etmək və s. kimi xarakterik xüsusiyyətləri dururdu. Heydər Əliyev bu ideyalarını ardıcıl şəkildə SSRİ-də mühüm dövlət və partiya vəzifələri tutmaqla həyata keçirirdi və həmin vaxt hakim kommunist rejimi çərçivəsində də bunu minillik sayırdı. Lakin tarixi təsadüf nəticəsində 1985-ci ilin aprelində SSRİ rəhbərliyinə Mixail Sergeyeviç Qorbaçov kimi avantürist bir siyasətçi gəldi. Heydər Əliyev o vaxtkı Sovet rəhbərliyinin yeritdiyi səriştəsiz, qərəzli, qeyri-peşəkar, ədalətsiz, ayrı-seçkilik, antimüsəlman və antitürk siyasətindən narazı qalaraq 1987-ci ilin oktyabrında tutduğu vəzifələrdən istefa verdi və siyasət okeanının alt qatına çəkilərək ovaxtkı hakimiyyətə qarşı müxalifət mövqeyi tutdu. 1990-cı ilin 20 Yanvarında Sovet ordusu tərəfindən Bakıda qırğın törədilərkən Moskvada ittifaq səviyyəli fəxri təqaüddə yaşayan Heydər Əliyev qan içində boğulan xalqının dar ayaqda olmasına dözə bilmədi. O, həmin qırğının sabahı öz övladları – cənab İlham Əliyev, qızı və nəvələri ilə birlikdə Azərbaycan SSR-in Moskvada olan nümayəndəliyinə gələrək M.S.Qorbaçov başda olmaqla SSRİ rəhbərliyini və Əbdürrəhman Vəzirov başda olmaqla Azərbaycanın ovaxtkı rəhbərliyini Azərbaycan xalqının qanının tökülməsində birbaşa müqəssir olmaqda günahlandırdı. Bu hadisələrin gedişində, SSRİ dağılanda və Azərbaycanın müstəqilliyi uğrunda mübarizə başlayanda Heydər Əliyev müstəqil Azərbaycanda Günəş kimi yenidən doğdu. 1990-cı il iyun ayının 18-də doğma vətənə qayıdan Heydər Əliyev çox keçmədən o zaman respublikada başlanmış milli azadlıq hərakatının və siyasi - tarixi proseslərin önündə gedərək, həmin dövrdə dünyanın diqqətində olan Azərbaycanda 1993-cü ilin oktyabrında keçirilən prezident seçkilərində demokratik seçki yolu ilə, yenidən, 2-ci dəfə Azərbaycan dövlətinin rəhbəri — Azərbaycan Respublikasının Prezidenti seçildi. Azərbaycanda yenidən hakimiyyətə qayıdan, prezident Heydər Əliyevin həyata keçirdiyi müdrik daxili və xarici siyasət nəticəsində qısa müddət ərzində ölkəmizdə vətəndaş müharibəsinin qarşısı alındı, milli-həmrəylik və birlik yarandı, respublika müxtəlif hissələrə parçalanmaqdan, iqtisadi böhrandan, geriləmədən və tənəzzüldən xilas oldu. Onun müdrik siyasəti və ölməz ideyaları Azərbaycanı işığa boyadı, "Əsrin müqaviləsi", "Bakı-Tbilisi-Ceyhan", "Bakı-Tbilisi-Ərzurum", "Bakı-Tbilisi-Qars" və s. kimi layihələr isə bütün dünyanı heyran etdi.

Bir tarixi şəxsiyyət və dövlət xadimi olaraq Heydər Əliyev XX əsrin 70-ci illərindən bu günə kimi son 50-60 ildə Azərbaycanın şərəfli tarixini yaradan və yazan dövlət başçısı olub. Biz tarixçilərin, alimlərin, jurnalistlərin, digər qələm sahiblərinin vəzifəsi isə bu tarixi həqiqi, obyektiv, olduğu kimi yazmaqdan ibarətdir. Həmişə olduğu kimi, bu gün də ulu öndərin siyasi fəaliyyətinə kölgə salmaq üçün cəhdlər edilir, onun şəxsiyyətinə qarşı müxtəlif iftiralar atılır. Biz siyasətçilərin, siyasətşünasların, tarixçilərin, tarixi mövzuda yazan digər qələm sahiblərinin, bədii əsərlər yazanların üzərinə gələcək nəsillər qarşısında tarixi həqiqətləri obyektiv şəkildə və vicdanla qələmə almaq kimi böyük məsuliyyət düşür.

Bir siyasi lider kimi Heydər Əliyev özünəməxsus, heç kəsə bənzəməyən şəxsiyyət olub. Azərbaycanın son 50 illik tarixinin hər bir səhifəsi ulu öndərin iştirakı ilə yaradılıb və yazılıb. Onun 1969-cu ilin 14 iyulunda Azərbaycan rəhbəri seçilməsindən vəfat etdiyi günədək göstərdiyi titanik fəaliyyət vətənimizin inkişafına, onun çiçəklənməsinə, dünya dövlətləri cərgəsində öz layiqli yerini tutmasına xidmət etmişdir.

Heydər Əliyev bir siyasi lider və tarixi şəxsiyyət kimi milli-mənəvi köklərə və dəyərlərə bağlı olan, milli ideyalara və bəşəri dəyərlərə söykənərək öz siyasi təlimini yaradan, həmin ideologiya ilə milyonları öz ardınca apara bilən dühalardan idi. Ona görə də, SSRİ-nin son rəhbəri M.S.Qorbaçovun və onun yaxın ətrafının yeritdiyi dağıdıcı, səriştəsiz, mücərrəd "yenidənqurma" siyasəti nəticəsində keçmiş SSRİ məkanında siyasi, iqtisadi və mənəvi böhran yarananda bu siyasətə qarşı ilk çıxanlardan biri məhz Heydər Əliyev oldu. 1985-ci ildən sonra Sovet rəhbərliyi tərəfindən antimüsəlman və ermənipərəst siyasət yeridilirdi. Azərbaycan, Özbəkistan, Qazaxıstan və digər türk və müsəlman respublikalarına qarşı ədalətsiz qərarlar qəbul edilməndə ilk olaraq məhz Heydər Əliyev siyasi büro üzvü kimi öz etiraz səsini qaldırdı.

Heydər Əliyev dahiliyinə, böyük ideya və təşkilatçılıq bacarığına görə, bütün dövrlərin liderləri hesab olunan Böyük Pyotr, Mustafa Kamal Atatürk, Corc Vaşinqton, Şarl de-Qoll və başqa dünya səviyyəli siyasətçilərlə bir sırada dayanır. Pyotr XVIII əsrin əvvəllərində çar olaraq Rusiyanı dünyanın lider dövlətlərindən birinə çevirdi. Ona görə də Böyük Pyotr ləqəbi qazandı və onun heykəlləri Rusiyanın hər bir güşəsində qoyulub. Mustafa Kamal Atatürk isə Birinci Dünya müharibəsindən məğlub durumda çıxan, parçalanmaqda və öz dövlətçiliyini itirməkdə olan Türkiyəni xilas etdi və müasir Türkiyə Cumhuriyyətinin banisi kimi tarixə öz adını əbədi olaraq həkk elətdirdi. Eləcə də, Ruzvelt müasir Amerika Birləşmiş Ştatlarını, Şarl de-Qoll müasir Fransanı, Uinston Çörçill müasir Böyük Britaniyanı İkinci Dünya Müharibəsindən qalib çıxaran və bacarıqla idarə edən dövlət xadimləri idilər. Heydər Əliyev isə böyük bir xalqın yeganə dövləti olan müasir Azərbaycanın banisi, xilaskarı və qurucusudur.

Azərbaycanın dövlət müstəqilliyi xalqımızın azadlıq uğrunda apardığı qanlı mübarizənin, əzmkarlığının, döyüşkənliyinin və son anda müdrik qərar qəbul edərək ümummilli lider Heydər Əliyevi hakimiyyətə dəvət etməsi sayəsində əldə edilib. 1993-cü ilin 15 iyununda Azərbaycan Respublikası parçalanmaq, məhv olmaq təhlükəsi ilə üz-üzə qaldığı zaman xalqın təkidli tələbi ilə yenidən hakimiyyətə qayıdarkən ulu öndər Heydər Əliyev bəyan etdi: "Mən ömrümün bundan sonra qalan hissəsini də Azərbaycanın müstəqil dövlət kimi inkişaf etməsinə həsr edəcəyəm". Heydər Əliyevin hakimiyyətə qayıdışı nəticəsində qısa zaman kəsiyində 1988-92-ci illərdə ölkəmiz düşdüyü xaosdan, vətəndaş müharibəsi təhlükəsindən, parçalanmaqdan xilas oldu. Heydər Əliyevin qətiyyəti və dövlətçilik əzmi sayəsində 1993-cü ilin iyununda Gəncədə polkovnik Sürət Hüseynovun rəhbərliyi altında başlanmış qiyam dinc yolla, qardaş qanı axıdılmadan aradan qaldırıldı və ölkə vətəndaş müharibəsi təhlükəsindən xilas oldu. Ulu öndərin cəsarəti və qətiyyəti sayəsində, 1993-cü ilin sentyabrında Lənkaranda Əlikram Hümbətovun rəhbərliyi altında başlanmış separatçı "Talış-Muğan Respublikası"nın varlığına son qoyuldu, Simalda bədnam "Sadval" separatçı hərəkatının qarşısı alındı. Məhz onun cəsarəti, qətiyyəti və müdrik idarəetmə təcrübəsi sayəsində 1994-cü ilin oktyabrında yenə o vaxtkı baş nazir Surət Hüseynovun rəhbərliyi altında planlaşdırılan dövlət çevrilişi cəhdinin, 1995-ci il martın 13-17 tarixlərində baş qaldıran Rövşən və Mahir Cavadov qardaşlarının dövlətçilik əleyhinə başladıqları qiyam cəhdlərinin qarşısı məharətlə alındı. Bununla da Azərbaycanı müxtəlif hissələrə parçalamaq, onun ərazilərini işğal etmək, müstəqilliyinə son qoymaq, ölkəmizdə ictimai-siyasi sabitliyi pozmaq, hakimiyyəti ələ keçirmək istəyən daxili və xarici qüvvələrin bədnam niyyətləri puç oldu.

Ulu öndər öz qətiyyəti, cəsarəti sayəsində, xalqın vətənpərvər, qeyrətli nümayəndələrinə; sadə insanlara, gənclərə, ziyalılara arxalanaraq müstəqilliyimizi xilas etdi. O demişdir: "Mənim həyat amalım bütün varlığım qədər sevdiyim Azərbaycan xalqına, dövlətçiliyimizə, ölkəmizin iqtisadi, siyasi mənəvi inkişafına xidmət olub. Bu yolda bütün gücümü və iradəmi yalnız müdrik və qədirbilən xalqımdan almışam. Ən çətin anlarda, ən mürəkkəb vəziyyətlərdə yalnız və yalnız xalqıma arxalanmışam. Bu da mənə dözüm, iradə verib və bütün uğurlarımı təmin edib".

Ulu öndər daim öz çıxışlarında vurğulayırdı ki, "Azərbaycanın dövlət müstəqilliyi əbədidir, dönməzdir və sarsılmazdır". Bu o deməkdir ki, bizim hər hansı dövlət, dövlətlər qrupu və ya beynəlxalq təşkilatlarla əməkdaşlıq etməyimiz Azərbaycanın suverenliyinə, dövlət müstəqilliyinə, onun ərazi bütövlüyünə xələl gətirməməlidir. Azərbaycan dövlətçiliyi qanunçuluğun möhkəmləndirilməsi və hüquqi demokratik islahatların həyata keçirilməsi yolu ilə möhkəmlənməli və tədrici demokratik islahatlar yolu ilə inkişaf etməlidir. Ulu öndərin söylədiyi "Yaxşı hökumət o deyil ki, xalqını xoşbəxt görmək istəyir, yaxşı hökumət o hökumətdir ki, bunu hansı vasitələrlə etməyi bacarır."-fikri hakimiyyətin fəaliyyətində əsas tezis, şüar kimi götürülmüşdür.

Qanunçuluq prinsipi dövlətçiliklə sıx bağlıdır. Heydər Əliyev 1993-cü ildə hakimiyyətə gəldiyi ərəfədə Azərbaycanda tam xaos, anarxiya hökm sürürdü və qanunçuluq barədə danışmaq belə mümkün deyildi. Ulu öndərin hakimiyyətə qayıdışı nəticəsində ölkədə qanunsuz əlisilahlı dəstələr dərhal tərk-silah olundu. Əhalidə olan silah, döyüş bölgələrindən paytaxta hakimiyyət çevrilişi üçün gətirilmiş ağır texnika, minaatan, partlayıcı qurğular, əl qumbaraları və s. könüllü şəkildə dövlətə təhvil-təslim edildi. Bununla da qanunsuz silahlı birləşmələrin və dəstələrin fəaliyyətinə son qoyuldu. Ölkədə möhkəm ictimai-siyasi sabitlik bərqərar oldu və real dövlət quruculuğu prosesi başlandı. 1995-ci il noyabrın 12-də keçirilən parlament seçkiləri, ümumxalq səsverməsi ilə qəbul olunan Yeni Konstitusiya, 1994-cü il 9 avqust tarixli "Cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi, qanunçuluq və hüquq qaydalarının möhkəmləndirilməsi tədbirləri haqqında" Azərbaycan Respublikasının Prezidentinin fərmanı, 1998-ci il fevralın 10-da Azərbaycanda ölüm hökmünün ləğvi haqda fərman, 1998-ci ildə Azərbaycan Konstitusiya Məhkəməsinin fəaliyyətə başlaması, 1998-ci il iyunun 18-də Azərbaycanda insan hüquqlarının müdafiəsinə dair Dövlət Proqramı və s. kimi tarixi əhəmiyyətli sənədlər məhz ümummilli lider Heydər Əliyevin zəkası və müdrik rəhbərliyi sayəsində qəbul edilmiş və bununla da ölkəmizdə hüquqi dövlət quruculuğunun möhkəm bünövrəsi qoyulmuşdur.

Ulu öndər uzunillik siyasi fəaliyyəti ilə Azərbaycanı qurub yaratmaqla QURUCU LİDER, müstəqillik dövründə isə Azərbaycanı parçalanmaqdan və məhv olmaqdan xilas edən XİLASKAR LİDER kimi tariximizə düşmüşdür.

XX yüzillikdə Azərbaycana rəhbərlik etmiş şəxsiyyətləri birbir gözümüz önündən keçirsək görərik ki, onlardan heç biri Heydər Əliyev qədər Azərbaycan xalqına və dövlətçiliyinə uzun müddət ərzində bacarıq və səriştə ilə xidmət etməyə nail ola bilməyib. Heydər Əliyevin bir siyasi lider kimi özünəməxsus xüsusiyyətlərindən biri də onun dinc dövrdə, seçkilər yolu ilə hakimiyyətə gəlib dövləti məharətlə idarə edən, lakin ekstremal şəraitlərdə və böhran dövründə öz xalqının qabağında gedə bilməyən keçmiş sovet liderlərdən fərqli bir lider olmasıdır. Belə ki, Heydər Əliyevin Azərbaycanı tərk edib Moskvaya SSRİ rəhbərliyinə—Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsi Siyasi Bürosunun üzvü seçilməsindən və SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsinə təyin olunmasından sonra da bir an belə olsa, Azərbaycanla, öz doğma vətəni ilə əlaqəsini kəsmirdi. O vaxtlar Moskvada və SSRİ-nin başqa yerlərində tez-tez Azərbaycan mədəniyyət günləri keçirilir, mərkəzi telekanallarda, teatr səhnələrində Azərbaycanın ictimai-siyasi həyatı, "Koroğlu", "Arşın mal alan", "O olmasın, bu olsun", "Min bir gecə" və s. kimi filmləri, opera, balet əsərləri, musiqisi nümayiş etdirilirdi.

Ulu öndər Heydər Əliyev SSRİ-yə başçılıq edə biləcək ən real və perspektivli rəhbərlərdən biri idi. Lakin Sovet rəhbərliyində təmsil olunan bəzi millətçi və şovinist əhval-ruhiyyəli siyasətçilər tərəfindən müsəlman və türk mənşəli olduğuna görə ona qısqanclıq edildi, layiq olduğu vəzifəyə seçilməyə imkan verilmədi. 1987-ci il oktyabrın 21-də Dağlıq Qarabağı Azərbaycandan ayırıb Ermənistana birləşdirmək istəyən SSRİ rəhbəri M.S.Qorbaçov ilk öncə yolu üzərindən bu məqsədinə mane ola biləcək yeganə qüvvəni—Heydər Əliyevi hakimiyyətdən uzaqlaşdırdı. Bundan düz 40 gün sonra Dağlıq Qarabağ məsələsi ortaya atıldı və Azərbaycan torpaqlarının işğalına start verildi. Bununla əlaqədar olaraq, Azərbaycanda kortəbii xalq hərəkatı başlandı. M.S.Qorbaçovun əsas məqsədi azad, müstəqil yaşamaq, öz torpaqlarını heç kəsə vermək istəməyən bir milləti susdurmaqdan, milli düşüncəli, vətənpərvər kadrları vəzifədən kənarlaşdırmaqdan və Azərbaycanı kortəbii şəkildə Moskvanın iradəsinə tabe etməkdən, oyuncaq rejim qurmaqdan ibarət idi.

Sovet rəhbərliyi M.S.Qorbaçov başda olmaqla və onların Azərbaycandakı əlaltıları xalqımızın gözünü qorxutmaq və genişlənməkdə olan xalq hərakatını yatırmaq məqsədi ilə 1990-cı ildə 20 Yanvar faciəsini törətdilər. 1992-ci il fevralın 25-dən 26-na keçən gecə isə erməni millətçiləri tərəfindən XX əsrin ən böyük və dəhşətli cinayətlərindən biri olan Xocalı soyqırımı törədildi. Lakin o vaxtkı Sovet rəhbərliyi və erməni millətçiləri torpaqlarımızın bir hissəsini işğal etsələr də, neçə-neçə digər faciələri törətsələr də, bir milyondan çox əhalimizi qaçqın və köçkün gününə salsalar da, öz məqsədlərinə nail ola bilmədilər. Onlar Azərbaycan xalqının iradəsinə qalib gəlməyi sadəcə bacarmadılar. Bacarmadılar ona görə ki, Moskvanın planlarına qarşı çıxa biləcək güclü xalq hərəkatı və bu hərəkatın Heydər Əliyev tərəfindən vaxtilə müxtəlif peşə sahələrində yetişdirilmiş fəal iştirakçıları var idi. Lakin 1990-cı ilin iyununa qədərki dövrdə, Heydər Əliyev Moskvada yaşadığına görə, xalqın nəzərləri Moskvaya — Heydər Əliyevə dikilsə də, əli ona çatmırdı. 1990-cı ilin Yanvar hadisələri zamanı Heydər Əliyev Moskvadakı Azərbaycan nümayəndəliyinə gələrək Sovet rəhbərliyini Azərbaycanda müxtəlif vəzifələrdə olan yerli əlaltıları ilə birlikdə Azərbaycan xalqına qarşı faciə törətməsi haqqında bəyanat verdi və onları siyasi və hüquqi cinayət törətməkdə ittiham etdi. Daha sonra Heydər Əliyev Azərbaycana - anadan olduğu doğma Vətəninin ayrılmaz bir parçası olan Naxçıvana gəldi. Beləliklə, 1990-cı il iyunun 18-i Heydər Əliyevin Azərbaycana qayıtması, daha sonra Naxçıvana getməsi, Sovet İttifaqı Kommunist Partiyası üzvlüyündən bəyanatla çıxaraq orada Naxçıvan MR Ali Məclisinin və Azərbaycan Ali Sovetinin deputatı və 1991-ci ilin sentyabrın 9-da Naxçıvan Ali Məclisinin sədri seçilməsi ilə Azərbaycanda 1988-ci ildə başlanmış kortəbii xalq hərəkatı 1991-ci ildən başlayaraq ardıcıl, müntəzəm və planlı hərəkata çevrildi və milli azadlıq hərəkatı mərhələsinə qədəm qoydu. Heydər Əliyev Vətəni darda olan vaxt ölkəyə qayıtdı və o zaman yenicə vüsət alan xalq hərakatına qoşuldu. Artıq qısa müddət keçəndən sonra bu hərəkatın lideri Azərbaycan xalqının vətənpərvər oğlu və əvəzolunmaz siyasi xadim Heydər Əliyev idi. Ona görə ki, 1969-cu il iyulun 14-də hakimiyyətə gəldiyi ilk gündən başlayaraq Heydər Əliyev Azərbaycan xalqının etimad və inamını tam qazanmış, onun dərdinə və sevincinə hər an şərik olan əvəzolunmaz bir liderinə çevrilmişdi. Heydər Əliyev harada, hansı vəzifədə olubsa, xalqın ümid yeri, pənahı olub və milyonlarla insanın nəzərləri bir ümid çırağı kimi, bir haqq-ədalət carçısı kimi ona dikilib.

Heydər Əliyev ümumxalq məhəbbəti qazanmış liderdir. 1982-ci ilin dekabrında Heydər Əliyev Moskvaya Siyasi Büro üzvü və SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsinə irəli çəkilərkən, o vaxtkı Dzerjinski adına (indiki Şəhriyar adına mədəniyyət sarayı) sarayda yolasalma mərasimi keçirilirdi. Televiziya ilə birbaşa translyasiya edilən həmin yığıncaqda iştirak edən insanların həm sevinc, həm də kədərlə axıtdıqları göz yaşları bir-birinə qarışmışdı. İnsanlar sevincdən göz yaşını ona görə tökürdülər ki, son 70 ildə ilk dəfə olaraq Azərbaycan oğlu belə yüksək vəzifəyə qalxırdı. İnsanları kədərləndirən isə onun doğma respublikanı tərk etməsi idi. Bu, ümumxalq məhəbbətinin bariz nümunəsi idi. Daha sonra 1987-ci ilin oktyabrında Heydər Əliyev Moskvada tutduğu vəzifələrdən azad edilərkən bu hadisəni bütün Azərbaycan xalqı böyük kədər, qəm-qüssə hissi ilə qarşıladı. Sonra cəmi üç il ərzində (1987-90-cı illər) Heydər Əliyev dövlət vəzifəsində olmayıb. Azərbaycanın son problemlərinin əksəriyyətinin də bünövrəsi məhz həmin illərdə qoyuldu. Azərbaycan xalqının oğul və qızları həmin dövrdə köks ötürərək deyirdi: "Əgər Heydər Əliyev vəzifədə olsaydı, bizim başımıza bu müsibətlər gəlməzdi". Taleyin hökmü ilə 1990-cı ilin iyununda Naxçıvana gələn Heydər Əliyev tezliklə yenidən siyasi meydana qayıtdı. Azərbaycan Ali Sovetinin deputatı seçilən gündən Ali Sovetin sessiyalarında millət vəkili kimi Azərbaycanı milli müstəqilliyə aparan Konstitusiya sənədlərinin qəbul olunmasını təklif etdi. Xalqı "referendum" yolu ilə SSRİ tərkibində saxlamağa çalışan respublika rəhbərliyinin səsinə səs verməməyə çağırdı. Dağlıq Qarabağın faktiki olaraq Azərbaycandan qoparılıb Ermənistana birləşdirilməsi məqsədini qarşılarına qoyan ermənipərəst qüvvələrin planlarını alt-üst etdi. Naxçıvan Ali Məclisinin sessiyalarında isə bilavasitə onun rəhbərliyi ilə Azərbaycanın müstəqilliyinin əsasını qoyan çox mühüm əhəmiyyətli sənədlər qəbul edildi. Heydər Əliyevin oturduğu Naxçıvan Ali Məclisinin binası faktiki olaraq Azərbaycan milli azadlıq hərəkatının qərargahına çevrildi. Həmin vaxt Azərbaycanın paytaxtı Bakıda hakimiyyət uğrunda amansız mübarizə gedirdi, moskvapərəst A.Mütəllibov müstəqillik haqqında qətiyyən düşünmürdü. O, ölkəni faciələrlə, vətəndaş müharibəsi ilə üz-üzə qoyub Moskvaya qaçdı. Daha sonra Azərbaycanın müstəqilliyinə tərəfdar olan, lakin bu müstəqilliyi əldə etməyin və qoruyub-saxlamağın üsul və vasitələrini bilməyən, müstəqilliyə mane olmaq istəyən qüvvələrlə bacarmayan, hakimiyyət uğrunda mübarizə aparan öz yaxın ətrafının iddialarının qarşısında aciz qalan Azərbaycan Xalq Cəbhəsinin sədri, xalq hərəkatının liderlərindən biri olan Əbülfəz Elçibəy də Azərbaycanın müstəqilliyini təmin edə bilmədi. Sonda o da öz vəzifəsini qoyub anadan olduğu doğma Kələki kəndinə getməyə məcbur oldu.

Heydər Əliyev Azərbaycan xalqına xas olan mənəvi dəyərləri daim yüksək qiymətləndirmiş və onları bütün dünyaya tanıtmışdır. "Xalqımız nikbindir, başını heç vaxt aşağı tutmayıb, sınmayıb, əyilməyib, heç vaxt diz çökməyib", —deyən Heydər Əliyevin gücünün, qüdrətinin mənbəyi də məhz elə öz xalqı olub. Heydər Əliyev heç bir zaman öz xalqına kütlə və yaxud "obıvatel" kimi yanaşmayıb. Əksinə, o, həmişə öz xalqının milli qürurunu uca tutub və "xalqımız qəhrəman xalqdır", — deyib. O öz millətinə və xalqına inandığı kimi, Azərbaycan xalqı da məhz ona inanıb, ona etimad göstərib və bütün taleyini ona etibar edib. Heydər Əliyev isə hər zaman öz xalqının etimadını doğrultmuş bir siyasətçi idi. Biz hamımız, müəllimi Heydər Əliyev olan bir siyasi məktəbin tələbələri zaman-zaman Heydər Əliyevdən öyrənməli, onun bütün fəaliyyət prinsiplərini rəhbər tutmalıyıq.

Bu gün müasir Azərbaycan dövlətçiliyini möhkəmləndirən, onu güclü edən iki mühüm əhəmiyyətli faktor var: Heydər Əliyev ideyaları və xalq-iqtidar birliyi, Əbədiyaşar Heydər Əliyev ideyaları və bu ideyaların və siyasi kursun ən layiqli davamçısı olan, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi altında iqtidarla xalqın birliyi, həmrəyliyi ölkəmizdə möhkəm ictimai-siyasi sabitliyin qorunub saxlanmasının, milli həmrəyliyin və sosial-iqtisadi inkişafın təminatıdır. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 2017-ci il mayın 26-da "Buta" sarayında 28 May - Respublika günü münasibəti ilə keçirilən rəsmi qəbulda etdiyi nitqində demişdir: "Sabitliyin əsl mahiyyəti ondadır ki, xalq dövlət siyasətini dəstəkləsin, xalq vəziyyətlə razı olsun, xalq inkişafla qürur duysun. Biz, bax bu sabitliyi yaratmışıq və Azərbaycanda möhkəm sürən sabitliyin təməlində bu amillər dayanır: —xalq-iqtidar birliyi, bizim siyasətimiz və əldə edilmiş uğurlar. Ən yaxşı təbliğat vasitəsi real həyatdır. Bu gün Azərbaycan çoxşaxəli şəkildə inkişaf edir və bütün istiqamətlərdə böyük uğurlar qazanıb".

Azərbaycan bu gün dünyada öz milli maraqlarını layiqincə müdafiə edə bilən, çox böyük hörmət və nüfuza malik olan ölkə kimi tanınır. Bu gün Azərbaycanın bütün beynəlxalq təşkilatlarla və dövlətlərlə çox yaxşı münasibətləri var.

Son 20 il müddətində Azərbaycan iqtisadiyyatına 200 milyard dollardan artıq investisiya qoyulmuş, böyük infrastruktur layihələri həyata keçirilmişdir. Yeni-yeni yollar, körpülər, binalar, yaşayış massivləri, aeroportlar, limanlar tikilmiş, müasir Azərbaycanın siması tamamilə dəyişmişdir. Azərbaycanın valyuta ehtiyatları 2010-cu ildə 28 milyard ABŞ dollarından 2017-ci ilin ortalarına 40,6 milyard dollara, Ümumi Daxili Məhsul 2010-cu ildə 40 milyard dollardan 60 milyard dollara, dövlət büdcəsi 2010-cu ildə 15 milyard dollardan 2014-cü ildə 25 milyard dollara çatmışdır. Azərbaycanda son 15 ildə 20-dən çox elektrik stansiyası tikilmişdir. 2004-cü ildən 2017-ci ilədək 11 min kilometr yeni yollar—həm magistral, həm də kənd yolları çəkilmişdir. Sosial siyasət sahəsində son illərdə 600-dən artıq xəstəxananın, 3.000-dən artıq orta məktəbin tikilməsi və ya təmir edilməsi nəticəsində əhaliyə göstərilən tibbi xidmətin, təhsilin səviyyəsi xeyli yüksəlmişdir. 2016-cı ildə 5 milyondan artıq Azərbaycan vətəndaşı pulsuz tibbi müayinədən keçmişdir. Məcburi köçkünlər üçün son illər ərzində 100-ə yaxın qəsəbə salınıb. 2017-ci ilin 1-ci altı ayı ərzində işsizlik və yoxsulluq şəraitində yaşayan 4,4 faiz əhaliyə və ya 442,8 min nəfərə aylıq və birdəfəlik sosial müavinətlər verilib. Bu gün ən qabaqcıl texnologiyaya, silahlara yüksək vətənpərvərlik ruhuna malik olan və istənilən vəzifəni layiqincə yerinə yetirməyə və işğal altında olan torpaqlarımızı Ermənistan silahlı birləşmələrinin təcavüzündən azad etməyə qadir olan güclü Azərbaycan ordusu var. 2016-cı ilin 3-5 Aprel döyüşləri ordumuzun real gücünü bütün dünyaya sübut etdi. Azərbaycan iqtisadiyyatı rəqabətqabiliyyətliliyinə görə dünyada 35-ci yerdədir.

Heydər Əliyev ideyalarının və siyasi kursunun davam etdirilməsinin zəruriliyini dərk edən Azərbaycan xalqı 2018-ci il aprelin 11-də keçirilən növbədənkənar prezident seçkilərində bir daha ulu öndərə olan sonsuz hörmət və məhəbbətini nümayiş etdirmişdir. Azərbaycanda dəqiqləşdirilmiş vahid seçici siyahısına əsasən, 5 milyon 192 min 43 səsvermə hüququ olan şəxs var. Seçici siyahısında 3.958.852 seçki bülletenindən 12.413-ü etibarsız hesab edilmişdir. Etibarlı hesab edilmiş 3.946.439 səs prezidentliyə namizədlər arasında adekvat və real obyektivliyi əks etdirməklə bölünmüş, YAP sədri İlham Heydər oğlu Əliyev 86,02 faiz və ya 3.394.898 səs almış, bu nəticə Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun 17 aprel 2018-ci il tarixli qərarı ilə təsdiq olunmuşdur. Azərbaycan Respublikasının prezidentliyinə namizəd Əliyev İlham Heydər oğlu yenidən 7 il müddətinə Azərbaycan Respublikasının Prezidenti seçilmiş və 18 aprel 2018-ci ildə and içmişdir.

Bütün bu uğurların və qələbələrin təməlində ümummilli lider Heydər Əliyevin ölməz dövlətçilik və müstəqillik ideyaları dayanır. Müstəqillik bizim üçün ən böyük sərvətdir, biz bu müstəqilliyi qoruyuruq və daim göz bəbəyi kimi qoruyacağıq.

**Qafar ƏLİYEV,**
**Yeni Azərbaycan Partiyasının Siyasi Şurasının üzvü, Azərbaycan Respublikası Prezidenti Administrasiyası İctimai-Siyasi Məsələlər Şöbəsinin sektor müdiri.**

15 iyun Milli Qurtuluş Günüdür

# Zəngin tarixi irsə söykənən mütərəqqi ədliyyə və məhkəmə-hüquq sistemi

***Hər bir xalqın milli varlıq və idrakının, özünüdərkinin ali təzahür forması olan müstəqil dövlət ideyasının praktik həyata vəsiqə alması əsrlərlə davam edən tarixi mübarizənin nəticəsində mümkün olur. Dünyanın ən qədim xalqlarından biri olmaqla, bəşər sivilizasiyasına böyük töhfələr vermiş azərbaycanlılar da taleyin qismətindən minilliklər boyu milli varlıqlarını, qərinələr boyu formalaşmış milli dövlətçilik ənənələri yaşatmaq, azadlıq, müstəqillik nemətinə qovuşmaq üçün ən çətin, sərt sınaqlardan çıxmalı, əzablı yollardan keçməli olmuşlar.***

Bütün sahələrdə dinamik tərəqqi və inkişaf mərhələsini yaşayan, Cənubi Qafqazın ən qüdrətli dövləti kimi tanınan müstəqil respublikamız Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 100-cü ildönümünü və 15 iyun Milli Qurtuluş Gününü böyük coşqu və fəxarətlə qeyd edir. Respublikamızın hərtərəfli inkişaf və tərəqqisini təmin edən Azərbaycan Prezidenti cənab İlham Əliyevin Cümhuriyyətin yaranmasının 100-cü ildönümünə həsr olunmuş tədbirdə qeyd etdiyi kimi, *"Əgər Azərbaycan Xalq Cümhuriyyətinin qurucuları bugünkü Azərbaycanı görə bilsəydilər, onlar da ölkəmizlə fəxr edərdilər".*

Müstəqil respublikamız 100 il əvvəl yaradılmış müasir tipli dövlətin xələfi olmaqla qürur duyur. Şübhəsiz, müsəlman Şərqində ilk demokratik, hüquqi və dünyəvi dövlət məhz Azərbaycanda elan olunmuş, yüksək sosial-mədəni, iqtisadi tərəqqiyə, vətəndaş cəmiyyətinin formalaşmasına xidmət edən çoxşaxəli islahatlar məhz bu dövlətdə reallaşdırılmışdır. Cəmi 23 ay yaşamış Azərbaycan Xalq Cümhuriyyəti müsəlman Şərqində ilk demokratik respublika olaraq bugünkü müstəqil dövlətimizin sələfi qismində müstəqilliyimizə hüquqi-siyasi və iqtisadi əsaslar formalaşdırmışdır.

Mövcudluq tarixi ərzində son dərəcə keşməkeşli, mürəkkəb və şərəfli yol keçərək xalqa və dövlətə layiqli xidməti özünün ali məqsədi sayan milli ədliyyə orqanlarının yaranma tarixi də Cümhuriyyət dövrünə təsadüf edir. Azərbaycanın dövlət müstəqilliyinin elan olunduğu bir tarixi gündə - 28 may 1918-ci il tarixdə Ədliyyə Nazirliyi təsis edilmiş, dövrünün nüfuzlu ictimai-siyasi xadimlərindən olmuş Xəlil bəy Xasməmmədov bu posta təyin olunmuşdur. Nazirlər Şurasının qərarı ilə 1918-ci il oktyabr ayının 1-də Bakı dairə məhkəməsinin və onun tərkibində prokurorluğun fəaliyyəti bərpa edilmiş, noyabrın 14-də Azərbaycan məhkəmə palatasının Əsasnaməsi, 22-də isə Ədliyyə Nazirliyinin Əsasnaməsi və ştat cədvəli təsdiq olunmuşdur (Təsadüfi deyildir ki, ümummilli lider Heydər Əliyevin 11 noyabr 2000-ci il tarixli sərəncamı ilə ədliyyə işçilərinə yüksək etimad göstərilərək 22 noyabr tarixi ədliyyə işçilərinin peşə bayramı elan edilmişdir).

1920-ci ilin aprel ayında Cümhuriyyətin məlum səbəblər üzündən süqutundan sonra Ədliyyə Nazirliyinin mükəmməl struktur kimi əsaslı surətdə formalaşdırılması, ədliyyə işinin təkmilləşdirilməsi, onun gələcək inkişafı üçün əlverişli şəraitin yaradılması məhz 70-ci illərə - ümummilli lider Heydər Əliyevin respublikamıza birinci rəhbərliyi dövrünə təsadüf edir. 27 oktyabr 1970-ci ildə Azərbaycan SSR Ali Sovetinin qərarı ilə Ədliyyə Nazirliyi təsis olunaraq sabit fəaliyyəti təmin edilmişdir. Nazirlik məhkəmə orqanlarına təşkilati rəhbərliyi həyata keçirmiş, əhaliyə hüquqi yardımı yaxşılaşdırmış, notariat fəaliyyətinin və məhkəmə ekspertizalarının aparılmasını təmin etmiş, ümumiyyətlə, ədliyyə işi təkmilləşdirilərək onun gələcək inkişafı üçün əlverişli zəmin yaranmışdır.

Şübhəsiz, milli müstəqillik hər bir xalqın, dövlətin davamlı inkişafını milli ideya səviyyəsinə yüksəldərək mövcud iqtisadi, elmi-intellektual və mədəni potensialdan səmərəli istifadəyə geniş imkanlar yaradır. Fəqət, müstəqillik nemətinə qovuşan hər bir xalq ilkin mərhələdə onu qoruyub saxlamaq, möhkəmləndirmək, dövlətin gələcək inkişafına etibarlı bünövrə hazırlamaq kimi məsuliyyətli və çətin mərhələni də keçməli olur. 1991-ci ilin oktyabrından 1993-cü ilin iyun ayınadək respublikada hökm sürən acınacaqlı vəziyyət bunu bir daha təsdiqləyir. Həmin dövrdə sosial-iqtisadi tənəzzülün dərinləşməsi, insanların sosial rifah halının pisləşməsi, ictimai-siyasi sabitliyin addımbaşı pozulması, insan hüquqlarına təminatın olmaması və s. destruktiv proseslər respublikanın de-fakto müstəqilliyinə imkan vermirdi.

Azərbaycan xalqının vahidliyini təmin edən milli müstəqillik ideyasının praktik həyata vəsiqə alaraq de-fakto reallaşması isə məhz ümummilli lider Heydər Əliyevin 1993-cü ilin iyununda hakimiyyətə qayıdışından sonra mümkün olmuşdur. Bu mənada, hazırda ictimai fikirdə mütləqləşmiş qənaətlərdən biri də məhz budur ki, ulu öndər Heydər Əliyevin 1993-cü ildə xalqın təkidli tələbi ilə qayıdışı Azərbaycanı müstəqil dövlət kimi dünya xəritəsindən silinmək təhlükəsindən qorumuşdur. Məhz ümummilli liderin qətiyyətli addımları sayəsində respublikada ictimai-siyasi sabitlik, qanunçuluq təmin edilmiş, xaos və anarxiya burulğanından qurtulan cəmiyyət yeni ictimai-iqtisadi formasiyanın tələblərinə cavab verən mütərəqqi inkişaf yoluna qədəm qoymuşdur. Məhz bu səbəbdən də 1993-cü il iyunun 15-də ümummilli liderin Azərbaycan Ali Sovetinin sədri seçilməsi Milli Qurtuluş Günü kimi tarixiləşmişdir.

Bu mərhələdən ictimai həyatın digər sahələrində olduğu kimi, hüquq sistemində də köklü islahatların reallaşdırılması istiqamətində ardıcıl tədbirlər həyata keçirilmişdir. 1995-ci ildə ümummilli liderin rəhbərliyi ilə hazırlanaraq qəbul edilmiş ilk milli Konstitusiya demokratik quruluşun və hüquqi dövlətin möhkəm təməlini qoymuşdur. Konstitusiyanın qəbulundan sonra respublikamızda məhkəmə-hüquq islahatları ilə yanaşı, ədliyyə orqanlarının fəaliyyətinin təkmilləşdirilməsi istiqamətində bir sıra mühüm addımlar atılmışdır.

Ümumi şəkildə ifadə etsək, 1993-cü ildə ölüm cəzası üzərində moratoriumun qoyulması və 1998-ci ilin fevralında bu cəzanın tam ləğvi; 32 əfv, 8 amnistiya aktının imzalanması, 1996-cı ildə Hüquq İslahat Komissiyasının yaradılması və "Məhkəmələr və hakimlər haqqında", "Konstitusiya məhkəməsi haqqında", "Vəkillər və vəkillik fəaliyyəti haqqında", "Prokurorluq haqqında", "Polis haqqında", "Əməliyyat-axtarış tədbirləri haqqında", "Notariat haqqında" və s. mütərəqqi ruhlu qanunların qəbuluna start verilməsi; üçpilləli müstəqil məhkəmə sisteminin yaradılması və hakimlərin test üsülü ilə seçilməsi; 1998-ci ilin 22 fevralında "İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsi sahəsində tədbirlər haqqında" fərmanın imzalanması; Azərbaycanın ən müxtəlif beynəlxalq konvensiya və sazişlərə qoşulması kimi mühüm islahatlar məhz ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır.



Bu mərhələdən davamlı olaraq aparılan islahatlar respublikamızın dövlət quruluşu sistemində ədliyyə orqanlarının layiqli yerinin müəyyənləşdirilməsi, onun statusu, fəaliyyət prinsipləri, səlahiyyət dairəsi və vəzifələrinin qanunvericilik qaydasında təsbit edilməsi məqsədinə yönəlmişdir. Ulu öndərin təşəbbüsü ilə o illərdə məhkəmə nəzarətçiləri və məhkəmə icraçıları xidməti təsis edilməklə yanaşı, keçmiş MDB-də ilk olaraq Azərbaycanda istintaq təcridxanaları nazirliyin tərkibinə verilmişdir. 2000-ci ildə iqtisadi və hüquqi proseslərin tənzimlənməsində mühüm əhəmiyyəti nəzərə alınaraq, notariat və vətəndaşlıq vəziyyəti aktlarının qeydiyyatı - Notariat və VVADQ orqanlarında da köklü dəyişikliklər və əsaslı tədbirlər həyata keçirilmiş, yerli özünüidarəetmə orqanı olan bələdiyyələrə müvafiq hüquqi yardımın göstərilməsi ədliyyə nazirliyinin funksiyalarına aid edilmişdir.

Demokratik dəyərlərin cəmiyyət həyatında getdikcə daha da möhkəmləndiyi, həyata keçirilən uğurlu sosial-iqtisadi inkişaf strategiyasının yüksək nəticələr verdiyi, siyasi sistemin, vətəndaş cəmiyyəti təsisatlarının möhkəmləndiyi, beynəlxalq təşkilatlarla əməkdaşlığın yeni müstəvidə davam etdirildiyi bir şəraitdə ədliyyə və məhkəmə sisteminin davamlı olaraq müasirləşdirilməsi son 15 ildə xüsusi diqqət mərkəzində olmuşdur. Ulu öndərin ən layiqli siyasi davamçısı - Azərbaycan Prezidenti cənab İlham Əliyevin ötən dövrdə imzaladığı mühüm fərman və sərəncamlar, dövlət proqramları ədliyyə və məhkəmə orqanlarının işinin əhəmiyyətli dərəcə təkmilləşməsini, keyfiyyətcə yeni dövrün tələbləri səviyyəsində qurulmasını təmin etmişdir.

Xatırlatmaq lazımdır ki, "Ədliyyə orqanlarının inkişafı haqqında" 17 avqust 2006-cı il tarixli fərmanla Nazirliyin strukturunda ciddi dəyişikliklər edilmiş, bir sıra qurumların funksiyaları dəqiqləşdirilmişdir. 26 may 2006-cı il tarixdə Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən qəbul edilmiş "Ədliyyə orqanlarında qulluq keçmə haqqında" Qanun ədliyyə qulluqçularının fəaliyyət prinsiplərini, bu orqanda işə qəbulun hüquqi əsaslarını müəyyənləşdirən əhəmiyyətli sənədlərdən olmuşdur.

Ölkə başçısının "Ədliyyə orqanlarının inkişafı haqqında" 17 avqust 2006-cı il tarixli Fərmanı ilə nazirliyin strukturunda ciddi dəyişikliklər edilmiş, o cümlədən regional ədliyyə qurumları yaradılmış, bir sıra qurumların funksiyaları dəqiqləşdirilmiş, digərlərinin statusu genişləndirilmişdir. 2009-cu il 6 fevral tarixdə təsdiqlənmiş "Azərbaycan ədliyyəsinin inkişafına dair 2009-2013-cü illər üçün Dövlət Proqramı" milli ədliyyə sisteminin müasirləşdirilməsi və fəaliyyətinin təkmilləşdirilməsi istiqamətində həyata keçirilmiş məqsədyönlü və ardıcıl tədbirlər sisteminin uğurlu davamı olmuşdur.

Ötən müddətdə ölkəmizin məhkəmə-hüquq sistemində də əsaslı islahatlar aparılmış, ədalət mühakiməsinin səmərəliliyinin artırılması, müstəqil məhkəmə hakimiyyətinin möhkəmləndirilməsi üzrə genişmiqyaslı tədbirlər görülmüşdür. 19 yanvar 2006-cı il tarixli "Azərbaycan Respublikasında məhkəmə sisteminin müasirləşdirilməsi və bəzi qanunvericilik aktlarına dəyişikliklər və əlavələr edilməsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" fərman regionların sosial-iqtisadi inkişafı sahəsində həyata keçirilmiş bir sıra təşkilati-hüquqi, sosial tədbirlərin davamı olaraq bölgələrdə yeni apellyasiya və inzibati-iqtisad məhkəmələrinin yaradılmasını təmin etmişdir.

Ümumiyyətlə, son 10 il ərzində əhalinin məhkəmələrə müraciət imkanlarının yaxşılaşdırılması, bölgələrdə hüquq institutlarının inkişafı məqsədilə 20-dək yeni məhkəmələr, o cümlədən, regional apellyasiya məhkəmələri təsis edilmişdir. Dövlət başçısının 2010-cu il 15 iyul və 9 avqust tarixli fərmanları bu istiqamətdə yeni mühüm mərhələ olmuşdur. Bu fərmanların icrası ilə bağlı ölkədə 4 yerli ağır cinayətlər məhkəmələri, habelə dövlət orqanları tərəfindən vətəndaşların pozulmuş hüquqlarının bərpası məqsədilə 7 inzibati-iqtisadi məhkəmə fəaliyyətə başlamışdır.

Azərbaycanda sürətli iqtisadi inkişaf, məhkəmə müdafiəsi mexanizmlərinin genişləndirilməsi nəticəsində məhkəmələrə müraciətlərin sayı son illər dəfələrlə çoxalmış, bu da hakimlərin iş yükünün xeyli artmasına gətirib çıxarmışdır. İş yükünün çoxluğu işlərə keyfiyyətlə və vaxtında baxılmasında ciddi çətinliklər yaradırdı. Bununla əlaqədar ölkə Prezidentinin müvafiq fərmanları ilə son illər hakim ştatlarının sayı 2 dəfə, o cümlədən 2010-cu ildə daha 25 faiz artırılaraq 600-ə çatdırılmışdır. Hakimlərin maddi təminatı da diqqətdən kənarda qalmamış, 2000-ci illə müqayisədə hakimlərin əməkhaqqı orta hesabla 30 dəfə artmışdır.

Hakimlərin obyektiv və qərəzsiz olmasının, işlərə daha keyfiyyətlə baxılmasının ən mühüm amillərdən biri də onların seçimi prosesinin şəffaflığı və obyektivliyidir. Hələ 2004-cü ildə bu məqsədlə nüfuzlu beynəlxalq ekspertlərin iştirakı ilə işçi qrupu yaradılmış, bir çox ölkələrin təcrübəsi öyrənilməklə, yeni qaydalar işlənmişdir. Çoxsaylı imtahan və müsahibələrdən, namizədlərin hakim vəzifələrinə hazırlanmaları üçün uzunmüddətli kurs və təcrübədən ibarət olan bu seçim proseduru müstəqil qurum olan, tərkibi əsasən hakimlərdən ibarət təşkil edilmiş Hakimlərin Seçki Komitəsi tərəfindən həyata keçirilir. Bu qaydalar əsasında 2200 namizəd sırasından seçilmiş 400-ə yaxın yüksək hazırlıqlı hüquqşünas hakim vəzifələrinə təyin edilmişdir.

Aparılan məhkəmə islahatları nəticəsində isə hakimlərin ən yüksək həddədək - müddətsiz təyinatı müəyyən olunmuş, habelə seçim prosedurları təkmilləşdirilmişdir. Avropa Şurasının Ədalət mühakiməsinin səmərəliliyi üzrə Komissiyası (CEPEJ) öz hesabatında ölkədə məhkəmə islahatlarına göstərilən diqqəti Avropa dövlətləri sırasında fərqləndirərək yüksək qiymətləndirmişdir. Azərbaycanın məhkəmə sistemindəki nailiyyətlərinə görə Avropa Şurasının "Ədliyyənin Kristal Tərəzisi" müsabiqəsinin mükafatçısı olması da ciddi faktlardan biri kimi vurğulanmalıdır.

Son illər ədalət mühakiməsinin səmərəliliyinin artırılmasında məhkəmə infrastrukturunun müasirləşdirilməsinin rolu nəzərə alınaraq bu sahədə irimiqyaslı işlər görülür, məhkəmə hakimiyyətinin yüksək statusuna uyğun olan yeni məhkəmə binaları tikilib istifadəyə verilir. Dünya Bankı ilə həyata keçirilən "Ədliyyə sisteminin müasirləşdirilməsi" layihəsi çərçivəsində Bakının Yasamal və Sabunçu rayonlarında, habelə Gəncə, Oğuz, İmişli, Gədəbəy, Qəbələ və Şəkidə yeni məhkəmə komplekslərinin inşa edilməsi dövlətimizin bu sahəyə xüsusi qayğısının təcəssümüdür.

Ölkəmizdə yürüdülən hüquq islahatlarının mühüm bir qolunu da cəza siyasətinin humanistləşdirilməsi təşkil edir. Dövlətimizin başçısının 10 fevral 2017-ci il tarixli "Penitensiar sahədə fəaliyyətin təkmilləşdirilməsi, cəza siyasətinin humanistləşdirilməsi və cəmiyyətdən təcridetmə ilə əlaqədar olmayan alternativ cəza və prosessual məcburiyyət tədbirlərinin tətbiqinin genişləndirilməsi barədə" Sərəncamı bu baxımdan böyük tarixi-mənəvi dəyəri olan bir sənəddir. Sərəncamla cəza siyasətinin humanistləşdirilməsi məqsədilə Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Probasiya Xidməti yaradılmış, habelə Cinayət və Cinayət-Prosessual məcəllələrinə 300-ə yaxın dəyişikliklər edilmişdir. Həmin dəyişikliklərə əsasən, 15-dən çox cinayət tərkibi dekriminallaşdırılaraq cinayət kateqoriyasından inzibati xəta kateqoriyasına keçirilmişdir. Dekriminallaşma yalnız maddələrin ləğv edilməsi ilə deyil, həmçinin cinayət tərkibinin yaranması üçün tələb olunan ziyanın məbləğinin artırılması ilə həyata keçirilmişdir.

**Bütün bunlar bir daha təsdiqləyir ki, ulu öndərin 1993-cü ilin 15 iyun tarixindən Milli Qurtuluş yoluna çıxardığı Azərbaycan son 25 ildə inamla inkişaf edir, bütün sahələrdə müasirləşir, Cümhuriyyət qurucularının ideyalarını praktik olaraq gerçəkləşdirir. Azərbaycanda qanunun aliliyinin təminatı, ədliyyə orqanlarının dövlət idarəçilik mexanizmində nüfuzlu təsisat kimi təşəkkül tapması, o cümlədən ədalət mühakiməsinin həyata keçirilməsi zamanı insan hüquq və azadlıqlarının müdafiəsinin yüksək səviyyədə təşkili, peşəkar hakim korpusunun formalaşdırılması, məhkəmələrin fəaliyyətində şəffaflığın təmin edilməsi və digər konseptual məsələlərin həlli dövlət başçısının xüsusi diqqət mərkəzindədir. İnanırıq ki, 11 aprel 2018-ci il tarixdə keçirilmiş prezident seçkilərində xalqın yüksək etimadını qazanaraq növbəti dəfə Azərbaycan Respublikasının Prezidenti seçilmiş cənab İlham Əliyev ölkəmizin hərtərəfli sosial-iqtisadi, mədəni və hüquqi tərəqqisinə xidmət edən islahatları bundan sonra da əzmlə həyata keçirəcəkdir.**

**Təranə HÜSEYNOVA,**
**Cəbrayıl Rayon Məhkəməsinin sədri.**

# Dövlət Statistika Komitəsində Milli Qurtuluş Günü qeyd olunub

İyunun 14-də Azərbaycan Respublikası Dövlət Statistika Komitəsində 15 iyun - Milli Qurtuluş Günü münasibətilə tədbir keçirilib. Əvvəlcə xalqımızın ümummilli lideri Heydər Əliyevin komitənin binasının foyesində ucaldılan büstü önünə gül dəstələri düzülüb.



AZƏRTAC xəbər verir ki, tədbir iştirakçılarına Dövlət Statistika Komitəsinin Azərbaycan Xalq Cümhuriyyətinin 100-cü və ümummilli lider Heydər Əliyevin anadan olmasının 95-ci ildönümünə həsr olunan "Qurtuluşdan tərəqqiyə" adlı xüsusi nəşri təqdim edilib.

Sonra Milli Qurtuluş Gününün 25-ci ildönümü ilə bağlı tədbir dünya şöhrətli siyasi xadim Heydər Əliyevin əziz xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi ilə başlayıb.

Məruzə ilə çıxış edən Dövlət Statistika Komitəsinin sədri Tahir Budaqov xalqımızın və dövlətimizin taleyində dönüş anı olan 15 iyun 1993-cü ilin Azərbaycan tarixinə qızıl hərflərlə yazıldığını bildirib. Qeyd edib ki, fenomen şəxsiyyət Heydər Əliyev müasir Azərbaycan dövlətinin ideoloji-siyasi əsaslarını milli irs və müasir düşüncə əsasında yaradaraq, praktik surətdə gerçəkləşdirmiş strateq və ümummilli lider kimi hər zaman böyük rəğbət və ehtiramla xatırlanır.

Komitə sədri vurğulayıb ki, ulu öndər Heydər Əliyev zamanın və xalqının ona, onun dərin zəkasına və polad iradəsinə, zəngin dövlətçilik təcrübəsinə və sonsuz vətən sevgisinə güvənərək etibar etdiyi xilaskarlıq missiyasını layiqincə yerinə yetirməyə müvəffəq olub, Azərbaycanın çoxsaylı təhlükələrinə sipər olub, bütövlüyünü qoruyub saxlaya bilib. Bu parlaq dühanın 1993-cü il iyunun 15-də ölkə rəhbərliyinə qayıdışı ilə Azərbaycanın ictimai-siyasi, sosial-iqtisadi, elmi-mədəni həyatında, beynəlxalq əlaqələrdə elmi əsaslara, beynəlxalq norma və prinsiplərə uyğun müstəqil dövlət quruculuğu prosesinin əsası qoyulub və ölkəyə rəhbərlik etdiyi 10 il Azərbaycanın ən yeni tarixinə sosial-iqtisadi yüksəliş dövrü kimi əbədiləşib, regionda geosiyasi mövqelərini möhkəmləndirərək ölkəmiz böyük beynəlxalq nüfuz qazanıb.

Tahir Budaqov xüsusi vurğulayıb ki, dövlət başçısı İlham Əliyev ulu öndər Heydər Əliyevin siyasi-ideoloji kursunu keyfiyyətcə yeni müstəvidə davam etdirməklə, xalqımızın bu kursun mahiyyətindən doğan milli maraqlarını beynəlxalq miqyasda təmin etməklə, Azərbaycanın inkişaf strategiyasını uğurla həyata keçirməklə, müstəqilliyimizi möhkəmləndirməklə, dövlətçiliyimizi qüdrətləndirməklə Heydər Əliyevin ideyalarını yaşadır, inkişaf etdirir, ölkəmizi aydın və ilhamlı sabahlara aparır. Əbədiyaşar liderin təlatümlərdən çıxararaq qurduğu Azərbaycan bu gün Prezident İlham Əliyevin müdrik rəhbərliyi altında bütün dünyaya möhtəşəm tərəqqi dinamikası nümayiş etdirir, böyük dövlət xadimi Heydər Əliyevin banisi olduğu dövlətçilik strategiyası yeni, müasir Azərbaycanın siyasi və iqtisadi gerçəkliklərində parlaq təzahür edir. Bir həqiqətdir ki, İlham Əliyevin Azərbaycana rəhbərlik etdiyi son 15 ildə ictimai-siyasi həyatın bütün sahələrində böyük uğurlar əldə olunub, xalqımız və dövlətimiz üçün taleyüklü sayılan mühüm layihələr reallaşdırılıb, ölkəmizin iqtisadi və hərbi potensialı, əhalinin həyat səviyyəsi əhəmiyyətli dərəcədə yüksəlib.

Tədbirdə çıxış edən xidmət statistikası şöbəsinin müdiri Gülbala Quliyev, statistika işlərinin əlaqələndirilməsi və strateji planlaşdırma şöbəsi müdirinin müavini Toğrul Əcəlov və digərləri 25 il əvvəl ölkədə baş verən hadisələri bir daha xatırladıb, müdrik siyasi və dövlət xadimi Heydər Əliyevin 1993-cü il iyunun 15-də Azərbaycanda hakimiyyətə qayıdışının tarixi əhəmiyyətindən bəhs ediblər. Ulu Öndərin miras qoyduğu dövlətçilik irsi bu gün də yaşayır, bu irsin daşıyıcısı olan Prezident İlham Əliyevin timsalında xalqımızın inkişaf yoluna daim işıq saçır.

Tədbir Azərbaycan Televiziyasının hazırladığı ümummilli lider Heydər Əliyevin həyat və fəaliyyətindən bəhs edən "Əbədiyyət" filminin nümayişi ilə başa çatıb.

**AZƏRTAC**

# Milli Qurtuluş Gününə həsr olunmuş tədbirlər

## Zaqatala

Zaqatala rayonunda 15 iyun - Milli Qurtuluş Gününə həsr olunmuş tədbir keçirilmişdir.

Tədbirdə Zaqatala Rayon İcra Hakimiyyətinin başçısı Mübariz Əhmədzadə, hüquq-mühafizə orqanlarının və idarə-müəssisələrin rəhbərləri, eləcə də rayon ictimaiyyətinin nümayəndələri iştirak etmişlər.

İlk öncə tədbir iştirakçıları Heydər Əliyev Mərkəzində ulu öndərin abidə-kompleksini ziyarət etmiş, önünə tər çiçəklər düzmüş, dahi rəhbərə sonsuz sevgi və ehtiramlarını bildirmişlər.

Sonra Heydər Əliyev Mərkəzində 15 iyun-Milli Qurtuluş Gününə həsr olunmuş "Tarixin qızıl səhifəsi" adlı elmi-praktik konfrans keçirilmişdir. Konfrans Dövlət himninin səsləndirilməsi ilə başlanmış, sonra RİH başçısı Mübariz Əhmədzadənin geniş məruzəsi dinlənilmişdir. Məruzəçi 1993-cü ilin iyun hadisələri ərəfəsindəki hərc-mərcliyi, yaranmış ağır vəziyyəti xatırladaraq, yalnız ümummilli lider Heydər Əliyevin uzaqgörən və məqsədyönlü siyasəti nəticəsində sabitliyin bərqərar olunmasından söz açmışdır. Ümummilli liderimizin siyasi xəttinin bu gün də dövlətimizin başçısı cənab İlham Əliyev tərəfindən əzmlə və uğurla davam etdirildiyini yığıncaq iştirakçılarının diqqətinə çatdıran və çıxışını xalqımızı parlaq, firavan gələcək gözlədiyi barədə fikirlərlə yekunlaşdıran rayon rəhbəri fürsətdən istifadə edərək tədbir iştirakçılarını, onların timsalında bütün Zaqatala sakinlərini qarşıdan gələn Ramazan Bayramı münasibəti ilə təbrik etmişdir.

Konfransda çıxış edən digər natiqlər ümummilli liderimiz Heydər Əliyevin ikinci dəfə Azərbaycanın idarəçilik sükanı arxasına keçdikdən sonra üzləşdiyi çətinliklərə, maneələrə, dövlət çevrilişi cəhdlərinə sinə gərərək xalqımızı qardaş qırğınından, vətəndaş qarşıdurmasından, müstəqilliyimizi itirmək təhlükəsindən xilas etdiyini qeyd etmişlər.

Konfrans ulu öndərə həsr olunmuş filmin nümayişi ilə yekunlaşdı.

Konfransdan sonra tədbir iştirakçıları şəhər ərazisində yerləşən yeni inşa olunmuş, tərkibində ticarət obyektləri, şadlıq sarayı və ofis otaqları olan "Günəş Plaza" sahibkarlıq obyektinin açılışında iştirak etmişlər.

Daha sonra tədbir iştirakçıları Mosul kəndində rayon icra hakimiyyəti tərəfindən əsaslı təmir olunmuş 40 yerlik körpələr evi-uşaq bağçasının açılış mərasimində iştirak etmişlər.

Elə həmin gün axşam Heydər Parkında rayonun incəsənət ustalarının iştirakı ilə bayram konserti təşkil edilmişdir.

**Rasim AMANOV,**
**"Respublika".**

## Samux

15 iyun - Milli Qurtuluş Günü münasibəti ilə YAP Samux Rayon Təşkilatının akt zalında rayon icra hakimiyyətinin nümayəndələrinin, hüquq-mühafizə orqanlarının rəhbərlərinin, təhsil, səhiyyə, mədəniyyət, digər idarə və müəsssisələrinin işçilərinin, ictimaiyyətin nümayəndələrinin iştirakı ilə yığıncaq keçirilmişdir. İlk öncə, tədbir iştirakçıları ulu öndər Heydər Əliyevin mərkəzi istirahət parkında ucaldılmış əzəmətli heykəlinin önünə tər çiçəklər düzərək, əziz xatirəsini böyük ehtiramla yad etmişlər.

Dövlət Himni səsləndirildikdən sonra "Milli Qurtuluşdan İntibaha" adlı film nümayiş etdirildi.

Samux Rayon İcra Hakimiyyətinin başçısı Alı Qocayev yığıncağı açaraq Milli Qurtuluş Günü münasibəti ilə tədbir iştirakçılarını və bütün samuxluları təbrik etdi. Bildirdi ki, tariximizə Milli Qurtuluş Günü kimi daxil olmuş 1993-cü ilin 15 iyun günü onu qiymətləndirənlər, dərindən dərk edənlər üçün çox əzizdir. Vətənini, xalqını sevən həmin çətin, ağrılı günlərin dəhşətlərini yaşayan, hadisələri gözləri ilə görən insanlar üçün 15 iyun əsl qurtuluş tarixidir. Azərbaycanın bugünkü uğurları məhz qurtuluş məfkurəsi ilə əlaqədardır. 1993-cü ilin iyun ayında ulu öndər Heydər Əliyev hakimiyyətə qayıtdıqdan sonra ilk növbədə ölkədə sabitliyi təmin etdi. Bundan sonra isə müstəqil, hüquqi-demokratik dövlət quruculuğuna başlanıldı.

Bu gün, ulu öndərin siyasi kursu praqmatik dövlət başçısı, Yeni Azərbaycan Partiyasının sədri cənab İlham Əliyev tərəfindən böyük uğurla davam etdirilir. Artıq, Azərbaycan dünyada söz sahibidir, ölkəmiz tərəqqi və sürətli inkişaf yolundadır. Bu tərəqqi ulu öndər Heydər Əliyev ideyalarının təntənəsidir, möhtərəm Prezidentimiz İlham Əliyevin qayğı və diqqətinin təzahürüdür. Hamımızın qəlbində yaşayan, sevgilərimizin məbədinə çevrilən dahi şəxsiyyət Heydər Əliyevin ideyalarına qədirbilən samuxlular hər zaman sadiq qalacaqlar.

Tədbirdə çıxış edənlər ötən əsrin 90-cı illərində respublikamızda baş verən ictimai-siyasi prosesləri geniş təhlil etmiş, ulu öndər Heydər Əliyevin müdrikliyi və qətiyyəti sayəsində ölkəmizdə vətəndaş qarşıdurmasına son qoyulduğunu, Azərbaycanın müstəqilliyinin məhv olmaq təhlükəsindən azad olunduğunu, onun layiqli davamçısı ölkə Prezidenti cənab İlham Əliyevin respublikada yaratdığı sabitliyi, əmin-amanlığı və innovativ inkişafı xüsusi vurğulamışlar.

**Zabit XƏLİLOV,**
**"Respublika".**

*15 iyun Milli Qurtuluş Günüdür*

# Heydər Əliyev dühası Azərbaycanın davamlı inkişafının təməlində dayanan ən mühüm amildir

**Bəşəriyyətin tarixi təcrübəsi göstərir ki, dünya şöhrətli dahi şəxslərə nəinki təmsil etdikləri xalqın taleyində, eləcə də dünya siyasətində böyük missiyanı həyata keçirmək nəsib olur. Bu baxımdan, müstəqil Azərbaycan Respublikasının banisi və qurucusu, müasir intibahımızın müəllifi, ulu öndərimiz Heydər Əliyev çağdaş tarixə yenilməz şəxsiyyət, nadir istedada malik dövlət xadimi və dahi şəxsiyyət kimi daxil olmuşdur.**

Müasir Azərbaycanda dövlət quruculuğunun, iqtisadi dirçəlişin, siyasi şüurun, siyasi həyatın son qırx ildən artıq bir dövrünü əhatə edən zaman kəsiyi fenomen siyasi xadim kimi tanınan və dərin zəkaya, ensiklopedik biliyə, geniş dünyagörüşünə malik olan tarixi şəxsiyyətin—Heydər Əliyevin adı, əməli fəaliyyəti ilə gerçəkləşdirdiyi konkret işlərlə bağlıdır.

Heydər Əliyev öz parlaq siyasi zəkası və istedadı sayəsində yeni Azərbaycanı, onun bugünkü gerçəkliklərini yaratmış və gələcəyə aparan yolları müəyyən etmişdir. Məhz buna görə də Azərbaycan tarixinin 1969-cu ildən bəri yaşanan dövrü Heydər Əliyevin adı ilə bağlıdır və tariximizə Heydər Əliyev dövrü kimi həkk olunmuşdur.

Azərbaycanın müstəqil dövlət quruculuğuna aparan yolu, əslində, 1969-cu ildən—məhz onun hakimiyyətə gəlişindən sonra başlamışdır. Bu mənada azərbaycançılığın ən parlaq səhifələri də elə həmin illərdən etibarən yazılmışdır. Heydər Əliyev o dövrdə mövcud olan ideologiyanın qəlibləri çərçivəsində Azərbaycanda milli ruhun tamamilə sıxışdırılmasına nəinki yol verməmiş, əksinə, onu yüksəltmək yolunda bütün imkanlardan maksimum dərəcədə istifadə etməyi bacarmışdır.

Heydər Əliyevin dahiliyi, siyasi idarəçilik təcrübəsi, klassik və müasir mənada dövlətçiliyin təməl prinsiplərinə dərindən bələd olması və siyasi fəaliyyəti boyu bu prinsiplərə istinad etməsi bu qüdrətli şəxsiyyətin uzaqgörənliyini, müdrikliyini, ən ekstremal vəziyyətlərdə yeganə doğru qərar qəbul etmək bacarığını və qələbələrini şərtləndirən amillərdəndir.

Heydər Əliyevə siyasət sahəsində heç kim qalib gələ bilməmişdir. O, dövlətçilik tarixində "qalib lider" obrazını yaratmışdır. Heydər Əliyev Azərbaycan xalqına qalibiyyətin canlı obrazını, lider örnəyini bəxş etmişdir.

Heydər Əliyev dühası Azərbaycanın davamlı inkişafının təməlində dayanan ən mühüm amildir. Ümummilli liderimiz Heydər Əliyev bütün mənalı ömrünü xalqına, Vətəninə xidmət etməyə sərf etmişdir. 1993-cü ilin 15 iyunu müasir tariximizə Milli Qurtuluş kimi yazılıb.

1993-cü ilin yayında Azərbaycan "olum, ya ölüm" dilemması qarşısında qalmışdı. Belə bir çətin məqamda xalqımız son ümid yeri kimi öz dahi oğlu Heydər Əliyevə üz tutdu. Heydər Əliyev ölkəmizi parçalanıb məhv olmaqdan qurtardı, müstəqilliyimizi dönməz etdi. Qurtuluş tariximizin başlanğıcını qoyan ulu öndərimiz Azərbaycanı bütün təhlükələrdən xilas etdi. Xalqın istək və arzuları onun dövlətçilik ənənələrini, milli maraq və mənafelərini müstəqillik ideyası ətrafında birləşdirdi, hadisələrin axarını dəyişdi.

Ümummilli lider, dahi şəxsiyyət Heydər Əliyev 1993-cü ilin iyununda hakimiyyətə qayıdışından sonra Azərbaycanda əldə edilən milli birlik respublikamızın ən qiymətli mənəvi-ideoloji sərvətlərindən birinə çevrilmişdir. Xalqımızın yaddaşında bütöv və milli şəxsiyyət kimi təcəssüm olunan Heydər Əliyev dühasının tarixi sınaq anında üzərinə düşən missiyanın öhdəsindən uğurla gəlməsi, sözün həqiqi mənasında, Milli Qurtuluşa nail olması onun xalqla mənəvi birliyinin nəticəsi sayılmalıdır. Dövlətçilik taleyi baxımından ən ağrılı və çətin günlərdə xalq öz gələcəyini məhz inandığı, müdrikliyinə, idarəçilik səriştəsinə, siyasi fəhminə qəlbən güvəndiyi Heydər Əliyevə etibar etmiş, onun rəhbərliyi altında üzləşdiyi fəlakətlərdən xilas olacağına böyük ümid bəsləmişdi.

Ümummilli liderin qısa müddətdə vətəndaş sülhü və həmrəyliyinə nail olması, paralel olaraq respublikada tənəzzül prosesini dayandıraraq iqtisadi dirçəliş yönümündə praktik addımlar atması da xalqın öz rəhbərinə olan dəstəyindən irəli gəlmişdi.

Xalqına, dövlətinə güvənən Heydər Əliyev dühası 1994-1995-ci illərdə bəzi daxili qüvvələrin dövlət çevrilişi, qiyam cəhdlərinin qarşısını qətiyyətlə almış, beləliklə, Azərbaycanda silahlı yolla hakimiyyəti ələ keçirmək cəhdlərinə son qoyulmuşdur. 1994-cü ilin oktyabr, 1995-ci ilin mart hadisələri zamanı ümummilli liderin bir çağırışı ilə milyonlarla həmvətənlərimizin Prezident Aparatının qarşısına toplanması, ona dəstək verməsi çağdaş tariximizə milli birlik və həmrəyliyimizin ən ali təcəssümü kimi iz salmışdır.

Heydər Əliyev qədər Azərbaycanın neft sənayesini dərindən bilən ikinci bir rəhbər tapmaq çətindir. 1994-cü ildə respublikamız yeni bir eraya — neftimizin dünya bazarına nəqli erasına qədəm qoydu. Heydər Əliyev xarici iş adamları, xarici şirkətlərlə iş qurmaqla neft strategiyasının əsasını qoydu. Azərbaycan tarixində xüsusi əhəmiyyət kəsb edən Xəzərin neft-qazla zəngin strukturlarının işlənməsinə dair möhtəşəm bir müqavilə imzalandı.

Heydər Əliyevin müəllifi olduğu "Əsrin müqaviləsi" və "İpək yolu" nəhəng lahiyələrin reallaşdırılması bütün dünyada maraqla izləndi. Azərbaycan xarici investisiyaya qoyuluşuna görə MDB məkanında birinci yer tutdu. Bakı-Tbilisi-Ceyhan neft, Bakı-Tbilisi-Ərzurum qaz kəmərlərinin çəkilişi dünya miqyasında mühüm hadisə kimi qiymətləndirildi.

Ulu öndərin müəllifliyi ilə hazırlanmış və 1995-ci ilin 12 noyabrında ümumxalq səsverməsi yolu ilə qəbul edilmiş ilk Milli Konstitusiya Azərbaycanın unitar, demokratik və dünyəvi dövlət imicini təsbit etmiş vətəndaş cəmiyyətinə, insan hüquq və azadlıqlarının prioritetliyinə əsaslanan islahatların əsasına çevirilmişdir.



Qanunun aliliyi Heydər Əliyevin dövlətçilik ideyalarının təməl prinsipləri idi. Vurğulamaq lazımdır ki, Azərbaycanda haqq-ədalət prinsiplərinin cəmiyyət həyatının aparıcı amilə çevrilməsində ümummilli lider Heydər Əliyevin müstəsna xidmətləri olmuşdur. O, özünün siyasi fəaliyyətində və dövlət idarəçiliyi təcrübəsində bu prinsipləri həmişə üstün tutaraq, qanunçuluğa hamı tərəfindən eyni cür dürüst əməl edilməsini sağlam cəmiyyətin təşəkkül tapması üçün başlıca təməl kimi müəyyənləşdirmişdir.

Zəmanəsinin böyük mütəfəkkiri və filosofu olan Heydər Əliyev başlıca qayəsini müstəqillik, dövlətçilik, ədalətlilik, demokratiya, milli tərəqqi, dünyəvilik kimi ümumbəşəri dəyərlər təşkil edən yeni bir ideologiyanın - azərbaycançılıq məfkurəsinin əsasını qoydu. Heydər Əliyevin formalaşdırdığı və inkişaf etdirdiyi azərbaycançılıq fəlsəfəsi Azərbaycanın müasir dünyada xüsusi yerini müəyyən etmiş, milli dövlətçiliyimizin ideya əsasını təşkil edərək, dünya azərbaycanlılarının həmrəyliyi üçün zəmin yaratmışdır.

Heydər Əliyevin təşəbbüsü ilə 2001-ci il noyabr ayının 9-10-da Bakı şəhərində Dünya Azərbaycanlılarının I qurultayının keçirilməsinə nail olundu. Dünya Azərbaycanlılarının I qurultayı Azərbaycan xalqının həyatında, milli və mənəvi birliyinin təşəkkülündə tarixi bir hadisə oldu. Dünyanın ayrı-ayrı ölkələrində yaşayan həmvətənlərimizi bir araya gətirən qurultay xaricdə yaşayan soydaşlarımızın milli təşəkkülünün, özünüdərk hissinin formalaşması, onların müstəqil Azərbaycan dövləti ətrafında təşkilatlanması, mənəvi, siyasi birliyinin təmin edilməsi işində yeni bir mərhələ açdı.

Ümummilli lider Heydər Əliyevin 18 dekabr 1997-ci il tarixli "1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindən, tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiyası haqqında", 20 mart 1998-ci il tarixli "Azərbaycanlıların soyqırımı haqqında, 21 aprel 1998-ci il tarixli, "Azərbaycan Xalq Cümhuriyyətinin 80 illiyi haqqında" fərmanları, "Azərbaycan XXI əsrin və üçüncü minilliyin ayrıcında" adlı 29 dekabr 2000-ci il tarixli xalq müraciəti dünya azərbaycanlılarının mənəvi-ideoloji birliyinin əsas istiqamətlərini müəyyən edən konseptual sənədlər hesab oluna bilər.

Tarixə qısa nəzər salsaq görərik ki, son 200 ildə ermənilər Azərbaycan torpaqlarının ələ keçirilməsi planını öz havadarlarının - erməni lobbisinin köməyi ilə mərhələ-mərhələ həyata keçirmişlər. Bu məkrli siyasət nəticəsində XX əsrdə xalqımızın başına müsibətlər, dəhşətli faciələr gətirilib. 1988-ci ildə azərbaycanlıların öz ata-baba yurdlarından zorla köçürülməsi, deportasiya, etnik təmizləmə və soyqırımlara məruz qalması məhz bu yüzillikdə törədilmiş müsibətlərdir.

Əgər Heydər Əliyev xalqın iradəsi və çağırışı ilə 1993-cü ildə yenidən siyasi hakimiyyətə gəlməsəydi, onda xalqımız daha böyük fəlakətlərlə, müsibətlərlə üzləşə bilərdi. Heydər Əliyev bütün məhrumiyyətlərə sinə gərərək vətəndaş müharibəsinə son qoydu, ölkənin siyasi inkişafı və iqtisadi yüksəlişi üçün etibarlı zəmin yaratdı.

Bütün mənalı həyatını Azərbaycanın tərəqqisinə, əhalinin güzəranının, rifah halının yaxşılaşdırılmasına həsr edən ulu öndər Heydər Əliyevin ən böyük arzularından biri də Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin ədalətlli həlli, zəbt olunmuş torpaqlarımızın erməni işğalından azad edilməsi, bir milyondan çox soydaşımızın doğma yurdlarına qayıtması idi. Buna görə də ümummilli liderimiz ən mötəbər tribunalardan daim birmənalı şəkildə bəyan edirdi ki, problem yalnız BMT-nin nizamnaməsi çərçivəsində, beynəlxalq hüquq normaları əsasında öz həllini tapmalıdır.

Heydər Əliyevin gərgin səyləri və uğurlu diplomatiyası sayəsində Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin əsl mahiyyəti dünya ictimaiyyətinə çatdırıldı. Münaqişənin siyasi həlli, işğal olunmuş ərazilərin azad edilməsi qaçqın və məcburi köçkünlərin doğma yurdlarına qayıtmaları ilə bağlı BMT Təhlükəsizlik Şurası 4 qətnamə qəbul etdi. 1994-cü ildə atəşkəs əldə olundu. Bu problem ölkədə bir nömrəli problem adlandırıldı. Qaçqın və məcburi köçkünlərlə əlaqədar beynəlxaql normalara uyğun tam hüquqi baza yaradıldı, ölkə Prezidenti tərəfindən onların sosial müdafiəsi ilə bağlı 43 fərman və sərəncam imzalandı. Milli Məclis 23 qanun, Nazirlər Kabineti isə 192 qərar və sərəncam qəbul etdi. 1998-ci il iyul ayının 27-də Heydər Əliyevin sədrliyi ilə problemlə bağlı ümumrespublika müşavirəsi keçirildi. Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 17 sentyabr tarixli 895 nömrəli sərəncamı ilə "Qaçqınların və məcburi köçkünlərin problemlərinin həlli üzrə" uzunmüddətli Dövlət Proqramı təsdiq edildi.

Heydər Əliyev 2002-ci ildə Goranboy rayonunun Aşağı Ağcakənd qəsəbəsində qaçqın və məcburi köçkünlər üçün salınmış yeni qəsəbənin açılış mərasimində iştirak etdi.

1999-cu ildə Prezidentin fərmanı ilə dünya təcrübəsində ilk dəfə olaraq məcburi köçkünlərin sosial inkişaf Fondu təşkil edildi, bütün bunlar bir daha əyani şəkildə sübut edir ki, xalqımızın ümummilli lideri Heydər Əliyev Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi və bunun nəticəsində əziyyət çəkən bir milyona yaxın qaçqın və məcburi köçkünün problemlərinə daim diqqət və qayğı ilə yanaşırdı.

2003-cü ildə keçirilən prezident seçkilərində ölkənin bütün əhalisi kimi, qaçqın və məcburi köçkünlər də yüksək fəallıqla Heydər Əliyevin siyasi kursla, onun layiqli davamçısı cənab İlham Əliyevə səs verməklə dövlətimizə sadiq olduqlarını, aparılan siyasəti dəstəklədiklərini bir daha nümayiş etdirdilər.

Prezident İlham Əliyev tərəfindən ölkəmizdə qaçqın və məcburi köçkünlərin həyat səviyyəsinin yaxınlaşdırılmasına maksimum səy göstərilir. Vurğulmaq lazımdır ki, Prezident cənab İlham Əliyev 2003-2017-ci illərdə məcburi köçkünlərlə yeni salınmış qəsəbələrdə 33 dəfə görüş keçirmişdir.

Vurğulamaq lazımdır ki, Azərbaycan ordusunun uğurlu əks-hücumu nəticəsində Cocuq Mərcanlı kəndi erməni işğalçılarından azad olunmuş, 15 iyun 2017-ci ildə Prezident cənab İlham Əliyev Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndinə səfər etmişdir.

Dövlət başçısının uğurlu siyasəti nəticəsində Azərbaycan BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığının İcariyyə Komitəsinin üzvü seçilib.

2007-ci ildə məcburi köçkünlərin olduqca ağır şəraitdə yaşadıqları 12 çadır və 3 dəmiryolu üzərindəki yük vaqonlarından ibarət düşərgə 2016-cı ildə isə fin tipli evlərdən ibarət 16 qəsəbədən sonuncusu ləğv olunub və orada müvəqqəti məskunlaşmış məcburi köçkün ailələri yeni salınmış qəsəbələrə köçürülmüşdür. Qaçqın və məcburi köçkünlər üçün indiydək 3,3 milyon kvadratmetr yaşayış sahəsi olan 97 müasir qəsəbə və çoxmərtəbəli binalardan ibarət yaşayış kompleksləri salınıb və digər işlər həyata keçirilib.

Ölkəmizdə Milli Qurtuluş Günü təntənə ilə qeyd olunur. Azərbaycan tarixində, istərsə də xalqın yaddaşında Heydər Əliyev müstəqil və suverən dövlətin simvolu, xarizmatik siyasət dahisi, cəsur insan və ən böyük vətəndaş kimi qalmışdır. Ulu öndər, dahi şəxsiyyət Azərbaycanın ən yeni tarixində bütöv bir epoxanı özündə təcəssüm etdirən, müstəqil dövlətin siyasi, iqtisadi, hüquqi, sosial-mədəni, elmi əsaslarını yaradan, onların ardıcıl inkişafını təmin edən siyasi kursun və milli inkişaf strategiyasının müəllifidir.

**Etibar ABDULLAYEV,**
**Azərbaycan Respublikası Qaçqın və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin aparat rəhbəri.**

# Dahiliyin Heydər Əliyev zirvəsi

**Bu gün möhtərəm Prezidentimizin cənab İlham Əliyevin rəhbərliyi altında respublikamız sürətlə inkişaf edir. Müstəqillik illərində çoxşaxəli quruculuq proseslərinin geniş vüsət alması və beynəlxalq aləmdə ölkəmizin nüfuzunun durmadan artması və özünə layiqli yer tutması, bir ziyalı kimi, məni nə qədər sevindirirsə, bir o qədər də heyrətləndirir. Doğrudan da, iflasa uğramış SSRİ-nin xarabalıqları üzərində öz müstəqilliyini qurmağa başlayan, sinəsində Qarabağ yarası gəzdirən, 20 Yanvar və Xocalı soyqırımının dəhşətlərini yaşamış, müstəqilliyini itirmək təhlükəsi ilə üz-üzə dayanmış, iqtisadi və siyasi xaos içində yaşayan, vətəndaş müharibəsinin astanasında olan bir dövlətin, olduqca kiçik bir zaman kəsiyində, dünyada analoqu olmayan addımlarla inkişafı, ağlasığmaz böyük uğurlara nail olması adamı heyrətləndirməyə bilməz. Bununla yanaşı, bu gün hansı böyük nailiyyətlər əldə etmiş olsaq belə, bir tarixi həqiqəti heç vaxt unutmağa haqqımız yoxdur. Bu təkzibolunmaz həqiqət də odur ki, heyrətamiz uğurlara aparan bu yolu xeyli əvvəl böyük tarixi şəxsiyyət olan ulu öndərimiz Heydər Əliyev seçmiş, uzaqgörənliklə formalaşdırmış və bizə miras qoymuşdur. Bu günə qədər Heydər Əliyev haqqında çoxsaylı kitablar yazılıb, filmlər çəkilib, müasir dünyanın bütün tanınmış siyasətçiləri və dövlət xadimləri tərəfindən onun böyük şəxsiyyətinə son dərəcə yüksək qiymət verilib. Bununla belə, tam əminliklə demək olar ki, bu yorulmaz, mübariz və yaradıcı insanın böyüklüyü müasirləri tərəfindən hələ tam dəyərləndirilməyib. Uca dağlardan aralandıqca onun böyüklüyünü və əzəmətini düzgün qiymətləndirmək mümkün olduğu kimi, ulu öndərimizin şəxsiyyətinin böyüklüyünü və əzəmətini tam dolğunluğu ilə dərk etmək üçün hələ də müəyyən qədər vaxta ehtiyac vardır.**

Heydər Əliyevə olan ümumxalq məhəbbəti və qibtəsinin, beynəlxalq aləmdə xüsusi yerə, kəsərli sözə və böyük ehtirama malik olmasının sirli səbəbi, mənbəyi və fəlsəfi izahı digər tərəfdən, həm də ondadır ki, bu dahi şəxsiyyət qeyri-adi xüsusiyyətlərə malik idi.

Uca qaməti, vüqarlı duruşu, daxili gücə və özünəgüvənliyə dəlalət edən simasında ifadə olunan möhkəm iradəlilik və qətiyyətlilik əlamətləri və səsindəki amiranəlik Heydər Əliyevi ilk görünüşdən məğrur sərkərdəyə bənzədirdi. Bəlkə bu cür xüsusiyyətlər bu və ya digər dərəcədə ayrı sərkərdələrə də nəsib olmuşdur, amma Heydər Əliyevdə bu keyfiyyətlər başqa möcüzəvi, özünəməxsus qeyri-adi özəlliklərlə müşayiət olunurdu. Belə ki, istənilən problemə, hadisəyə, yaxud siyasi məsələlərə dair dərin məzmunlu, çox zaman da proqram xarakterli çıxışları ilə liderlik keyfiyyətləri ilə seçilən bu insanın nümayiş etdirdiyi qeyri - standart izhar - , izah - , analiz - və təfsiretmə qabiliyyəti, üstün səviyyədə idi. Hadisələrə yanaşmada çox zaman yalnız əsl yaradıcı insanlara xas geniş əhatəlilik və dərinlik, daimilik, ardıcıllıq və müşahidəçilik prinsipləri onun həm də ensiklopedik biliyə malik bir elm adamı olmasını göstərirdi. Digər tərəfdən, ağlagəlməz nəticələr çıxarmaq, onların harada, necə, nə zaman tətbiq oluna biləcəklərini, cari və perspektiv əhəmiyyətlərini, digərləri ilə mümkün ola biləcək daha səmərəli uzlaşmalarını açıqlaya bilmək bacarığı, çoxlarına əhəmiyyətsiz görünən adi xırda sadəliklər əsasında daha çətin mürəkkəblikləri görmə, açabilmə və uzaqgörənliklə həlletmə qabiliyyəti Heydər Əliyevin həm də dərin hikmətli bir insan - filosof olmasına dəlalət edirdi.

Deyilənlərlə yanaşı, çıxışlarının ilk anındaca hamının diqqətini özünə cəlb edən onun qüsursuz, anlaşıqlı tələffüz məharəti, mükəmməl nitq və danışıq mədəniyyəti səviyyəsi, mətndəkiləri yalnız sadalamaq naminə deyil, həm də tədris edirmiş kimi çatdıra bilmək üstünlüyü Heydər Əliyevi bir ustad müəllim kimi də xarakterizə edirdi.

Və nəhayət, bunlardan əlavə, Heydər Əliyevi istənilən, həllindən qaçılması mümkün olmayan problemlərin həlli zamanı seçdiyi strategiyanın və nümayiş etdirdiyi icraat tərzinin mahiyyətinə görə, obrazlı desək, mahir alim - həkimə də bənzətmək olar.

Onu da qeyd etmək lazımdır ki, Heydər Əliyev gerçəkdən də sərkərdə idi, özü də bu şərəfli yolun çoxlarının çata bilmədiyi ən yüksək zirvəsinə varmış - Ali Baş Komandan vəzifəsinə qədər yüksəlmiş bir sərkərdə idi. Bununla belə, həmin vaxtlar işlənib hazırlanmasının, verilməsinin və cavabdehinin də yalnız özü olduğu Vətənimiz üçün taleyüklü əmrlərin, tapşırıq və təlimatların layiqincə yerinə yetirilməsi naminə Heydər Əliyev həm də əmrə tabe cəsur bir əsgər olmaqdan da çəkinmirdi.

On minlərlə insanların qarşısında, cürbəcür mötəbər yerli və beynəlxalq toplantı, konfrans, qurultay, simpozium və zirvə görüşlərinin xitabət kürsülərində insan fəaliyyətinin, elmin bütün sahələrinə dair müxtəlif xarakterli mövzular üzrə xüsusi istedada malik natiqlərə xas məharətlə, saatlarla yorulmadan ayrı - ayrı dillərdə etdiyi geniş məzmunlu çıxışları ilə hamını valeh edən bu böyük şəxsiyyət bəzən məhrəm xatirələrini yada salaraq, söhbət etdiyi vaxtlarda isə sanki nəyisə unutmaqla, yetərincə deməməklə, yaxud da yersiz deməklə kiminsə xatirinə dəyməkdən çəkinən, titrək səslə aram - aram danışan sadə bir bəşər övladına çevrilirdi.

Qanun naminə, yalnız həmin cür addım atılması zərurəti yarandığı zaman nümayiş etdirdiyi qətiyyəti və tutduğu sərt mövqeyi Heydər Əliyevə zabitəli prokuror görkəmi verirdi, bununla belə, bəzən o, hətta əfv etməyi bacaran adil hakim kimi də çıxış edə bilirdi.

Yuxarıda yazılanlar bir daha təsdiqləyir ki, sərkərdə görünüşlü bu böyük insanda eyni zamanda professor, filosof, müəllim - ustad və əsl ziyalılıq xüsusiyyətləri, fövqəladə səlahiyyətlərə malik baş komandanda əmrə tabe bir əsgər obrazı, mahir natiqdə aramla çəkinəcəklə danışmaq şakəri, zabitəli prokurorda adil hakim humanistliyi hər tarixi şəxsiyyətə nəsib olmayan bir vəhdət təşkil edirdi.

Heydər Əliyevin dahiliyinə möhtəşəmlik və sadəlik, gücünə, qüdrətinə əbədilik və şəxsiyyətinə müdriklik verən, ona haqq etdiyi ehtiramı qazandıran, ümumbəşər məşhurluğu gətirən, ulu öndər və ümummilli lider zirvəsinə yüksəldən və nəhayət tarixin ölməzlik rəmzinə çevirən də elə onun şəxsiyyət xüsusiyyətlərindəki böyüklükdür. Özü də Heydər Əliyev yalnız çox bilən olduğuna görə yox, bildiklərinin xalqı, Vətəni və bəşəriyyət üçün xeyirli olmasına görə dahi idi.

Bəli, Heydər Əliyev dahi idi. Amma, əmin - amanlıq şəraitində yazıb - yaratmış, elmi nailiyyətlər əldə etmiş, fəlsəfə ilə məşğul olmuş şəxslərin dahiliyindən fərqli olaraq, Heydər Əliyev dahiliyi uzun illər ərzində çətin tarixi süzgəclərdən keçərək, zaman-zaman cilalanmış, ağlasığmaz dərəcədə yaradıcılıq qabiliyyətinə malik bir mənbəyə çevrilmiş və həmişə özünü Vətəninin, xalqının müqəddəratının həll edildiyi vaxtlarda büruzə vermişdir. Bunun belə olduğunu tarixin özü təsdiq etdi. Müstəqil inkişaf yoluna yenicə qədəm qoymuş Vətənimizin daxilində və xaricində gedən çoxməchullu siyasi oyunların və vətəndaş qarşıdurmasının tüğyan etdiyi, siyasi blokadaya alınaraq təklənmiş, misli görünməmiş haqsızlıqlara və təzyiqlərə məruz qalmış gənc dövlətimizin real şəkildə öz müstəqilliyini itirmək təhlükəsi ilə qarşı-qarşıya durduğu bir vaxtda Heydər Əliyev xalqın çağırışına səs verib təkrar hakimiyyətə qayıdaraq qısa bir zamanda dahiyanəliklə Azərbaycanı bütün bu bəlalardan xilas etdi, ona ***"Müstəqil Azərbaycan"*** adlı tarixi pasport verdi və onun gələcək inkişaf yolunun "üst qurumunu" yaratdı. Bununla da o, həqiqətən də bu xalqın dahiyanə ulu öndəri və əvəzsiz ümummilli lideri olduğunu bir daha sübuta yetirdi. Heydər Əliyev dahiliyinin digər təzahürlərindən biri də Azərbaycana olan xarici münasibətləri diplomatik məharətlə perpendikulyar müstəvidən çıxararaq paralel müstəviyə keçirməyə nail olmasıdır, yəni, Azərbaycanı digər dövlətlərdən asılılıq boyunduruğundan xilas edərək, ona həmin dövlətlərlə bərabərhüquqlu, tərəf müqabil və rəqabətə dözümlü bir müstəqil dövlət kimi çıxış etmək statusu verməsidir.

*"Heydər Əliyevin, özünün müəllifliyi və rəhbərliyi ilə tərtib edilib təsdiqə hazırlanılan, 25 il öncə imzalandığı zaman çoxlarına, etiraf etməyi bacarsaq, özündən başqa, bəlkə də hamıya sonu nə ilə qurtaracağı bəlli olmayan bir xəyal kimi görünən, bu gün isə barı ilə bəhrələndiyimiz və fəxr etdiyimiz, Azərbaycanın indiki və gələcək iqtisadiyyat özülü olan, ixtiraçılıq baxımından bütün dünyanı heyrətləndirən "Əsrin Müqaviləsi" Heydər Əliyev uzaqgörənliyinin bariz, təkrarolunmaz nümunələrindən biridir"* desəm, yəqin ki, milyonların fikrini ifadə etmiş olaram. O, bununla min bir əziyyətlərə sinə gərərək yaratdığı gənc Azərbaycan Respublikasının siyasi və iqtisadi müstəqilliyini əbədi olaraq təmin etmiş oldu, dövlətimizin tez bir zamanda dünya siyasətinə və iqtisadiyyatına inteqrasiya etməsinə yol açmış oldu. Məhz buna görədir ki, bu gün heç bir regional beynəlxalq layihələr Azərbaycanın razılığı və iştirakı olmadan həyata keçirilə bilmir, Avropanın enerji təhlükəsizliyi Azərbaycandan keçir, ölkəmiz daha tez-tez beynəlxalq miqyaslı mötəbər siyasi, iqtisadi, mədəni və idman tədbirlərinə ev sahibliyi edir, adı Olimpiadaya ev sahibliyi etmək istəyən dövlətlər sırasında çəkilir.

Dahiliyi və güclülüyü, haqq yolundan dönməzliyi sayəsində onunla təmasda olan insanları heyrətə salan Heydər Əliyev kimi şəxsiyyət peşəkar və zabitəli dövlət xadimi zirvəsinə yüksəlmiş olsa da, gündəlik həyatda və məişətdə son darəcə sadə bir insan idi. O, məsuliyyətli ailə başçısı, sevən ata, qayğıkeş bir baba idi. O, gözlərində məsum körpə sevinci ilə ürəkdən gülə bilirdi, zarafat etməyi, yumoru qəbul etməyi, sevinməyi və kədərlənməyi də bacarırdı, yeri düşəndə mahnı oxumağından, şeir deməyindən də qalmırdı, hər kəslə onun öz dilində danışmaq qabiliyyətinə malik idi. Vəzifəsi və Vətən qarşısındakı məsuliyyəti ilə əlaqəli bəzən sərt və çox tələbkar görünüşlü olan öndərimiz əslində kövrək qəlbli idi. Nur saçan gözləri onun qəlbində toplanmış tükənməz daxili enerjini əks etdirirdi. Bütün bunların əsasında onun sadəliyi dururdu. Bununla belə, Heydər Əliyev sadəliyinin arxasında bir qeyri - adilik vardı. Bu, da qarşısında hamını ciddi və səfərbər olmağa sövq edən, özünə inam və hörmət yarada bilən onun möhtəşəmliyi idi. Bu elə bir möhtəşəmlik idi ki, dostlarında, həmvətənlərində, bütün onu sevənlərdə qürur hissi oyadırdı, onların inancına çevrilirdi, düşmənlərində isə vahimə yaradırdı, ən azı həsəd hissi doğururdu.

Bəli, əlbəttə Heydər Əliyev Azərbaycanın oğlu idi. O, həyatın mənasını hələ gənclik illərində ikən düzgün başa düşdüyündən ömrünü xalqına həsr etmişdir, yanaraq yaradıb yaşatmışdır, xalqını xoş gələcəyə aparan yola yanar şam kimi işıq salmışdır, hazırda isə əbədiyyat məşəlinə çevrilmişdir.

Mütərəqqi bir azərbaycanlı kimi, Qurtuluş Günü ərəfəsində ulu öndərimiz haqqında düşüncələrimi qələmə almaqla, qəlbimdə bir rahatlıq hiss etdim. Mən indi daha aydınlığı ilə dərk etdim ki, bu qüdrətli şəxsiyyəti, tutduğu vəzifəsindən və əqli inkişaf səviyyəsindən asılı olmayaraq, bütün insanlara sevdirən, ilk növbədə, onun sadəliyi və bu sadəliyin arxasında duran və heç bir standart çərçivəyə sığmayan qeyri - adiliyi olmuşdur. Dahilərə xas olan bütün xüsusiyyətlərin bu insanda cəmləşərək vəhdət təşkil etməsi onu fövqəlbəşər səviyyəyə qaldırmışdı. Məhz buna görə də, az qala bir əsrin yarısı qədər bir dövr ərzində dövlət idarəçiliyinin başında dayanan və dünyanın ən möhtəşəm ictimai-siyasi xadimlərindən biri kimi tanınan bu tarixi şəxsiyyət daim qalib kimi yaşadı və qalib kimi də dünyasını dəyişdi.

Bu gün ulu öndərimizin uyuduğu məkan müqəddəs ziyarətgaha çevirilib, oraya gedən yolu daim gül-çiçək bəzəyir, hər gün onu ziyarətə gələn həmvətənlərimizin və xarici vətəndaşların ardı-arası kəsilmir. Onun müqəddəs məzarı xalqımızın həmrəylik və milli qürur rəmzinə çevrilib. Tanrı onu, təkcə Azərbaycan xalqının deyil, bütün bəşəriyyətin oğlu kimi dünyaya gətirmişdi. Bax budur ***Dahiliyin Heydər Əliyev zirvəsi!!!***

Müstəqil Azərbaycanımızın bu gün malik olduğu zirvələrə yüksəlməsinin həlledici tarixi əsasını yaradan Heydər Əliyev kimi bir şəxsiyyətin 1993 - cü ildə yenidən Azərbaycana qayıdaraq Prezident seçilməsi, Vətənimizin sonrakı dövrdə inkişaf etməsinə böyük təkan verən 1994 - cü ildə "Əsrin müqaviləsi"nin imzalanması, cənab İlham Əliyev kimi müdrik rəhbər yetişdirməsi təşkil edir.

**Loğman MƏMMƏDOV,**
**Azərbaycan Tibb Universitetinin operativ cərrahlıq və topoqrafik anatomiya kafedrasının müdiri, tibb elmləri doktoru, professor, əməkdar müəllim.**

15 iyun Milli Qurtuluş Günüdür

# Azərbaycanın müstəqilliyini təmin edən böyük qayıdış

**15 İyun - Milli Qurtuluş Günü heç vaxt xalqımızın yaddaşından silinməyəcək tarixi bir gündür. Ümummilli liderimiz Heydər Əliyevin 1993-cü ilin iyununda ikinci dəfə Azərbaycanda hakimiyyətə qayıdışı kimi tariximizə düşən bu gün ölkəmizin müstəqil bir dövlət kimi inkişafının başlanğıcı oldu. Xalqımız hər il Azərbaycan tarixində ən əlamətdar hadisələrdən biri olan bu günü böyük təntənə ilə qeyd edir. Ulu öndər Heydər Əliyevin adı ilə bağlı olan bu gün Azərbaycan dövləti yaşadıqca millətin yaddaşında əbədi qalacaqdır.**

Dövlət müstəqilliyimizin bərpasından ötən illərə nəzər saldıqda bir daha əminliklə söyləmək olar ki, həqiqətən də, tarixin millətə verdiyi şansı yalnız görkəmli tarixi şəxsiyyətlərin iştirakı ilə reallaşdırmaq mümkündür. Belə tarixi şəxsiyyətlər nadir hallarda yetişir və belə dühalar özləri tarix yaradırlar.

Azərbaycan xalqının böyük və dahi oğlu, dünya şöhrətli siyasətçi Heydər Əliyev məhz tarix yaradan əvəzolunmaz şəxsiyyət idi. Müasir Azərbaycan tarixinin 34 illik bütöv bir epoxası, bu illərdə xalqımızın ictimai-siyasi, iqtisadi və mədəni həyatının bütün sahələrində inkişafı və dirçəlişi Heydər Əliyevin adı və fəaliyyəti ilə bağlıdır. Heydər Əliyev öz müdrik siyasəti, dönməz əqidəsi və tarixi uzaqgörənliyi sayəsində milli dövlətçilik ideyasının gerçəkləşdirilməsinə, müasir, müstəqil Azərbaycan dövlətinin qurulmasına və xalqımızın uzun illərdən bəri arzuladığı müstəqilliyinə çatmasına nail olmuşdur. Azərbaycanın bu gün müstəqil dövlət kimi mövcudluğu üçün Heydər Əliyevə borcluyuq. Onun polad iradəsi və qətiyyəti, fədakar əməyi sayəsində müasir Azərbaycan dövlətinin möhkəm təməl üzərində bünövrəsi ucaldılıb. Heydər Əliyev deyirdi: **"Doğma, canım, varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır. Bütün şüurlu ömrümü onun inkişafına, tərəqqəsinə həsr etmişəm. Bundan sonrakı ömrümü də onun işıqlı sabahları uğrunda qurban verməyə hazıram".**

1991-ci ilin oktyabrında öz dövlət müstəqilliyini ikinci dəfə qazanmış respublikamız 1993-cü ilin iyununa qədərki müddətdə böhran, xaos və anarxiya, çaxnaşmalarla qarşılaşmışdı, böhran son dərəcə kəskinləşmişdi. Belə bir ağır və çıxılmaz vəziyyətdə Azərbaycanın əsl xilaskara ehtiyacı vardı. Artıq hamıya aydın idi ki, nə o vaxtkı iqtidar, nə də o dövrdə hakimiyyətə iddialı olan müxtəlif qüvvələr ölkəni düşdüyü bu iflic vəziyyətdən çıxara bilməyəcək. Çıxılması mümkün görünməyən belə bir vəziyyətdə xalq öz fədakar oğlu Heydər Əliyevə müraciət etdi. Xalqımız yaxşı bilirdi ki, belə bir anda yalnız və yalnız Heydər Əliyev dühası milləti bu düşdüyü bəlalardan qurtara bilər. Xalq ayağa qalxdı və əldən getməkdə olan müstəqilliyinin nicatı üçün Heydər Əliyevi təkidlə Naxçıvandan Bakıya dəvət etdi. Xalqın çağırışına, taleyinə heç vaxt biganə olmayan ulu öndərimiz 1993-cü il iyunun 9-da respublika paytaxtına gəldi və iyunun 15-də Azərbaycan Respublikası Milli Məclisinin sessiyasında Ali Sovetin sədri seçildi. Heydər Əliyevin ölkə rəhbərliyinə bu böyük qayıdışı siyasi-iqtisadi böhran içində boğulan Azərbaycanı böyük fəlakətdən xilas etdi. Ölkədə tüğyan edən hərc-mərclik, vətəndaş müharibəsi, qeyri-qanuni fəaliyyət göstərən silahlı dəstələr və digər xoşagəlməz mənfi amillərin qarşısının alınması üçün öz həyatını belə böyük təhlükə altına ataraq bu hallara qarşı kəskin mübarizə başladı və qısa bir zaman kəsiyində bu neqativ ünsürlərin, özbaşınalığın qarşısını birdəfəlik aldı, qanunsuz silahlı dəstələr tərksilah edildi. Azərbaycan parçalanıb məhv olmaq təhlükəsindən xilas olundu. Bu, böyük ürəkli, cəsarətli Vətən oğlunun öz milləti, öz Vətəni qarşısındakı misilsiz fədakarlığı idi. Həmin tarixi dövr xalqımızın taleyində dönüş anı, itirilmiş inamının qaytarılması, anarxiyadan sabitliyə və inkişafa doğru yeni bir mərhələ oldu. Azərbaycan Prezidenti cənab İlham Əliyev həmin dövrü belə xarakterizə etmişdir: **"Müstəqilliyimizin ilk illərindəki hərc-mərclik və xalqımızın maraqlarına zidd siyasət, iqtisadiyyatın zəiflədilməsi və milli sərvətlərin talan edilməsi dərin siyasi və iqtisadi -sosial böhranla nəticələndi. 1993-cü ilin iyun ayından ölkədə formalaşmağa başlayan yeni siyasi kurs vətəndaş müharibəsi təhlükəsini aradan qaldırdı, separatçılıq meyillərinə son qoyuldu və Heydər Əliyevin dövlət quruculuğu siyasətinin gerçəkləşməsinə gətirib çıxardı".**

Ümummilli liderimiz Heydər Əliyev öz şərəfli və möhtəşəm fəaliyyəti ilə müasir, müstəqil Azərbaycan dövlətini yaratdı. Azərbaycanı həmişə müstəqil, inkişaf etmiş dünya dövlətləri sırasında görmək istəyən Heydər Əliyev bu barədə demişdir: "Azərbaycan xalqının tarixi nailiyyəti olan Azərbaycan Respublikasının dövlət müstəqilliyini özüm üçün əsas vəzifələrdən biri hesab edirəm. Heç kəsin şübhəsi olmasın ki, ömrümün bundan sonrakı hissəsini harada olursa-olsun, yalnız və yalnız Azərbaycan Respublikasının müstəqil dövlət kimi inkişaf etməsinə həsr edəcəyəm. Azərbaycan Respublikası bundan sonra da onun başına nə gəlirsə-gəlsin, müstəqilliyini itirməyəcək, yenidən heç bir dövlətin tərkibinə daxil olmayacaq, heç bir dövlətin əsarəti altına düşməyəcək". Azərbaycanın dövlət müstəqilliyinin möhkəmləndirilməsi milli sərvətlərimizdən ölkənin və xalqın mənafeyinə uyğun olaraq istifadə olunmasında ulu öndər Heydər Əliyevin neft strategiyası mühüm əhəmiyyət daşınmışdır. 1994-cü il sentyabrın 20-də böyük dövlətlərin iri neft şirkətləri ilə imzalanmış "Əsrin müqaviləsi" və 1999-cu il noyabrın 18-də ATƏT-in İstanbul zirvə toplantısında Bakı-Tbilisi-Ceyhan əsas neft ixrac boru kəmərinin inşa olunmasına dair bağlanmış saziş müstəqil Azərbaycanın iqtisadi inkişafında müstəsna rol oynadı. Bu gün Azərbaycan dinamik inkişaf edən, dünya birliyində layiqli yer tutan, müstəqil siyasət yürüdən bir dövlətdir. Respublikamız BMT, ATƏT, Avropa Şurası, İslam Konfransı Təşkilatı və digər mötəbər təşkilatların üzvüdür, NATO və Avropa Birliyi ilə sıx və işgüzar əlaqələr qurub. Heydər Əliyev yaratdığı iqtisadi-siyasi bazaya əsaslanaraq deyirdi: "İnanıram ki, Azərbaycan Respublikası XXI əsrdə həyatın bütün sahələrində geniş inkişaf edən, çiçəklənən bir ölkə kimi böyük uğurlar qazanacaqdır".



Ulu öndər hakimiyyətə qayıtdığı ilk gündən hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğu məsələsini də daim diqqət mərkəzində saxlayaraq bu istiqamətdə mühüm islahatların reallaşdırılmasını təmin etmişdir. Heydər Əliyev böyük siyasət ustadı olaraq hər bir fərdin maraq və mənafelərini təmin etmədən, ədalət meyarını qorumadan güclü dövlət yaratmağın mümkünsüzlüyünü hər zaman vurğulamış, vətəndaşlara göstərilən hüquqi yardımın səviyyəsinin müntəzəm surətdə artırılmasının əsas təşəbbüskarı kimi çıxış etmişdir. Ümummilli liderin rəhbərliyi altında hazırlanaraq 1995-ci ilin 12 noyabrında ümumxalq səsverməsi yolu ilə qəbul edilmiş Azərbaycan Respublikasının Konstitusiyası dövlətimizin tarixində hakimiyyət bölgüsü prinsipini, demokratik və dünyəvi dövlət quruculuğunun hüquqi əsaslarını, insan hüquq və azadlıqlarının qeyri-şərtsiz təmin olunmasının bünövrəsini qoymuşdur. Azərbaycan demokratik, hüquqi, dünyəvi dövlət kimi ilk dəfə olaraq insan hüquqlarının prioritetliyini və hakimiyyət bölgüsünü özünün gələcək inkişaf yolu kimi seçmişdir. 1995-ci ildə müstəqil Azərbaycanın parlamentinə keçirilən ilk seçkilər isə dövlət müstəqilliyinin möhkəmləndirilməsi prosesinin hüquqi bazasının yaradılmasına daha geniş imkanlar açmışdır. 1995-ci ildən Azərbaycanda aparılmış hüquqi islahatlar respublikada sabitliyin və inkişafın təməl prinsiplərini müəyyənləşdirmişdir. Heydər Əliyev ölkəmizin gələcək inkişaf istiqamətlərindən danışarkən demişdir: "Müstəqil Azərbaycan Respublikasının qarşısında duran əsas vəzifələrdən biri respublikanın dövlət quruculuğunu təşkil etməkdir. Bizim yolumuz aydındır, bunu dəfələrlə bəyan etmişik. Yolumuz demokratiya yoludur.

Müstəqil Azərbaycanda demokratik, hüquqi dövlət qurulmalıdır. Azərbaycan dövləti demokratik prinsiplər əsasında fəaliyyət göstərməlidir, öz tarixi ənənələrindən bəhrələnərək, dünya demokratiyasından, ümumbəşəri dəyərlərdən səmərəli istifadə edərək demokratik dövlət quruculuğu yolu ilə getməlidir".

Dahi Heydər Əliyevin öz milləti və xalqı qarşısında ən böyük xidmətlərindən biri də özündən sonra onun iqtisadi-siyasi kursunu davam etdirə biləcək layiqli varis yetişdirməsidir. O, 2003-cü ilin oktyabrında xalqa ünvanladığı tarixi müraciətində demişdir: **"İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm".** Bu gün qürur hissi ilə deyə bilərik ki, dahi Heydər Əliyevin dediyi sözlər, cənab İlham Əliyevə bəslədiyi ümidlər özünü doğruldur. 2003-cü ildə böyük səs çoxluğu ilə Azərbaycan Prezidenti seçilən İlham Əliyev ötən 15 il ərzində ulu öndərin təməlini qoyduğu siyasi-iqtisadi kursunu qloballaşan dünyanın tələblərinə uyğun olaraq inam və ardıcıllıqla davam etdirir. Onun rəhbərliyi ilə Azərbaycan dünyada böyük nüfuza, iqtisadi gücə malik ölkə kimi tanınır. Ölkəmiz iqtisadi artım tempinə görə dünya ölkələri sırasında lider mövqedədir. **"Mən hər bir azərbaycanlının Prezidenti olacağam",** - deyən cənab İlham Əliyev, doğrudan da, hər bir azərbaycanlının Prezidenti oldu. Cənab Prezident İlham Əliyev ölkə rəhbərliyinə gəldiyi ilk gündən vurğulayıb ki, Azərbaycanda Heydər Əliyev siyasi-iqtisadi inkişaf kursu davam etdiriləcək. Çünki bu kursa alternativ yoxdur, bu kurs yüksək inkişaf və tərəqqi yoludur. Bu gün fəxrlə qeyd edirik ki, Azərbaycanda cənab Prezident İlham Əliyevin rəhbərliyi ilə əldə olunmuş uğurların miqyası olduqca böyükdür. Ötən 15 il ərzində İlham Əliyevin rəhbərliyi ilə iqtisadiyyatın bütün sahələrində davamlı islahatlar aparılmış, beynəlxalq aləmdə ölkəmizin nüfuz və hörməti artıb, sosial məsələlərə diqqət artırılıb, demokratik inkişaf yolu ilə gedən Azərbaycanda bütün azadlıqlar təmin olunub. Bu gün Azərbaycan xalqı öz taleyinin və milli sərvətinin sahibidir. Ulu öndərin təməlini qoyduğu Bakı-Tbilisi-Ceyhan neft kəməri 2006-cı ildə istifadəyə verildi. Ondan sonra Bakı-Tbilisi-Ərzurum qaz kəmərinin istifadəyə verilməsi Azərbaycanı qaz ixrac edən ölkəyə çevirdi. Regionda ölkəmizin iştirakı olmadan heç bir beynəlxalq əhəmiyyət daşıyan layihələr icra olunmur. Son illər bölgədə beynəlxalq əhəmiyyətə malik infrastruktur layihələrinin təşəbbüskarı və təşkilatçısı da məhz Azərbaycandır. Ötən ilin oktyabrında Azərbaycan Prezidentinin təşəbbüsü ilə reallaşan Bakı-Tbilisi-Qars dəmir yolunun istifadəyə verilməsi də ölkəmizin əldə etdiyi tarixi nailiyyətlərdəndir. Bundan başqa, "Şimal-Cənub", "Cənub-Qərb" nəqliyyat dəhlizlərinin tikintisi də sürətlə aparılır ki, burada əsas təşəbbüskar məhz Azərbaycandır. Bu dəhlizlərin istifadəyə verilməsi ilə ölkəmiz həm regionda, həm də dünyada böyük nəqliyyat mərkəzlərindən birinə çevriləcəkdir.

Son illər Azərbaycanda ən inkişaf etmiş sahələrdən biri də Azərbaycanın turizm sektorudur. Təməli ulu öndərimiz Heydər Əliyev tərəfindən qoyulmuş turizm siyasəti bu gün dövlət başçısı tərəfindən uğurla davam etdirilir. Ulu öndərimiz Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycan Ümumdünya Turizm Təşkilatına tamhüquqlu üzv seçilmişdir. Bu gün turizmin inkişafı Azərbaycan Prezidenti cənab İlham Əliyev tərəfindən prioritet istiqamət kimi qarşıya qoyulub. Dövlətimizin bu mühüm sahəyə göstərdiyi diqqətin bariz təzahürüdür ki, 2010-2014-cü illərdə turizmin inkişafına dair Dövlət Proqramı qəbul olunub, 2011-ci il isə ölkə rəhbəri tərəfindən Azərbaycanda "Turizm ili" elan olunmuşdur. Dövlətimizin bu sektorun inkişafına olan diqqətin təzahürüdür ki, bu sahədə son dövrlər böyük işlər görülür, yüksək uğurlar əldə olunur. Ölkəmizdə son illər beynəlxalq əhəmiyyətli tədbirlərin, idman yarışlarının keçirilməsi ölkəmizə gələn turistlərin sayının xeyli dərəcədə artmasına səbəb olmuşdur, yeni-yeni turizm obyektlərinin, müasir dünya tələblərinə cavab verən istirahət mərkəzləri və otellərin tikintisini labüd etmişdir. Bu gün ölkənin turizm sektorunda fəaliyyət göstərən çoxlu sayda turizm şirkətləri vardır. Onlardan biri də rəhbərlik etdiyim "BF" şirkətidir. Şirkətimiz fəaliyyəti dövründə özünü həm ölkənin turizm bazarında, həm də xaricdə etibarlı agentliklərdən biri kimi tanıtmışdır. Şirkətimiz turistlərə göstərilən keyfiyyətli xidmət və istirahətin təşkilinə görə regionda şöhrət qazanmışdır. Şirkətimiz ölkənin hüdudları ilə bərabər, Azərbaycanın şəhər və rayonları üzrə müxtəlif maraqlı tur və ekskursiyalar təşkil edir. Bir sözlə, şirkətimizin fəaliyyət istiqaməti kifayət qədər genişdir və şirkətimiz bu gün ölkə turizminin inkişafına öz layiqi töhfəsini verir.

Qeyd olunduğu kimi, bu gün Azərbaycanda bütün sahələrdə yüksək inkişafa nail olunub. Bunun təməlində isə xalq-iqtidar birliyi dayanır. Aprel ayının 11-də keçirilən növbədənkənar Prezident seçkilərində xalqımızın böyük əksəriyyəti öz iradəsini yenidən nümayiş etdirərək Heydər Əliyev siyasətinə, onu uğurla davam etdirən Azərbaycan Prezidenti İlham Əliyevə, bir sözlə, ölkənin sosial-iqtisadi inkişafına, quruculuğa və xalqımızın firavan gələcəyinə səs verdilər. Cənab Prezident andiçmə mərasimində qeyd etmişdir ki, xalq mənə inanır, məni dəstəkləyir və mən də öz növbəmdə xalqa verdiyim sözlərə əməl edirəm və bundan sonra da əməl edəcəyəm. Xalqımı əmin edirəm ki, bundan sonra da Heydər Əliyev siyasi kursunu davam etdirəcəm, xalqa və Vətənə ləyaqətlə xidmət edəcəyəm.

Ümummilli lider Heydər Əliyevin şah əsəri olan müasir, müstəqil Azərbaycan günü-gündən inkişaf edir, beynəlxalq aləmdə nüfuzu artır.

**Aydın ƏHMƏDOV,**
**BF şirkətlər qrupunun rəhbəri,**
**YAP Suraxanı təşkilatının üzvü.**

# Milli Qurtuluş - müstəqil Azərbaycanın milli oyanışının doğan günəşidir

**XXI əsrin başlanğıcında Azərbaycanın müstəqil dövlət kimi bölgədə və dünyada layiqli yerini tapması, regional liderliyini təmin etməsi, iqtisadi sahədə keçid dövrünü uğurla başa vurması məhz ümummilli lider, dünya şöhrətli ictimai-siyasi xadim Heydər Əliyevin xalqın rəyinə əsaslanmaqla əsasını qoyduğu uzaqgörən siyasətin nəticəsidir. Hakimiyyətdə olduğu 34 il müddətində dahi öndər xalqının tarixi mənafeləri uğrunda əzmkar mübarizə aparmış və ictimai-siyasi proseslərdə real güc mərkəzi kimi özünü göstərmişdir.**

Azərbaycan ictimai təfəkküründə əsrlər boyu aktuallığını qoruyub saxlayan ədalətli rəhbər arzusu da məhz Heydər Əliyev dühasının parlaq şəxsiyyətində reallığa qovuşmuş, ümummilli lider siyasi fəaliyyətinin bütün mərhələlərində humanizm və insanpərvərlik prinsiplərinə əsaslanan mükəmməl idarəçilik sisteminin formalaşdırılmasına xüsusi diqqət yetirmişdir. Dərin zəkası, liderlik qabiliyyəti, milli dəyərlərə sıx bağlılığı, fitri idarəçilik məharəti, zəngin mənəviyyatı ilə daim xalqının sevimli şəxsiyyəti olmuş ulu öndər bu zirvəyə həm də hakimiyyət sükanının arxasına keçdiyi ilk gündən qanunsuzluğa, ədalətsizliyə və özbaşınalığa qarşı apardığı prinsipial mübarizə ilə yüksəlmişdir. Hələ 1969-cu il iyulun 14-də Azərbaycanda rəhbərliyə başlayan Heydər Əliyev respublikada qanunçuluğun gücləndirilməsinə başlamış, məmur özbaşınalığına, korrupsiya və rüşvətxorluğa qarşı amansız mübarizə aparmışdır. Məhz bu mərhələdən etibarən respublikamızın həyatında geniş vüsət alan ictimai-siyasi proseslər və iqtisadi islahatlar müsbətə doğru radikal dəyişikliklərə təkan vermişdir.

Bu da təsadüfi deyildir ki, 1969-1982-ci illərdə ictimai həyatın ən müxtəlif sahələrində baş vermiş köklü dəyişikliklər öz miqyasına görə Azərbaycanın quruculuq salnaməsində ən dolğun səhifələri təşkil edir. Ümummilli liderin rəhbərliyi ilə həyata keçirilmiş kompleks tədbirlər nəticəsində bir sıra əsas göstəricilər üzrə geridə qalmış Azərbaycan qısa müddətdə keçmiş ittifaqın qabaqcıl respublikalarından birinə çevrilmiş, milli gəlir səviyyəsini əhəmiyyətli dərəcədə artıra bilmişdir. 1970-1982-ci illərdə Heydər Əliyevin təşəbbüsü və ciddi səyləri nəticəsində Azərbaycanda onlarla zavod, fabrik, istehsalat sahələri yaradılmış, 250-dən artıq sənaye müəssisəsi fəaliyyətə başlamışdır.

Bütün bunlar göstərir ki, respublikaya birinci rəhbərliyi dövründə ulu öndər Heydər Əliyev qeyri-neft sektorunun inkişafına xüsusi diqqət yetirmiş, bununla da respublika regionlarının tarazlı qaydada inkişaf etdirilməsinə, yeni iş yerlərinin açılmasına, əhalinin həyat şəraitinin yaxşılaşdırılmasına, demoqrafik inkişafa, kənd və qəsəbələrin sosial-mədəni simasının müasirləşməsinə dair strateji məqsədlərini ardıcıllıqla həyata keçirmişdir. Ulu öndər Heydər Əliyev o dövrün ən ağır şərtləri, məhdudiyyətləri çərçivəsində xalqının gələcək rifahı üçün əlindən gələni əsirgəməmiş, bəzən mümkün görünməyəni belə reallığa çevirmişdir.

1991-1993-cü illərin böhranlı, ağrılı-acılı, faciəli günlərini qəlbində vətən, millət sevgisi olan hər bir azərbaycanlı böyük təəssüf, dərin kədər hissi ilə xatırlayır. Belə çətin bir zamanda xalqın üzdə olan ziyalıları, sadə və zəhmətkeş insanları daxili inamlarına söykənərək respublikanı xaos və anarxiya mühitindən, parçalanma təhlükəsindən, sosial-iqtisadi tənəzzüldən, bir sözlə, böyük fəlakətlərdən qurtaracaq, onu möhkəm sabitlik, davamlı sosial-iqtisadi tərəqqi və yüksəliş yoluna çıxaracaq yeganə düzgün ünvanı göstərdilər. Cəmiyyətdə haqlı olaraq belə bir inam var idi ki, məhz ulu öndər Heydər Əliyev kimi müdrik strateq və siyasət ustadının rəhbərliyi altında formalaşan siyasi partiya xalqın ümidlərini doğrultmaq, respublikanı üzləşdiyi böyük faciələrdən hifz etmək iqtidarında ola bilər.

1993-cü ilin iyununda xalqın təkidli tələbi ilə Bakıya qayıdan ümummilli lider Heydər Əliyev yorulmaq bilmədən, qətiyyət və böyük bacarıqla Azərbaycanın başı üstünü almış vətəndaş müharibəsi alovunu söndürmüş, ölkədə baş alıb gedən qanunsuz silahlı dəstələr zərərsizləşdirilmişdir. İctimai-siyasi sabitliyin bərpasına, qanunçuluğun və hüquq qaydalarının möhkəmləndirilməsinə, cəbhə bölgəsində atəşkəs rejiminə nail olmuş, habelə demokratik inkişaf kursu ilə uzlaşan sosial-iqtisadi siyasət strategiyasını ortaya qoymuşdur.

Azərbaycan xalqı cəsarətli, düşünülmüş və məqsədyönlü, ümummilli mənafelərə xidmət edən addımların ölkə miqyasında da atılmasını arzu və tələb edirdi. Görkəmli dövlət xadimi Heydər Əliyev çoxmilyonlu Azərbaycan xalqının böyük ümidlərinin dalğasında yenidən hakimiyyətə gəlmiş və bununla da ölkəmizdə milli qurtuluş hərəkatının bünövrəsi qoyulmuşdur. Beləliklə, 15 iyun 1993-cü ildə müstəqil Azərbaycan dövlətinin tarixinə Milli Qurtuluş Günü kimi daxil olmuşdu.

Azərbaycan Respublikasının Prezidenti kimi Heydər Əliyev 3 oktyabr 1993-cü ildən başlayaraq ölkədə baş verən vətəndaş qarşıdurmasını dayandırmış və cəmiyyət həyatının bütün sahələrini əhatə edən islahatları uğurla həyata keçirməklə genişmiqyaslı böhranı qısa müddətdə aradan qaldırmışdı. Dünyanın aparıcı dövlətləri ilə imzalanan neft müqavilələri tarixə "Əsrin müqaviləsi" kimi daxil olmuşdu. Bakı-Tbilisi-Ceyhan neft kəmərinin, Bakı-Tbilisi-Ərzurum qaz boru xəttinin çəkilişinə verilən qərarlar Azərbaycan xalqının iqtisadi böhrandan xilas edilməsində əhəmiyyətli hadisələrə çevrilmişdir.

Qətiyyətlə demək olar ki, Heydər Əliyev müstəqillik dövründə Azərbaycan dövlətçilik təsisatlarının milli əsaslar üzərində yaradılmasının böyük memarı idi. Ümumxalq səsverməsi ilə 12 noyabr 1995-ci ildə qəbul edilmiş müstəqillik dövrünün Azərbaycan Konstitusiyası tarixə Heydər Əliyev Konstitusiyası kimi daxil olmuşdur. Azərbaycanda təcrübəli mütəxəssislər, ziyalı-siyasətçilər, tanınmış elm və mədəniyyət xadimləri əsasında milli parlamentarizmin formalaşdırılması da Heydər Əliyevin xidmətləri sırasında xüsusi yer tutur. Heydər Əliyevin siyasi iradəsi ilə ölkəmizdə ictimai-siyasi sabitliyin möhkəmləndirilməsi cəmiyyət həyatının inkişaf ritmlərinin ahəngdarlığının təmin edilməsində böyük rola malik hadisə idi. Beynəlxalq aləmdə Azərbaycan Respublikasının dünya ölkələri ilə normal əlaqələrinin qurulması, ölkənin xarici siyasət strategiyasının müəyyən olunması böyük dövlət xadiminin həm də mahir diplomatik bacarığının əməli ifadəsi idi.

Ulu öndər bir ictimai-iqtisadi formasiyadan digərinə keçid dövründə respublikanın qarşısında duran strateji vəzifə və hədəfləri düzgün müəyyənləşdirməklə, dünyanın qabaqcıl dövlətlərinin təcrübəsində sınaqdan uğurla çıxmış, müsbət nəticələri sübut olunmuş inkişaf kursunun Azərbaycan gerçəkliyinə adekvat modelini yaratmışdır. Ümummilli lider mərkəzi planlaşdırma və bölgü sistemindən sərbəst bazar münasibətlərinə əsaslanan iqtisadi modelə keçid prosesinin aztəminatlı təbəqənin maraqlarına toxunmaması üçün dövlət büdcəsində sosial müdafiə tədbirlərinə geniş yer ayrılmasını təmin etmişdir. Həmin dövrdə respublikanın məhdud maliyyə imkanları və zəif büdcəsi ilə qarşıya qoyulmuş strateji məqsədlərin yaxın gələcəkdə reallaşdırılmasının qeyri-mümkünlüyünü nəzərə alan, sosial-iqtisadi inkişaf prosesində xarici kapital və sərmayə amilinin təkanverici rolunu düzgün olaraq önə çəkən Heydər Əliyev xarici şirkətlərlə Xəzərin Azərbaycan sektorundakı zəngin neft ehtiyatlarının mənimsənilməsini nəzərdə tutan müqavilələrin imzalanmasına da vacib məsələ kimi yanaşmışdır. İqtisadi inkişafın sürətləndirilməsinin, səmərəli sosial-iqtisadi islahatlar aparılmasının, investisiya layihələrinin həyata keçirilməsinin ümdə şərti kimi müstəqil Azərbaycanın yeni neft strategiyası işlənib hazırlanmış, 1994-cü ildən etibarən mərhələlərlə həyata keçirilmişdir.

Ulu öndər Azərbaycanın beynəlxalq təsərrüfat sisteminə uğurlu inteqrasiyasını təmin etmək üçün ölkənin tranzit-kommunikasiya imkanlarından səmərəli istifadəni də vacib saymışdır. Cənubi Qafqaz xalqlarının iqtisadi və mədəni inteqrasiyasında maraqlı olan Heydər Əliyev Avropa-Qafqaz-Asiya (TRASEKA) nəqliyyat dəhlizi kimi qlobal əhəmiyyətli beynəlxalq layihənin gerçəkləşməsi təşəbbüsünü irəli sürmüş, beləliklə, Azərbaycanın perspektivdə strateji əhəmiyyətli tranzit məkana çevrilməsinə nail olmuşdur. TRASEKA layihəsi üzrə ən mühüm tədbir - beynəlxalq konfrans ulu öndər Heydər Əliyevin diplomatik səyləri ilə 1998-ci ilin sentyabrında Bakıda keçirilmişdir. Konfransın yekun sənədi olaraq "Avropa-Qafqaz-Asiya nəqliyyat-kommunikasiya dəhlizinin inkişafına dair çoxtərəfli saziş" adlanan mühüm sənəd imzalanmışdır.

Ulu öndər Heydər Əliyev yaxşı bilirdi ki, bazar mexanizminin hərəkətverici qüvvəsi sayılan sahibkarlığın inkişafı keçid iqtisadiyyatlı ölkələrin sosial-iqtisadi sisteminin yenidən qurulmasında, hökumətin qarşıya qoyduğu strateji məqsədlərin uğurla reallaşdırılmasında mühüm rol oynayır. 1995-ci ildən etibarən respublikada sahibkarlığın inkişafı üçün zəruri maliyyə təminatı, süni maneələrin aradan qaldırılması üçün mükəmməl qanunvericilik bazası formalaşdırılmış, fəaliyyətin bu növü ilə məşğul olanların hərtərəfli stimullaşdırılması məsələləri daim diqqət mərkəzində saxlanılmışdır. Ümummilli lider Heydər Əliyevin sərəncamı ilə 1997-ci ildə qüvvəyə minmiş "Azərbaycan Respublikasında kiçik və orta sahibkarlığın inkişafı (1997-2000-ci illər) Dövlət Proqramı" əhəmiyyətinə, aktuallığına və miqyasına görə milli sahibkarlığın inkişafında yeni mərhələnin başlanğıcı olmuş, bu sahədə dövlət siyasətinin başlıca prinsiplərini müəyyənləşdirmişdir.

Ulu öndər Heydər Əliyev daim iş adamlarının mənəvi hamisi kimi çıxış edərək bu təbəqənin milli iqtisadiyyatın lokomotiv qüvvəsinə çevrilməsinə çalışmış, mövcud problemlərin aşkarlanması məqsədilə dövlət-sahibkar dialoqunun genişləndirilməsində maraqlı olmuşdur. 2002-ci ilin 10 və 25 aprel tarixlərində yerli və xarici sahibkarlarla görüşən Heydər Əliyev onları üzləşdiyi problemlər barədə açıq danışmağa dəvət etmiş, yaxından dinləmiş, mövcud problemlərin aradan qaldırılması üçün aidiyyəti dövlət qurumlarına zəruri tapşırıq və tövsiyələrini vermişdir. Həmin görüşlərin nəticəsi olaraq imzalanmış bir sıra vacib fərmanlar sahibkarlığın dəstəklənməsi və ölkədə investisiya mühitinin daha da təkmilləşdirilməsi baxımından keyfiyyətcə yeni mərhələnin təməlini qoymuşdur.

Ümummilli lider Heydər Əliyevin 17 avqust 2002-ci il tarixli fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında kiçik və orta sahibkarlığın inkişafı (2002-2005-ci illər) Dövlət Proqramı" özəl sektorun inkişafını stimullaşdıran tədbirlərin davamı kimi mühüm əhəmiyyət kəsb etmiş, dövrün bir sıra reallıqları ilə şərtlənmişdir.

Sahibkarlığa dövlət maliyyə dəstəyinin hüquqi əsaslarının formalaşdırılması üçün ulu öndər Heydər Əliyevin 27 avqust 2002-ci il tarixli fərmanı ilə Sahibkarlığa Kömək Milli Fondunun Əsasnaməsi təsdiqlənmiş, strukturu formalaşdırılmışdır. Fondun vəzifəsi ölkədə sahibkarlığın inkişafına maliyyə dəstəyi vermək, onlara müvəkkil banklar vasitəsilə güzəştli kreditlərin verilməsini təmin etmək, bir sözlə, iş adamlarının səmərəli biznes layihələrinin reallaşmasına yardımçı olmaqdır.

Bütövlükdə Azərbaycan Respublikası ulu öndər, görkəmli dövlət xadimi, Milli Qurtuluşun banisi, böyük xilaskarlıq missiyasını bacarıqla həyata keçirmiş Heydər Əliyevin müstəqillik və milli dövlətçilik ideyalarını dünyada gedən proseslərə, ölkənin reallıqlarına uyğun şəkildə yaradıcılıqla inkişaf etdirərək hazırda böyük sabahlara doğru qətiyyətlə addımlayır. Milli Qurtuluşdan başlanan yollar böyüyür, genişlənir və sürətlə inkişaf edir. Milli Qurtuluş - milli dirçəlişin, azərbaycançılıq məfkurəsinin möhkəm və etibarlı bünövrəsi kimi böyük gələcəyə yol açır. Bu mənada Milli Qurtuluş - müstəqil Azərbaycanın milli oyanışının doğan günəşidir. İnkişaf etmiş müstəqil Azərbaycan Milli Qurtuluşun parlaq nümunəsidir.

Azərbaycanın mütərəqqi inkişaf strategiyasını irəli sürmüş Heydər Əliyev dühası, onun ölməz ideyaları xalqın uğurlu inkişaf yoluna parlaq işıq saçır, hər bir azərbaycanlını vahid məram və məqsədlər ətrafında toplayır. Həm də onunla qürur duyuruq ki, ümummilli liderin Azərbaycan Prezidenti cənab İlham Əliyev kimi xalqının, dövlətinin maraqlarını uca tutan, hər bir vətəndaşın mənafeyini nəzərə alan, bunları əməli fəaliyyəti ilə doğruldan layiqli siyasi davamçısı var. Ölkəyə rəhbərlik etdiyi 15 ilə yaxın müddətdə qəbul etdiyi fundamental qərarlar, imzaladığı sərəncamlar cənab İlham Əliyevin daim xalqın mənafeyindən çıxış etdiyini, onun ictimai rəydə alternativsiz rəhbər kimi qəbul edilməsini şərtləndirmişdir.

**Əlixan ƏLİ-ZADƏ,**
**"AZ Logistika & Management Services"**
**MMC-nin direktoru.**

15 iyun Milli Qurtuluş Günüdür

# Azərbaycanın nicat günü



**Həyatda elə əlamətdar günlər, hadisələr var ki, ölkənin, milyonlarla insanın taleyində, müqəddəratında həlledici rol oynayıb, tək-tək fərdlərin deyil, bütöv bir xalqın yaddaşına əbədi həkk olur, tarixinə qızıl hərflərlə yazılır. Azərbaycan üçün 1993-cü il iyunun 15-i məhz belə tarixlərdəndir. Bəli, həmin gün ümummilli liderimiz Heydər Əliyevin ikinci dəfə respublika rəhbərliyinə qayıdışı, dövlətimizin xilas anının başlanğıcı - Milli Qurtuluş Günüdür.**

Düz 25 il bundan öncə, yəni 1993-cü ilin iyun ayının əvvəlində ölkəmizdə cərəyan edən hadisələr hər birimizin yadındadır. Həmin vaxt Azərbaycan dövlətçiliyi və müstəqilliyi görünməmiş təhlükə qarşısında idi. Baş vermiş qarışıqlıqdan xarici və daxili qüvvələr hər vasitə ilə istifadə etməyə fürsət gözləyirdilər. Hakimiyyət dairələri çaşqınlıq içərisindəydi, ölkə başlı-başına qalmışdı. Surət Hüseynov silahlı qüvvələri ilə Azərbaycanın paytaxtına yaxınlaşırdı. O, respublikanın bir neçə rayon və şəhərlərində yüksək vəzifələrə öz nümayəndələrini yerləşdirirdi. Günlər ötdükcə təhlükə artırdı. Belə təhlükəli vaxtda xalqın təkidli tələbi ilə Heydər Əliyev bir daha Vətəninə, millətinə olan məhəbbətini nümayiş etdirib iyunun 9-da Bakıya gəldi. "Mən Azərbaycanın müstəqilliyini Azərbaycan xalqı üçün böyük nailiyyət hesab etmişəm və bu müstəqilliyin əldə olunmasına xidmət etmişəm. Bundan sonra ömrümün qalan hissəsini də Azərbaycanın müstəqilliyinin möhkəmlənməsinə və inkişaf etməsinə sərf edəcəyəm. Buna heç kimin şübhəsi olmasın. İkincisi, mən heç bir vəchlə bir daha Azərbaycanın başqa bir dövlətin tərkibinə daxil olmasına öz imkanlarım qarşısında yol verməyəcəyəm..." Heydər Əliyev iyunun 15-də Ali Sovetin sədri seçildikdən sonra Milli Məclisdə söylədiyi bu sözlərin hamısını reallaşdırdı, yerinə yetirdi. Ölkəni əvvəlcə Surət hüseynovlardan, Əlikram hümbətovlardan və digər quldur, separatçı qüvvələrdən təmizlədi, sonra isə müstəqil dövlət quruculuğuna başladı.

Bəli, məhz bu fəaliyyətin hesabına Azərbaycan yaşayır, tərəqqi edir və bu gün hər birimizə onun nəticələri bəllidir. Hazırda vətənimiz öz iqtisadi inkişafına və göstəricilərinə görə MDB ölkələri arasında ilk yerlərdən birini tutur və xalqımızın rifahı qabaqcıl dövlətlər ilə müqayisə olunur.

Azərbaycanda milli dövlətçilik ənənələrinin bərpası və qorunub saxlanması, müstəqilliyimizin möhkəmləndirilməsi, ölkədə demokratik prinsiplərə əsaslanan hüquqi islahatların aparılması, respublikamızın bazar iqtisadiyyatı ilə irəliləməsi, diplomatik uğurlar məhz Heydər Əliyev kimi böyük şəxsiyyətin, müdrik siyasətçinin misilsiz xidmətləri sayəsində mümkün olmuşdur.

Ulu öndərimizin yenidən hakimiyyətə qayıdışı Azərbaycan iqtisadiyyatının dirçəlməsinə, sənaye müəssisələrinin bərpasına, yeni istehsalat sahələrinin formalaşmasına, özəl sektorun inkişafına güclü təkan vermişdir. Ölkəmizdə ictimai-siyasi sabitliyin bərqərar olması və həyata keçirilən islahatlar xarici investorların respublikamızda fəaliyyət göstərmələrinə də əlverişli şərait yaratmışdır.

1993-cü ildən başlayaraq Azərbaycan özünün sağlam bazar iqtisadiyyatı prinsiplərinə uyğun milli iqtisadiyyatını qurmağa başladı. Bu iyirmi iki il ərzində Azərbaycan özünün təbii ehtiyatlarına, insan potensialına və digər şərtlərə əsaslanan milli iqtisadiyyatını formalaşdırdı. Məhz Heydər Əliyev uzaqgörənliyinin nəticəsidir ki, bazar münasibətlərinin prinsipləri üzərində qurulmuş Azərbaycan milli iqtisadiyyatının dünya iqtisadi sisteminə inteqrasiyası təmin edilmişdir.

1994-cü il neft sazişindən sonra Azərbaycan beynəlxalq iqtisadi əlaqələrini etibarlı şəkildə qurmaqla dünyada özünün iqtisadi və siyasi dayaqlarını müəyyənləşdirdi. Fərəh hissi ilə deyə bilərik ki, artıq Azərbaycan öz neft strategiyasını uğurla həyata keçirir, bu strategiya ölkəmizin çiçəklənməsinə və tərəqqisinə, əhalinin rifah halının yaxşılaşdırılmasına, sosial məsələlərin həllinə yönəlib.

Həyata keçirilən iqtisadi islahatların məntiqi nəticəsi olaraq bank, maliyyə, vergi, gömrük sistemləri tamamilə yenidən qurulmuş, iqtisadiyyatın idarə edilməsində dövlətin rolunun əhəmiyyətli dərəcədə artırılması üçün mühüm addımlar atılmışdır. Dövlət əmlakının özəlləşdirilməsi məqsədilə proqramlar qəbul edilmişdir. Elə bu cür məqsədyönlü tədbirlər hesabına Azərbaycan iqtisadiyyatı yüksəliş yolunda bu gün də inamla irəliləyir.

Müstəqillikdən sonra xalqımızın əldə etdiyi böyük nailiyyətlərdən biri də 1995-ci ildə referendum yolu ilə qəbul olunan ilk Milli Konstitusiyamızdır. Müasir Azərbaycan dövlətinin memarı Heydər Əliyevin şəxsi rəhbərliyi altında hazırlanmış ölkəmizin Baş Qanunu beynəlxalq standartlara cavab verən mütərəqqi bir Konstitusiyadır. Azərbaycan müstəqillik qazandıqdan sonra həyatımızın bütün sahələrində olduğu kimi, hüquq sahəsində də islahatların həyata keçirilməsi, tamamilə yeni hüquq və məhkəmə sisteminin formalaşması, daha mütərəqqi və demokratik dəyərlərə əsaslanan qanunvericilik bazasının yaradılması günün tələbinə uyğun meydana çıxdı. Ancaq müstəqilliyimizin ilk dövründə Azərbaycana rəhbərlik edənlərin səriştəsizliyi üzündən ölkədə heç bir islahat aparılmadı, sovet dövründən miras qalmış Konstitusiya saxlanıldı. Bu istiqamətdə də sistemli işlərə 1993-cü ildə ümummilli lider Heydər Əliyev respublika rəhbərliyinə yenidən qayıtdıqdan sonra başlanmışdır.

Müstəqil dövlətin həyatında Konstitusiyanın oynadığı rolu yüksək qiymətləndirən Heydər Əliyev səlahiyyətli tərkibdə Konstitusiya Komissiyası yaratdı və layihə ulu öndərin rəhbərliyi ilə geniş ictimaiyyətin müzakirəsinə verildi. 12 noyabr 1995-ci ildə Azərbaycanda çoxpartiyalı əsaslarla parlament seçkiləri keçirildi və eyni vaxtda referendum yolu ilə müstəqil Azərbaycanın Əsas Qanunu - Konstitusiyası qəbul olundu. Əsas Qanunda Azərbaycan dövlətinin müstəqilliyinin, suverenliyinin və ərazi bütövlüyünün qorunması; Konstitusiya çərçivəsində demokratik quruluşa təminat verilməsi; vətəndaş cəmiyyətinin qurulması; xalqın iradəsinin ifadəsi kimi qanunların aliliyini təmin edən dünyəvi-hüquqi dövlətin bərqərar olunması, ədalətli sosial nizamın yaradılması və ən əsası, hakimiyyətin üç müstəqil qola - qanunvericilik, icra və məhkəmə hakimiyyətinə bölünməsi öz əksini tapmışdır. Konstitusiyada ölkəmizdə hüquqi dövlət quruculuğu sahəsində gələcək inkişaf yolları müəyyən edilmiş, hakimiyyət bölgüsü dəqiq ifadəsini tapmış, Azərbaycan dövləti insan hüquqları və azadlıqlarının müdafiəsini özünün ali məqsədi olduğunu bütün dünyaya bəyan etmişdir. Ölkənin Əsas Qanunu qəbul edildikdən sonra hüquqi islahatların həyata keçirilməsi zəruri məsələyə çevrilmişdir ki, xalqımızın ümummilli lideri Heydər Əliyev də bütün bu məsələləri uğurla reallaşdırdı. Qəbul edilmiş bu Konstitusiya köklü məhkəmə-hüquq islahatlarının aparılmasının da əsasını qoydu.

Hüquq islahatlarının həyata keçirilməsi, demokratik təsisatların və qanunun aliliyi prinsipinin möhkəmləndirilməsi məqsədilə 1996-cı ildə Prezident Heydər Əliyevin sərəncamı ilə Hüquq İslahat Komissiyası, 1998-ci ildə isə dövlət idarəetmə sistemində islahatlar aparılması üzrə Dövlət Komissiyası yaradıldı. Hüquq İslahat Komissiyası tərəfindən hazırlanmış və 1997-ci ildə Milli Məclis tərəfindən qəbul olunmuş "Məhkəmə və hakimlər haqqında" Azərbaycan Respublikası Qanunu ölkəmizdə məhkəmə-hüquq islahatları sahəsində atılan ilk, lakin çox vacib addım olmaqla hakimiyyətin üç müstəqil qolundan biri olan məhkəmə hakimiyyətinin müstəqil, yalnız qanun çərçivəsində fəaliyyət göstərməsinə imkan yaratdı. Hüquq İslahat Komissiyası tərəfindən hazırlanmış vacib qanunlardan biri də Azərbaycan Konstitusiyasının aliliyini təmin edilməsinə yönəlmiş "Konstitusiya Məhkəməsi haqqında" qanunun qəbul edilməsi oldu. Konstitusiya Məhkəməsinin təşkil olunması isə hüquqi-demokratik dövlət qurmaq amalı ilə yaşayan Azərbaycan xalqının müasir tarixində mühüm bir hadisə sayılmalıdır. Komissiya tərəfindən hazırlanmış "Vəkillər və vəkillik fəaliyyəti haqqında", "Prokurorluq haqqında", "Polis haqqında", "Notariat haqqında" və sairə qanunların qəbulu xüsusi əhəmiyyətə malikdir.

Ölkəmiz 1996-1997-ci illərdə insan hüquq və azadlıqlarının, demokratik təsisatların təminatı ilə bağlı bir sıra beynəlxalq konvensiyalara, sazişlərə qoşulmuşdur. Azərbaycan Respublikasının insan hüquqlarının qorunması sahəsində əldə etdiyi ən mühüm nailiyyətlərdən biri BMT və Azərbaycan hökuməti arasında 1998-ci ilin avqustunda imzalanmış "insan hüquqları və demokratiyanın dəstəklənməsi sahəsində birgə layihə haqqında" memorandumudur. 1998-ci ilin 22 fevralında ümummilli liderimiz Heydər Əliyev tərəfindən qanunvericilikdə insan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsi sahəsində həyata keçirilən tədbirlərin istiqaməti və konsepsiyası dəqiq müəyyən edilmiş, insan hüquqları məsələsi ümumdövlət səviyyəsinə qaldırılmışdır. 1998-ci il 18 iyul tarixində Azərbaycan Prezidentinin fərmanı ilə "İnsan hüquqlarının müdafiəsinə dair Dövlət Proqramı" təsdiq olunmuşdur.

"Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikası Qanunun tətbiq edilməsi və "məhkəmə islahatlarının həyata keçirilməsinə dair tədbirlər barədə" 1 dekabr 1998-ci il tarixli Azərbaycan Respublikası Prezidentinin fərmanı ilə məhkəmələrin təşkil edilməsi, hakim vəzifələrinə namizədlərin seçilməsi, habelə məhkəmələr və hakimlərlə bağlı digər məsələləri səlahiyyətləri dairəsində həyata keçirən məşvərətçi orqan kimi Məhkəmə-Hüquq Şurası yaradılmış və ölkə tarixində ilk dəfə olaraq hakim vəzifəsinə namizədin peşə hazırlığını, bilik səviyyəsini, hakim vəzifəsinə layiq olduğunu müəyyən etmək məqsədilə test üsulu ilə imtahan və müsahibə aparılması yolu ilə təyin edilməsi qərara alınmışdır. Təcrübədə sınanmış bu qaydaların nə dərəcədə effektiv olması özünü sübut etdi və 2000-ci ildə keçirilmiş test imtahanları zamanı hakim korpusunun 60 faizə qədəri təzələnmişdir. Təkcə bu fakt seçkinin ədalətli, şəffaf, demokratik prinsiplərə uyğun keçirildiyinə əmin olmaq üçün kifayətdir.

Ölkəmizdə ölüm cəzası 1998-ci il fevralın 10-da ləğv edilmiş, Azərbaycan bütövlükdə Şərqdə bu qətiyyətli və tarixi qərarı verən ilk dövlət olmuşdur. Yüksək humanizm və insanpərvərlik örnəyinin bariz ifadəsinə çevrilən bu addım Azərbaycanın beynəlxalq nüfuzunu artırmış, 2001-ci il yanvarın 25-də müstəqil respublikamız Avropa Şurası kimi mötəbər bir təşkilata tamhüquqlu üzv qəbul edilmişdir. Təşkilatla səmərəli əməkdaşlıq Azərbaycanın qanunvericiliyinin Avropa standartlarına uyğun təkmilləşdirilməsinə, mütərəqqi məhkəmə-hüquq islahatlarının aparılmasına ciddi təkan vermişdir.

Ümummilli liderimiz Heydər Əliyev hər zaman dövlət və milli maraqları əsas tutaraq düşünülmüş, çevik xarici siyasət aparmışdır. Azərbaycanda milli mənafelərə əsaslanmaqla həyata keçirilmiş xarici siyasət kursunun prioritet istiqaməti müstəqil və güclü dövlət modelinin praktik surətdə reallaşdırılmasına yönəlmiş, respublikamız beynəlxalq normalara istinad edərək sivil dünyanın hüquqi-siyasi atmosferini müəyyənləşdirən aparıcı dövlətlər və beynəlxalq təşkilatlarla münasibətlərini yüksək dinamizmlə inkişaf etdirmək xəttinə üstünlük vermişdir. Ulu öndər Heydər Əliyevin möhkəm təməllər üzərində əsasını qoyduğu balanslaşdırılmış xarici siyasət uzaq hədəflərə hesablanmış strateji fəaliyyət konsepsiyası olmaqla, müstəqil Azərbaycanın beynəlxalq arenada nüfuz və mövqelərinin güclənməsinə, ümummilli problemlərin həllinə yönəlmişdir.

Ümummilli liderimiz Heydər Əliyevin müəyyənləşdirdiyi strateji inkişaf kursunun uğurları müstəqil Azərbaycan dövlətçilik tarixində yeni mərhələnin əsasını qoymuşdur. Hazırda Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin böyük əzm və qətiyyətlə davam etdirdiyi bu sosial-iqtisadi siyasət strategiyası gündəlik həyatımızda yeni-yeni nailiyyətlərə yol açır. Cənab İlham Əliyev qısa dövr ərzində imzaladığı məqsədyönlü fərman və sərəncamlarla, qəbul etdiyi praqmatik qərarlarla, habelə reallığa söykənən adekvat addımları ilə ölkəmizin dinamik yüksəlişini təmin etmiş, yeni dövrün tələbi kimi qarşıda duran prioritet vəzifələri düzgün müəyyənləşdirmiş, həyata keçirdiyi islahatlarla inkişaf mexanizminin daha da çevikliyinə, işləkliyinə nail olmuşdur. Bunun nəticəsi kimi müstəqil Azərbaycan iqtisadi cəhətdən günbəgün möhkəmlənir, qüdrətlənir, sosial-iqtisadi yüksəliş ilk növbədə insanların gündəlik həyatında özünü qabarıq büruzə verir.

Bəli, bu gün Azərbaycan sürətlə inkişaf edir, qüdrətli dövlətə çevrilir. Bunlarsa ulu öndər Heydər Əliyevin dövlət quruculuğunda seçdiyi düzgün strategiyanın və bu strategiyanın hazırda ölkə Prezidenti İlham Əliyev tərəfindən müvəffəqiyyətlə davam etdirilməsi hesabına mümkün olub.

Mən fürsətdən istifadə edib 1993-cü ilin iyununda, o müdhiş günlərdə Azərbaycanı məhv olmaqdan, bölünməkdən qurtardığı və bizlərə bugünkü sabit, gözəl həyat ilə gələcəyə inamlı nicat verdiyi üçün ulu öndərimizin ruhu qarşısında baş əyib, dərin minnətdarlığımı bildirirəm. Xalqımızı isə Milli Qurtuluş Günü münasibətilə təbrik edir və Prezidentimiz cənab İlham Əliyev ətrafında daha da sıx birləşməyi arzulayıram.

**Telman QULİYEV,**
**Sumqayıt Apellyasiya Məhkəməsinin hakimi.**

# Xalqa və dövlətçiliyə xidmət missiyası

## *Ulu öndərin hakimiyyətə qayıdışı əbədi müstəqilliyimizi təmin etdi*

Zəngin dövlətçilik ənənələrinə malik Azərbaycan dövlətinin tarixinə Milli Qurtuluş Günü kimi daxil olmuş 15 iyun sadəcə təqvim bayramı deyil, böyük ictimai, siyasi və tarixi əhəmiyyətə malik bir gündür. Xalqın təkidli tələbi ilə ümummilli liderimiz Heydər Əliyevin 1993-cü il iyunun 15-dən yenidən hakimiyyətə qayıtması Azərbaycanın çoxəsrlik tarixinə taleyüklü möhtəşəm siyasi hadisə kimi daxil oldu.

İyirmi beş il bundan əvvəl ölkəmizdə cərəyan edən mürəkkəb və təhlükəli hadisələr daim xatırlanacaq, onun təhlili aparılacaq, ulu öndərin əvəzsiz xidmətləri minnətdarlıqla anılacaqdır. 1991-ci ildə Azərbaycan XX əsrdə ikinci dəfə öz dövlət müstəqilliyini elan etdi. Təəssüf ki, müstəqilliyin ilk illərində dövlətin idarəçilik sükanı arxasında xalqın qüvvələrini bir yerə cəmləşdirə biləcək qüdrətli bir lider yox idi. Həmin dövrdə Azərbaycan ərazilərinin davamlı işğalı, getdikcə gərginləşən siyasi vəziyyət, əhalinin günbəgün ağırlaşan sosial durumu ölkəni bu bəlalardan xilas edə biləcək, xalqı öz arxasınca aparmağa qadir liderə ehtiyac olduğunu şərtləndirirdi. Cəmiyyətin bütün təbəqələri əmin idi ki, yenicə müstəqillik qazanmış ölkəni düşmüş olduğu ağır və dözülməz vəziyyətdən çıxarmağa qadir yeganə şəxsiyyət müdrik dövlət xadimi Heydər Əliyevdir. 1993-cü ilin ortalarına doğru hakimiyyət böhranı getdikcə daha da dərinləşir, Azərbaycanın dövlət müstəqilliyi üçün olduqca ciddi təhlükə yaranırdı. Ümummilli liderimiz dövlət müstəqilliyimizin bu mərhələsini belə xarakterizə edirdi: "Azərbaycan böyük təhlükə qarşısında idi. Çünki, Azərbaycanın müstəqil yaşamasının əleyhinə olan həm daxildəki qüvvələr güclü idi, həm də Azərbaycan kimi böyük coğrafi-strateji əhəmiyyətə, zəngin təbii sərvətlərə malik olan ölkənin tam müstəqil olması başqa ölkələrdə bəzi dairələri qane etmirdi".

1993-cü ildə xalqın xahişi və tələbi ilə ümummilli liderimiz Heydər Əliyevin yenidən hakimiyyətə qayıdışından sonra ölkədə baş vermiş sosial-iqtisadi və siyasi inkişaf dövlətimizin möhkəmləndirilməsində, sivil dünyaya sıx inteqrasiya prosesinə qoşulmasında və xalqımızın strateji mənafelərini təmin edən modern cəmiyyətin qurulmasında həlledici rol oynamışdır. 1993-cü ildə "olum və ya ölüm" dilemması qarşısında qalmış müstəqil Azərbaycan ulu öndər Heydər Əliyevin gərgin, yorulmaz fəaliyyəti nəticəsində gələcəyə inamla baxan qüdrətli bir dövlətə çevrilmişdir. Ölkənin ali qanunvericilik orqanı xalqın ən müxtəlif təbəqələrinin arzu və istəklərini nəzərə alaraq ulu öndər Heydər Əliyevin yenidən hakimiyyətə qayıtdığı 15 iyun gününü əbədiləşdirmişdir. 15 İyun-Qurtuluş Günü Azərbaycan Milli Məclisinin qərarı ilə 1997-ci ilin 27 iyununda rəsmiləşdirildi. Milli Məclisin həmin qərarında deyilir: "Azərbaycan xalqının azadlığının, müstəqil dövlətçiliyinin müqəddəratının həll edildiyi ən ağır günlərdə Heydər Əliyevin öz xalqının iradəsinə tabe olaraq ölkə rəhbərliyinə qayıtması, əslində, onun Müstəqil Azərbaycan Respublikasını, Azərbaycan xalqını, milli azadlıq hərəkatında qazanılmış tarixi nailiyyətləri məhv olmaqdan xilas etmək kimi çox çətin və şərəfli bir missiyanı könüllü olaraq öz üzərinə götürməsi idi. Bu, sözün əsl mənasında, "ömrümün qalan hissəsini də xalqıma qurban verirəm" deyib meydana atılan böyük ürəkli Vətən oğlunun öz xalqı, öz Vətəni qarşısında misilsiz fədakarlığı idi". Həmin vaxtdan bu günə kimi Azərbaycan xalqı 15 İyun gününü əziz bayram olaraq qeyd edir və Azərbaycan dövlətinin qurtuluşunun başlanğıcı kimi dəyərləndirir. Ötən illərdə ümummilli liderimizin həyata keçirdiyi şərəfli xilaskarlıq missiyası xalqımızın və bütün dünyanın gözü qarşısında baş vermiş, Azərbaycan məhv olmaq təhlükəsindən qurtularaq gələcəyə inamla baxan güclü bir dövlətə çüvrilmişdir. Bu illərdə Heydər Əliyevin gərgin zəhmət, əzm və siyasi iradə sayəsində reallaşdırdığı nəhəng işlər öz miqyasına görə insanı heyrətə gətirir. Azərbaycançılıq, müstəqillik, dövlətçilik amalları naminə milli həmrəylik yaradılması istiqamətində ardıcıl addımlar atılmışdır. Heydər Əliyevin siyasi xadim kimi yürütdüyü siyasətin başlıca qayəsi Azərbaycanın hər bir vətəndaşının təhlükəsizliyini qoruya biləcək qədər qüdrətli dövlətə çevirmək olmuşdur. Bu gün Azərbaycan Prezidenti cənab İlham Əliyev ümummilli liderimizin siyasətinə sadiq qalaraq müstəqil ölkəmizi inamla gələcəyə doğru aparır. Artıq neçə illərdir ki, Azərbaycan Respublikasının Milli Qurtuluş yolu uğurla davam edir. Bu yol Heydər Əliyevin müəyyənləşdirdiyi yoldur. Bu yolla gedən Azərbaycan durmadan yüksəlir, inkişaf edir, uğurlar qazanır. Ulu öndər özü vaxt ilə demişdir: "Heç bir qüvvə Azərbaycanın müstəqilliyini əlindən ala bilməz. Bundan sonra heç bir qüvvə Azərbaycan dövlətçiliyini məhv edə bilməz". Bu inam, bu qətiyyət Milli Qurtuluş Gününün mənası və verdiyi ibrət dərsidir.

Ümummilli liderimizin ölkə rəhbərliyinə qayıdış ilə başlıca qayəsini müstəqillik, azərbaycançılıq, dövlətçilik, ədalətlilik, demokratiya, milli tərəqqi, dünyəvilik kimi ümumbəşəri dəyərlər təşkil edən yeni bir ideologiyanın əsası qoyulmuşdur. Heydər Əliyevin apardığı daxili siyasət hər bir vətəndaşa azad, sərbəst yaşamaq hüquqlarını təmin etmək və öz rifahını yaxşılaşdırmaq imkanları yaratmaqdan ibarət olub. Onun fəaliyyətində iqtisadi islahatlar, bazar iqtisadiyyatının bərqərar olması, iqtisadi inkişafın təmin edilməsi Azərbaycanın dünya iqtisadiyyatına inteqrasiyası özəlləşdirmə proqramının, aqrar islahatların həyata keçirilməsi ardıcıl prioritet sahələr olub. Ulu öndər demokratik, hüquqi dövlət quruculuğu istiqamətində davamlı siyasət yeridərək, ölkədə insan hüquq və azadlıqlarının bərqərar olması üçün əsaslı zəmin yaradıb. Azərbaycan dövlətinin xarici siyasəti dünyanın aparıcı dövlətləri və beynəlxalq təşkilatları ilə əlaqələrin milli maraqlara və uzaqgörən siyasi perspektivlərə əsaslanan xətlə inkişaf etməyə başlayıb. Onun xarici siyasət məsələlərinə müstəsna əhəmiyyət verməsi, beynəlxalq miqyasda etiraf olunan uğurlu və cəsarətli addımlar atması milli məqsədlər naminə ən nüfuzlu tribunalardan bacarıq və məharətlə istifadə etməsi Azərbaycan dövlətçiliyinin bu günü və gələcəyi baxımından son dərəcə əhəmiyyətli olub. Fəal diplomatiya sayəsində Azərbaycan dünyanın demokratik dövlətlərinin və nüfuzlu ictimai qurumlarının ölkəmizə, onun zorla cəlb olunduğu silahlı münaqişəyə münasibətlərin əsaslı surətdə dəyişməsinə nail olub. Onun xarici siyasətinin əsasını sülh, beynəlxalq hüquq normalarına, sərhədlərin bütövlüyünə və toxunulmazlığına, dövlətin ərazi bütövlüyünə hörmət və qarşılıqlı surətdə faydalı əməkdaşlıq prinsipləri təşkil edib. Onun dünya təcrübəsinin bütün nailiyyətlərini, sivil beynəlxalq normaları özündə ehtiva edən sülhsevər xarici siyasətinin əsasında isə, ilk növbədə, milli müstəqilliyin möhkəmləndirilməsi, dövlətlərin hüquqlarına hörmətlə yanaşılması, bütün mübahisəli məsələlərin sülh və danışıqlar yolu ilə həll edilməsi, qarşılıqlı faydalı iqtisadi, elmi və mədəni əməkdaşlıq qurulması, dövlətlər arasında əlaqələrə mane olan hər bir məhdudiyyətin aradan qaldırılması prinsipləri dayanırdı.

Türkdilli ölkələr arasında iqtisadi, siyasi, ədəbi-mədəni əlaqələrin genişləndirilməsi və möhkəmləndirilməsi istiqamətində səmərəli fəaliyyət göstərib. Heydər Əliyev Azərbaycanın təbii sərvətlərindən, əlverişli coğrafi-strateji mövqeyinin üstünlüklərindən ölkənin milli maraqlarına uyğun istifadə edilməsinə yönəldilmiş irimiqyaslı beynəlxalq iqtisadi sazişlərin işlənib hazırlanması və həyata keçirilməsi sahəsində son dərəcə gərgin və səmərəli fəaliyyət göstərib. Onun böyük siyasi iradəsi və müdrik uzaqgörənliyi sayəsində mühüm əhəmiyyətli beynəlxalq müqavilələrə imza atılmışdır. Heydər Əliyevin təşəbbüsü ilə böyük siyasi məna kəsb edən bir sıra dünya miqyaslı, qlobal layihələrin həyata keçirilməsində Azərbaycan aparıcı rol oynayıb. Böyük coğrafi məkanda region qüvvələrinin birləşməsində də Heydər Əliyevin danılmaz xidmətləri olub.

Tarixin amansız və sərt sınaqlarında dünyanın ayrı-ayrı ölkələrinə səpələnmiş azərbaycanlıların birlik və həmrəyliyinə nail olunmasında da ulu öndərin müstəsna xidmətləri xüsusi qeyd edilməlidir. O dünya azərbaycanlılarının təşkilatlanması və onların bir Vətən - müstəqil Azərbaycan ətrafında sıx birləşməsi üçün böyük işlər görülmüşdür. Heydər Əliyevin siyasi, iqtisadi, ictimai və mədəni həyatın bütün sahələrində reallaşdırdığı ideyalar artıq Azərbaycanın gerçəkliyinə çevrilmişdir. Onun fəaliyyəti də, şəxsiyyəti də Azərbaycan tarixinin ayrılmaz bir hissəsini təşkil edir. Hər bir azərbaycanlının taleyində Heydər Əliyev dühasının bir zərrəsi var.

Ümummilli liderimiz Heydər Əliyev milli mədəniyyət və təhsilin hamisi idi. Ulu öndər vaxtilə demişdir: "Bizim məqsədimiz müstəqil Azərbaycan üçün daha bilikli, daha zəkalı gənclər hazırlamaqdır". Bu qiymətli kəlam hazırda bütün cəmiyyətimiz üçün həyati əhəmiyyət kəsb edir. Bu məqsəd uğrunda çalışmaq isə mövqeyindən, vəzifəsindən asılı olmayaraq, hamımızın müqəddəs işidir.

Ulu öndərin ideyaları tariximizdə elə izlər qoymuşdur ki, yüz illər bundan sonra da xalqımız bu yolla gedəcək, dövlətimiz irəliyə doğru iri addımlar atacaq, daha da qüdrətlənəcəkdir. Heydər Əliyevin ucaltdığı bayraq bu gün etibarlı əllərdədir. Son illlər möhtərəm Prezidentimiz İlham Əliyevin rəhbərliyi altında respublikamız dünya miqyasında ən yaxşı nəticələrə nail olmuş, regionlarda mühüm tədbirlər həyata keçirilmiş yaşayış məntəqələri sosial-iqtisadi cəhətdən simasını tanınmaz dərəcədə dəyişmiş, rayonlarımızın iqtisadiyyatı xeyli yaxşılaşmışdır. İslahatların uğurla həyata keçirilməsi, neft və qeyri-neft sektorunda əldə olunan inkişaf sayəsində xalqın maddi rifahı yüksəlmişdir. Dövlətimizin həyata keçirdiyi tədbirlər sayəsində ölkə əhalisinin sosial həyat şəraiti yaxşılaşır, yeni iş yerləri yaradılır, əməkhaqları və pensiyalar müntəzəm olaraq artırılır. Xalqın ümummilli lideri Heydər Əliyev ideyaları ətrafında birliyinə nail olan möhtərəm Prezidentimiz İlham Əliyev özünü azərbaycanlı sayan, bu mənsubiyyətindən qürur duyan hər kəsi ulu öndərin ideyalarının həyata keçirilməsi istiqamətində səfərbər edir. Bütün bunlar tam mənada deməyə əsas verir ki, möhtərəm Prezidentimiz İlham Əliyevin dövlətçilik təcrübəsində siyasi varislik ənənələrinin davamı, eyni zamanda, mütərəqqi inkişaf meyillərinin gücləndirilməsi ideyası üstünlük təşkil edir. Alternativsizliyi ulu öndərimiz Heydər Əliyevin hakimiyyətdə olduğu illər ərzində dəfələrlə təsdiqini tapmış bu siyasi kursun davamlılığının təmin olunması Azərbaycanın dövlətçilik əsaslarının daha da möhkəmləndirilməsinə, müstəqilliyimizin əbədiliyinə, dövlətin hərtərəfli yüksəlişinə ən etibarlı təminatdır.

**Yusif ƏLƏKBƏROV,**
**"Prant" şirkətinin prezidenti,**
**beynəlxalq mükafatlar laureatı,**
**Beynəlxalq Elmlər Akademiyasının fəxri üzvü.**

*15 iyun Milli Qurtuluş Günüdür*

# Müstəqil Azərbaycan ulu öndərin şah əsəridir

**Müstəqil Azərbaycan Respublikasının qurucusu və banisi olan Heydər Əliyevin anadan olmasının 95 illiyinin böyük qürur hissi və təntənə ilə qeyd edilməsi xalqımızın zəngin yaradıcı və tarixi potensialına istinad edilməklə milli-mənəvi, mədəni və ölkəmizin hərtərəfli inkişaf tarixində çox böyük əhəmiyyətə malik olan hadisədir. Milli dövlətçilik və azərbaycançılıq fəlsəfəsini Azərbaycan mentaliteti ilə birləşdirən Heydər Əliyev özünün fenomenal siyasi keyfiyyətləri sayəsində bütün mütərəqqi qüvvələri müstəqilliyin qorunması ətrafında cəsarətlə birləşdirə bilmiş, xalqın və dövlətin demokratik dəyərlər qanunu ilə idarə edilməsinin zəngin məktəbini yaratmışdır. Bu məktəbin layiqli davamçısı Prezident İlham Əliyevin rəhbərliyi ilə müstəqil Azərbaycan Respublikası daxili və xarici siyasətdə böyük nailiyyətlər qazanmış, sosial, iqtisadi, mədəni və beynəlxalq sahədə fundamental müvəffəqiyyətlərə nail olmuş, iqtisadi inkişaf sürətinə görə lider dövlətə çevrilmişdir. Heydər Əliyev XX əsrin nadir şəxsiyyətlərindən biri olmaqla yanaşı, Azərbaycanın dünya ölkələri ilə strateji tərəfdaşlığının təməlini qoymuş, uğurlu və tarazlaşdırılmış siyasətin bünövrəsini yaratmış, beynəlxalq əməkdaşlığın prioritet istiqamətlərini hazırlamış, dövlətimizin gələcək inkişafının istiqamətlərini müəyyənləşdirmiş, güclü, dövlətin qüvvətli dayaqlarını yaratmış və bununla da XX əsrin reallıqlarında müstəqil və güclü Azərbaycan dövlətçiliyinin qurucusu və memarı olmuşdur. 2016-cı il oktyabrın 17-də müstəqilliyimizin bərpasının 25-ci ildönümünə həsr edilmiş tədbirdə Prezident İlham Əliyev bu titanik siyasi-ictimai xidmətə nəzərən demişdir ki, "...ulu öndər Heydər Əliyev Azərbaycanın dövlət müstəqilliyinin banisidir".**



2018-ci il Azərbaycan xalqının tarixinə uğurlu il kimi daxil oldu. Aprelin 11-də respublikamızda keçirilən prezident seçkilərində 8 namizədin içərisində mütləq səs çoxluğu qazanan İlham Əliyev 4-cü dəfə Azərbaycan Respublikasının Prezidenti seçildi. Bu seçkilər bir daha onu göstərdi ki, xalq düzgün seçim etdi, Azərbaycanın bugünkü müstəqilliyinin möhkəmləndirilməsində əvəzsiz rolu və xidmətləri olan, böyük dövlət xadimi İlham Əliyevə səs verdi. İlham Əliyevin Prezident seçilməsi böyük tarixi qələbə oldu, Azərbaycanın gələcək inkişafına da güclü zəmin yaratdı. Çünki bu, seçim ulu öndər Heydər Əliyevin müəyyən etdiyi inkişaf strategiyasının qələbəsidir. Aprelin 18-də andiçmə mərasimində Prezident İlham Əliyev demişdir: "...Mən 2003-cü il prezident seçkiləri ərəfəsində xalqa müraciət edərək demişdim ki, əgər mənə xalq etimad göstərərsə, mən ulu öndər Heydər Əliyev siyasətinə sadiq qalacağam, bu siyasəti davam etdirəcəyəm... Biz bu gün ulu öndərin yolu ilə gedirik...".

Tarixin inkişaf dialektikasının qanunauyğun prinsipi həm də ondan ibarətdir ki, bütün dövrlərdə və zamanlarda görkəmli şəxsiyyətlər və liderlər ictimai-siyasi inkişafın və yeni cəmiyyət quruculuğunun formalaşmasının həlledici təsir qüdrətinə malik olurlar. Belə görkəmli şəxsiyyətlər eyni zamanda dünya siyasətinə və beynəlxalq münasibətlər məsələlərinə də təsir göstərirlər. Tarixin inkişaf dialektikası öyrədir ki, hər bir xalqın və cəmiyyətin inkişafında hərəkətverici qüvvələri onun öz daxilindədir, eyni zamanda obyektiv və subyektiv amillərlə vəhdət təşkil edir.

Bu baxımdan XX və XXI əsrlərin qovşağında müstəqil Azərbaycanın hərtərəfli inkişafında, gənc dövlətimizin beynəlxalq müstəvidə mürəkkəb siyasi əlaqələr şəraitində görkəmli dövlət xadimi, xalqımızın ümummilli lideri, müstəqil Azərbaycanın qurucusu və memarı, dövlətimizin və dövlətçiliyimizin banisi Heydər Əliyevin böyük rolu və xidmətləri olmuşdur, bu gün də vardır. Zəngin və dərin ensiklopedik biliyə malik olan Heydər Əliyev müstəqil Azərbaycan dövlətinin qurucusu olmaqla yanaşı, zəngin elmi biliyə, dövlətçilik nəzəriyyəsinə və geniş təcrübəyə malik idi. Heydər Əliyevin yaratdığı zəngin irs və universal məktəb bugünkü Azərbaycanın hərtərəfli inkişafının başlıca prioritet istiqamətləridir və gələcək tərəqqinin strateji proqramıdır.

Böyük qürur hissi ilə deyə bilərik ki, Azərbaycan xalqı həqiqətən zəngin dövlətçilik ənənələrinə malikdir və tarix boyu qüdrətli dövlətlərə malik olmaqla yanaşı ölkəni və dövləti idarə etməklə bərabər xalqı öz arxasınca apara bilmək qabiliyyəti, ona komandanlıq etmək hünəri, ən çətin məqamlarda qələbə əldə etmək və zəfər çalmaq istedadı olan böyük şəxsiyyətlər, siyasi liderlər, görkəmli dövlət xadimləri, əfsanəvi rəhbərlər və el ağsaqqalları yetirmişdir. Tariximizin bütün dövrlərində adı və fəaliyyəti ilə fəxr etdiyimiz belə şəxsiyyətlərimiz və dövlət rəhbərlərimiz olmuşdur və indi də vardır. Həmin şəxsiyyətlər tarixin müəyyən zamanlarında bəzən ümumxalq lideri olmaqla yanaşı, özünün intellektual fəaliyyəti və fitri istedadı ilə dünya meydanına çıxır, qlobal və beynəlxalq problemlərin həllində bəşəri əhəmiyyətə malik işlər görür, ad çıxarır, hörmət və nüfuz sahibi olur və beləliklə, planetar əhəmiyyətli dünya şəxsiyyətlərinə çevrilirlər. Belə şəxsiyyətləri yetişdirən ***ilahi varlıqdır, zaman və məkandır.*** Belə bir məkanlardan biri də dünya xəritəsində kiçik bir əraziyə malik olan, ancaq dünyanın böyük dövlətlərinin diqqət və tədqiqat mərkəzində olan Azərbaycan məmləkətidir.

Azərbaycan xalqı dünya əhəmiyyətli siyasi liderlər, görkəmli dövlət xadimləri yetişdirmişdir. Belə şəxsiyyətlərdən biri də adı ilə fəxr etdiyimiz, inam və güvənc yerimiz, şərəf və ləyaqət mücəssəməsi olan parlaq şəxsiyyət Heydər Əliyev şəxsiyyətidir. İyirminci yüzilliyin üçdə biri qədər ölkəmizi idarə edən bu dahi şəxsiyyət qısa zaman kəsiyində nəinki Azərbaycanı dünyaya tanıtdıra bildi, habelə Azərbaycan inkişaf etmiş dövlətlər bərabərliyinə yüksələ bildi. İstər keçmiş sovet məkanı vaxtında və istərsə də müstəqilliyimiz illərində Azərbaycan sosial-iqtisadi, siyasi, mədəni, elm və təhsil sahəsində fundamental nailiyyətlər qazandı, demokratik dəyərlərə malik yüksək göstəricilər əldə edə bildi. Unutmaq olmaz ki, Azərbaycanın tarixi əsrin üçdə biri qədəri xalqımıza rəhbərlik edən dahi şəxsiyyət Heydər Əliyevin adı və fəaliyyəti ilə sıx bağlıdır. Azərbaycanın Prezidenti İlham Əliyev demişdir: ***"Heydər Əliyev rəhbərlik etdiyi bu dövr ərzində Azərbaycanı bir dövlət kimi zamanın ağır və sərt sınaqlarından çıxara bilmiş, ölkənin gələcək inkişaf strategiyasını müəyyən etmiş və onun həyata keçirilməsi üçün mühüm addımlar atmışdır".*** Beləliklə, Azərbaycanın 1969-cu ildən bəri yaşanan dövrü xalqımızın tarixinə Heydər Əliyev dövrü kimi əbədi həkk olmuşdur. Bütün həyatını xalqa sədaqətlə xidmətə həsr etmiş Heydər Əliyev özünün geniş və böyük fəaliyyətində həmişə xalqa arxalanmış, ən çətin anlarda ona müraciət etmişdir. Xalq da heç vaxt ondan öz diqqətini əsirgəməmişdir. Əgər biz Vətən tariximizə nəzər salsaq, onun hər hansı bir ömür kitabını vərəqləsəq görərik ki, Heydər Əliyev sözün əsl mənasında ümumxalq məhəbbəti qazanan müdrik el ağsaqqalı, görkəmli ictimai-siyasi dövlət xadimi, dünyanın tanınmış şəxsiyyəti və dövlət rəhbəri, ayrı-ayrı ölkələrin siyasi və dövlət rəhbərləri içərisindən seçilmişlər sırasında "İlin adamı" olmuşdur. Heydər Əliyevin bir sözü, bir müraciəti ilə milyonlarla insan ayağa qalxdı, hərəkətə gəldi, öz rəhbərinin arxasınca getməyə, onu ən çətin anlarda müdafiə etməyə, arxa olmağa, dəstək verməyə, onu şər qüvvələrdən qorumağa and içdi. Azərbaycan xalqının bugünkü firavan yaşaması, müstəqilliyimizin möhkəmlənməsi, dövlətimizin qüdrətlənməsi məhz dahi şəxsiyyət, ümummilli lider Heydər Əliyevin xidmətləridir.

Heydər Əliyevin ictimai-siyasi və dövlət quruculuğu sahəsindəki fəaliyyəti o müasir Azərbaycan gerçəkliyinin və mənliyinin canlı ensiklopediyasıdır. Azərbaycan xalqının elə bir müqəddəs arzusu və niyyəti, fikir və ümid çırpıntısı, azadlıq və mücadilə mübarizəsi yoxdur ki, bir möcüzə kimi Heydər Əliyevin zəngin dövlətçilik fəaliyyətində əks olunmasını ulu öndərin ecazkar gücü və qüdrətli təşkilatçılığı ilə müstəqillik ideyaları keçmiş sovet məkanında da parlaq və şəfəqlənən ideala çevrilmiş, gələcək azadlıq mübarizəsinin konturlarını müəyyənləşdirmişdir. Heydər Əliyev bəşər həyatının ən yüksək zirvəsindən insan azadlığını və müstəqilliyi tanrı vergisi kimi müqəddəs bilmiş, hələ ötən əsrin 70-ci illərində keçmişlə gələcəyi bir-birinə bağlayan və bir-birini tamamlayan qırılmaz vasitə kimi əlaqələndirmə körpüsü yaratmış və beləliklə, Azərbaycan xalqının vahidliyini düşünərək tarixi tərəqqinin inkişaf istiqamətlərini və müstəqillik yollarını müəyyən etmişdir. Bu arzu və ideyalarla yaşayan və dövlət vəzifələrini icra edən Heydər Əliyev hər bir Vətən övladının qəlbində özünə əbədi heykəl yarada bilmiş, xalqımızın sevgi dolu dövlət rəhbəri olmağa, layiqli vətəndaş olmağı işdə sübut edə bilmişdi.

Heydər Əliyev tərəfindən yaradılmış yeni-yeni dövlətçilik strukturları daxili mahiyyətinə və vəzifələrinə görə bəşəri məzmun daşıyır və elmi baxımdan daha dolğun və daha düzgün istiqamətləndirilmişdir ki, bugünkü uğurlarımız və nailiyyətlərimiz də həmin köklərə və həmin mənbələrə söykənir. Hazırda dünyanın bir çox dövlət xadimləri onu yüksək qiymətləndirirlər.

Əgər biz desək ki, müstəqillik uğrunda mübarizə aparan və azadlıq qazanan Azərbaycan xalqının özüdür, bütün tarix boyu inkişaf edib öz milli tarixini, ədəbiyyatını və mədəniyyətini, mentalitetinin bütün dəyərlərini də zənginləşdirən xalqımızın özüdür, onun zəkasıdır, bu, doğrudan da belədir. Ancaq bununla belə bu zəngin mədəniyyəti daha da inkişaf etdirmək, ümumdünya səviyyəsinə yüksəltmək istedadı və bacarığı ilə dahi şəxsiyyət olan, müstəqilliyimizin möhkəmləndirilməsinə var qüvvəsi ilə çalışan məhz Heydər Əliyevdir. Heydər Əliyev şəxsiyyəti ümumxalq zəkası ilə ayrılmaz bir vəhdətdə, vahid bir ideyada birləşmişdir. Heydər Əliyev Azərbaycan xalqının bütün yaradıcılıq potensialını, xidmətlərini müstəqillik ideyalarında birləşdirən və bu müstəqilliyi daha da möhkəmləndirən ümummilli lider olmuşdur.

Əgər dərindən araşdırsaq, o zaman hər kəsə gün kimi aydın olar ki, bugünkü nailiyyətlərimizin kökündə Heydər Əliyev dövlətçiliyinin möhkəm təməl prinsipləri dayanır. Və bu fundament üzərində müasir inkişaf strategiyası qərar tutur. Deməli, Azərbaycanın sosial-iqtisadi, ictimai-siyasi və mənəvi-mədəni inkişafının bütün istiqamətləri elə müəyyənləşdirilmişdir ki, o, ancaq Azərbaycan xalqına xidmət etmək amalında bərqərar olur. Bununla da tarixi baxımından bu inkişaf dialektikası sanki ardıcıl davam edərək irsən daha yüksək nailiyyətlər qazanılır. Bu gün müstəqil Azərbaycanın daxili və beynəlxalq uğurları dediklərimizə sanballı sübutlardır, dəlillərdir.

İqtisadi cəhətdən Azərbaycan bölgədə lider dövlətdir və inkişaf strategiyasına görə dünyanın 140 ölkəsi arasında 35-ci yerdə dayanır. Bu, böyük göstəricidir.

Hərbi cəhətdən Azərbaycan ordusu müasir standartlara cavab verə bilən güclü ordudur. 2016-cı ilin aprel döyüşləri Azərbaycan ordusunun nəyə qadir olduğunu işğalçı erməni qüvvələrinə və bütün dünyaya praktik olaraq sübut etdi. Bu gün bizim müdafiə sənayemiz mindən çox növdə müasir hərbi məhsul istehsal edir ki, bu da NATO və dünya standartlarına uyğundur.

Dövlət müstəqilliyi qazanan Azərbaycan xalqı ötən əsrin 90-cı illərinin əvvəllərində ciddi imtahan qarşısında qalmışdı. Ölkədə dərin və təhlükəli ictimai, siyasi və iqtisadi böhran yaranmışdı. Həmin dövrün ətraflı təhlilini verən ümummilli lider Heydər Əliyev demişdir: "Vəziyyət elə təhlükəli xarakter almışdı ki, 1991-ci ildə yaranmış müstəqil dövlətimiz qəsdən və yaxud səriştəsizlikdən yaranan idarəsizlik nəticəsində real itirilmək təhlükəsi ilə üz-üzə qalmışdı. Beləliklə, 1991-1993-cü illər Azərbaycanın müstəqillik tarixində nəinki itirilmiş illər hesab olunur, həm də bu illərdə Azərbaycan "ölüm, ya olum" dilemması qarşısında qalmışdı". Azərbaycan xalqının belə ağır və çətin vaxtında hamının diqqəti o zaman Naxçıvan Ali Sovetinin sədri vəzifəsində çalışan Heydər Əliyevə yönəldi. Çünki xalqı belə ağır vəziyyətdən qurtara bilən yeganə şəxsiyyət ancaq və ancaq Heydər Əliyev ola bilərdi. Belə çətin və mürəkkəb bir zamanda Azərbaycan xalqının və Azərbaycan ziyalılarının dəvəti ilə müdrik el ağsaqqalı, zəngin dövlətçilik təcrübəsi olan görkəmli dövlət xadimi Heydər Əliyev 1993-cü il iyunun 9-da Bakıya gəldi, ***iyunun 15-də Respublika Ali Sovetinin*** (indiki Milli Məclis) sədri seçildi. Həmin gün Azərbaycan xalqının şərəfli tarixinə ***Milli Qurtuluş Günü*** kimi daxil oldu. Heydər Əliyev ümumxalq səsverməsi yolu ilə 1993-cü ilin oktyabrında Azərbaycan Respublikasının Prezidenti seçildi.

Azərbaycan xalqının tarixində yeni bir dövr başlandı. Milli Məclisin 1997-ci il 27 iyun tarixli iclasında 15 iyun günü ***"Milli Qurtuluş günü"*** elan edildi.

Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra ölkəmizdə köklü islahatlar aparıldı və fundamental əhəmiyyətə malik olan tədbirlər həyata keçirildi. Konkret desək, zənnimizcə həmin tədbirlər əsasən aşağıdakılardır:

***Birincisi,*** Böyük dövlətçilik təcrübəsinə malik olan Heydər Əliyevin birinci dəfə Azərbaycana rəhbərlik etdiyi 1969-1982-ci illərdə fundamental nailiyyətlər qazanıldı. Həmin illərdə respublikada 250-dən çox zavod, fabrik və digər sənaye müəssisələri, o cümlədən Mingəçevir və Şamxor SES-ləri, Bakı kondisioner zavodu, Sumqayıt kompressorlar zavodu, Gəncədə xalça zavodu, qənnadı zavodu, çini-saxsı qablar zavodu, Əli-Bayramlı məişət cihazları zavodu, Bakıda neft emal zavodu, neft maşınqayırma zavodu, ELOU-AVT üzən qurğusu, Naxçıvanda, Balakəndə, Zaqatalada və Xankəndidə aeroportlar, Bakıda yeni təyyarə limanı, Yevlax-Balakən və Ağdam-Xankəndi dəmir yolları, Bakı metrosunun 2-ci növbəsi, Bakıda 7 mikrorayon, Badamdar, Əhmədli, Hövsan yaşayış kompleksləri və müxtəlif sənaye müəssisələri tikilib istifadəyə verildi. Heydər Əliyevin göstərişi ilə Azərbaycanda 6 yeni ali məktəb, C.Naxçıvanski adına hərbi məktəb, çoxlu təhsil müəssisələri yaradıldı, milli yaddaş və milli özünüdərk ideyaları inkişaf etdirildi. Nizami, Nəsimi, Gəncə, Babək adına rayonlar yaradıldı.

1978-ci ildə qəbul edilən Azərbaycan SSR-in yeni Konstitusiyasında 15 sovet respublikaları içərisində yeganə olaraq bizim Əsas Qanunumuzda Azərbaycan dili rəsmi dövlət dili kimi təsbit olundu.

Nizami, Əcəmi, Nəsimi, Tusi, Vaqif, Aşıq Ələsgər, Aşıq Alı, Ü.Hacıbəyli, M.Maqomayev, H.Cavid və başqalarının təntənəli yubileyləri keçirildi. Taqanroqda, Sevastopolda milli diviziyaların şərəfinə abidələr ucaldıldı. Heydər Əliyevin Azərbaycana rəhbərliyi illərində 350 adda sənaye məhsulu dünyanın 65 ölkəsinə ixrac edilirdi. Ulu öndərin respublikaya rəhbərlik etdiyi 1969-1982-ci illər ***Azərbaycan tarixində dönüş mərhələsi*** adlanır. Çünki həmin illərdə Azərbaycan sosial-iqtisadi və mədəni inkişafda böyük nailiyyətlər qazandı.

***İkincisi,*** Heydər Əliyev 1990-cı ilin iyununda Bakıya, oradan da Naxçıvana gəldi, 1991-ci ilin sentyabrından Azərbaycan xalqının *qurtuluş hərəkatı* başlandı və ümummilli lider bu qurtuluş hərəkatına başçılıq etməyə başladı. Naxçıvana rəhbərlik etdiyi illərdə Heydər Əliyevin təşəbbüsü ilə *əvvəla,* muxtar respublikanın adından "sovet sosialist" sözləri çıxarıldı, *ikincisi,* "Ali Sovet", "Ali Məclis" adlandırıldı, *üçüncüsü,* ADR-in üçrəngli bayrağı ilk dəfə Naxçıvan MR-in dövlət bayrağı kimi qəbul edildi, *dördüncüsü,* Kommunist partiyasının fəaliyyəti dayandırıldı, *beşincisi,* SSRİ-nin saxlanılması barədə referendumdan imtina edildi, *altıncısı,* 20 Yanvar faciəsinə ilk dəfə MR-da siyasi və hüquqi qiymət verildi, *yeddincisi,* Dünya azərbaycanlılarının həmrəylik gününün qeyd olunması barədə tarixi qərar qəbul edildi. Bu cəsarətli addımların atılması Naxçıvanı qurtuluş mücadiləsinin önünə çıxardı və Heydər Əliyevə ümumxalq məhəbbəti daha da artdı. Bütün Azərbaycan xalqı aydın şəkildə başa düşdü və dərk etdi ki, ölkəni bu xaosdan qurtara bilən yeganə şəxsiyyət və dövlət rəhbəri ancaq və ancaq Heydər Əliyev ola bilər.

***Üçüncüsü,*** Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpası ilə əldə edilən nailiyyətlər və doxsanıncı illərin əvvəllərində ölkədə yaranmış dərin siyasi hakimiyyət böhranı, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi, erməni millətçi silahlı birləşmələri tərəfindən torpaqlarımızın işğalı dövlət müstəqilliyimizin taleyini təhlükə qarşısında qoydu. Belə ağır və mürəkkəb vaxtda Azərbaycan xalqının təkidli xahişi ilə Heydər Əliyevin yenidən hakimiyyətə qayıdışı nəticəsində dövlət müstəqilliyinin möhkəmləndirilməsi istiqamətində prinsipial uğurlar əldə edildi.

***Dördüncüsü,*** Heydər Əliyevin respublikaya rəhbərliyə başladığı ilk gündən əsas diqqət ölkə daxilində siyasi parçalanmanın və vətəndaş qarşıdurmasının qarşısının alınmasına, sakitliyə və sabitliyə, cəbhədə atəşkəsə nail olunmasına, sürətlə artmaqda olan inflyasiyanın qarşısının alınmasına, azad bazar iqtisadiyyatına doğru dərin sosial-iqtisadi, siyasi və mədəni islahatların həyata keçirilməsinə yönəldildi.

Qısa zaman kəsiyində Heydər Əliyevin çox böyük təşkilatçılığı və rəhbərliyi, məqsədyönlü siyasəti sayəsində Azərbaycan xalqının milli birliyi bərqərar oldu, ictimai, siyasi sabitlik bərpa olundu, hakimiyyət böhranı aradan qaldırıldı, əhəmiyyətli qərarlar və fərmanlar qəbul edildi, təsirli tədbirlər həyata keçirildi, müstəqil dövlətçiliyimizin möhkəmləndirilməsi üçün əsaslı zəmin yarandı.

***Beşincisi,*** Heydər Əliyevin qətiyyəti, prinsipiallığı, diplomatik səyi və böyük dövlətçilik təcrübəsi sayəsində dövlətçiliyimizə və müstəqilliyimizə qarşı edilən bütün qəsdlərin qarşısı müvəffəqiyyətlə alındı.

***Altıncısı,*** qısa zamanda Heydər Əliyev tərəfindən Azərbaycan Respublikasının xarici siyasət strategiyasının konseptual, elmi əsasları yaradıldı, bütöv bir təlimin beynəlxalq münasibətlər sisteminə uyğunlaşdırılması istiqamətləri, prinsip və vəzifələri, düşünülmüş taktiki yolları, dünya dövlətləri ilə əlaqələrin yaxın və uzaq strategiyası müəyyənləşdirildi. Heydər Əliyev hakimiyyətə başladığı ilk gündən milli xarici siyasət konsepsiyasını hazırlayıb başa çatdırmaq üçün bütün qüvvələri və potensial imkanları bir mexanizm kimi hərəkətə gətirdi. Mütəxəssis alimlərin potensial qüvvələrini səfərbərliyə aldı, dünya təcrübəsindən istifadə edərək yeni və elmi cəhətdən əsaslandırılmış xarici siyasət doktrinasının Dövlət Proqramını və onun başlıca istiqamətlərini hazırladı. Hazırlanan Proqramda sülhsevərlik, mehriban qonşuluq və dinc yanaşı yanaşmaq prinsipləri, başqasının daxili işlərinə qarışmamaq, qarşılıqlı faydalı əməkdaşlıq kimi yüksək bəşəri dəyərlər öz əksini tapdı.

Respublikamızın geosiyasi vəziyyəti və beynəlxalq siyasətə təsir etmə imkanlarının dərin elmi, nəzəri və praktik təhlili əsasında xarici siyasət konsepsiyasında mövcud reallıqları nəzərə alaraq ölkənin mənafe və maraqlarının qorunmasına yönəlmiş dəyişikliklər edildi. İlk növbədə müstəqil dövlətimizin beynəlxalq münasibətlər müstəvisində dünya dövlətləri ilə əlaqələrinin başlıca istiqamətləri müəyyənləşdirildi, planetin ayrı-ayrı böyük və xırda dövlətləri ilə dərindən düşünülmüş əlaqələr sistemi yaradıldı. Prezident Heydər Əliyev dövlətimizin xarici siyasət proqramını belə müəyyənləşdirirdi: "Azərbaycan dövlətinin xarici siyasətinin başlıca prinsipləri beynəlxalq hüquq normaları ilə tənzimlənən dövlətlərarası münasibətlərə hörmət etməkdən, bütün dövlətlərin suveren hüquqlarına hörmətlə yanaşmaqdan, bütün mübahisəli məsələləri sülh və danışıqlar yolu ilə həll etməkdən, qarşılıqlı əməkdaşlıq yaratmaqdan, dövlətlərarası əlaqələrə mane olan hər cür məhdudiyyətləri aradan qaldırmaqdan ibarətdir".

Təkcə bu faktı demək kifayətdir ki, Azərbaycan Respublikası hazırda dünyanın təqribən 180-dən çox ölkəsi ilə diplomatik əlaqə qurmuşdur. Azərbaycanda 70-ə qədər xarici dövlətin səfirlikləri fəaliyyət göstərir. Öz növbəsində Azərbaycanın 60 xarici ölkədə səfirliyi, daimi nümayəndəliyi və konsulluğu vardır.

***Yeddincisi,*** Azərbaycanda hüquqi, demokratik və dünyəvi dövlət quruculuğunun həyata keçirilməsində, milli dövlət strukturlarının yaradılmasında və formalaşmasında Yeni Konstitusiyanın (1995-ci il) qəbul edilməsinin böyük əhəmiyyəti oldu. Milli Konstitusiyamızın qəbul olunması Azərbaycanda dövlət müstəqilliyinin daimi, ədəbi olmasını bir daha dünyaya sübut etdi, demokratik vətəndaş cəmiyyəti quruculuğuna, insanların azad və sərbəst yaşamalarına, insan haqları və hüquqlarının genişlənməsinə əlverişli şərait yaratdı. Deməliyik ki, müstəqil dövlətimizin Konstitusiyası Heydər Əliyevin şah əsəridir. Ona görə ki, Milli Konstitusiyanın hazırlanması və qəbul edilməsinin müəllifi məhz Heydər Əliyevdir.

***Səkkizincisi,*** Azərbaycan tarixinin ən parlaq səhifələrindən biri olan "Əsrin müqaviləsi" sazişlərinin imzalanması Heydər Əliyev dühasının düşünülmüş və uzaqgörən diplomatiyasının böyük və tarixi qələbəsi, neft strategiyası siyasətinin parlaq uğuru idi. Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi ilə beynəlxalq əhəmiyyətə malik olan neft kontraktları haqqında 1994-cü il sentyabrın 20-də sazişlərin imzalanması müstəqil Azərbaycanı dünyanın nəhəng dövlətlərinin diqqət mərkəzinə gətirdi. İri dövlətlərin böyük neft şirkətləri tezliklə bu müqaviləyə qoşulması istəkləri artdı. Azərbaycan neft sənayesinin inkişafına beynəlxalq sərmayələrin qoyulması çoxaldı, neft sənayesi sürətlə inkişaf etməyə başladı. Heydər Əliyevin rəhbərliyi ilə tezliklə ***Bakı-Novorossiysk*** və ***Bakı-Supsa*** kəmərləri çəkilib istifadəyə verildi. Rusiyaya və Avropaya neft nəql edilməyə başlandı. Bununla yanaşı Prezident Heydər Əliyev daha böyük beynəlxalq layihələrə imza atdı.

Məhz Heydər Əliyevin fəal, uzaqgörən daxili və xarici siyasəti nəticəsində Azərbaycan transmilli layihələrin təşəbbüsçüsü iştirakçısı və təşkilatçısı oldu. Nəticədə bir çox qlobal və regional layihələr, Bakı-Tbilisi-Ceyhan neft boru kəmərinin reallaşdırılmasına nail olundu. Azərbaycan Prezidenti cənab İlham Əliyevin sözləri ilə desək, ***Bakı-Tbilisi-Ceyhan*** neft boru kəməri Heydər Əliyev siyasətinin qələbəsidir. Bakı-Tbilisi-Ceyhan boru kəmərinə Heydər Əliyevin adının verilməsi xalqların və millətlərin ona olan böyük sevgisi və istəyidir.

***Doqquzuncusu,*** Heydər Əliyev siyasətinin ən parlaq uğurlarından biri Azərbaycan xalqının milli-mənəvi dəyərlərinin dirçəlişi və qorunub saxlanılması, böyük cəsarətlə milli soykökümüzə, milli tariximizə, milli ədəbiyyatımıza və mədəniyyətimizə, ana dilimizə və Vətən tariximizə verilən böyük qiymət və dəyərlərdir. Məhz Heydər Əliyevin diqqət və qayğısı sayəsində istər sovet dövründə rəhbərliyi zamanında, istərsə də müstəqillik illərində Azərbaycan xalqının milli mənəvi dəyərlərinin qorunub saxlanılmasında və müasir dövrümüzdə yeni-yeni müsbət keyfiyyətlərlə daha da zənginləşdirilməsində, ağıllı və dərin, düşünülmüş diplomatik siyasətin həyata keçirilməsində zəngin dövlətçilik təcrübəsinin çox böyük rolu və əhəmiyyəti olmuşdur. Dünya azərbaycanlılarının birinci qurultayında Heydər Əliyev demişdir: "Müstəqil Azərbaycan dövlətinin əsas ideyası azərbaycançılıqdır. Hər bir azərbaycanlı öz dilini, mədəniyyətini, milli-mənəvi dəyərlərini, adət-ənənələrini yaşatmalıdır". 1969-1982-ci illərdə və müstəqillik illərində bir çox elm və mədəniyyət xadimlərinə, ədəbiyyat və incəsənət işçilərinə fəxri adların verilməsi, onların yüksək səviyyədə qiymətləndirilməsi məhz ümummilli lider Heydər Əliyevin xidmətidir və bu dahi şəxsiyyətin diqqət və qayğısı sayəsində mümkün olmuşdur. Azərbaycançılıq fəlsəfəsinin yeni və inkişaf istiqamətlərini yaradan, bununla da inkişaf dialektikasının əsasını qoyan Heydər Əliyev Dünya Azərbaycanlılarının I qurultayında (noyabr, 2001) böyük qürur hissi ilə demişdir: ***"Hər bir insan üçün milli mənsubiyyəti onun qürur mənbəyidir. Həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam".***

***Onuncusu,*** milli soykökümüzə qayıtmaq, milli şüurun və milli tariximizin "ağ" və "qara ləkələrinin" silinməsi, tarixi ədalətin bərpa olunması və obyektiv həqiqətlərin üzə çıxarılması istiqamətində ümummilli lider Heydər Əliyevin cəsarətli siyasəti və qəbul etdiyi təsirli dövlət qərarları Azərbaycan tarixinin öyrənilməsi üçün böyük tarixi əhəmiyyətə malik olan sənədlərdir. Ulu öndərin Azərbaycanlı əhalinin 1948-1953-cü illərdə Ermənistan SSR-dən, doğma dədə-baba yurdlarından və torpaqlarından zorakılıqla deportasiya edilməsi haqqında 1997-ci il 18 dekabr tarixli və 31 Mart azərbaycanlıların soyqırımı haqqında 1998-ci il 26 mart tarixli imzaladığı Prezident Fərmanları sözün əsl mənasında xalqımızın tarixinə olan qayğı, diqqət və hörmətdir, tarixi ədalətin və sovet imperiyası dövründə unudulmuş tariximizin və yaddaşımızın bərpasıdır, o tarixi cinayətlərə verilən hüquqi-siyasi qiymətdir. Həmin Prezident Fərmanları tarixçi və ictimaiyyətçi alimlərimizə aydın və konkret istiqamətlər verdi və hadisələrin tədqiqinə və araşdırılmasına əsaslı şərait yaratdı.

***On birincisi,*** Azərbaycanın dövlət müstəqilliyinin bərpası ictimai-siyasi, sosial-iqtisadi, mədəni və mənəvi həyatın bütün sahələrində prinsipial dönüşün yaranmasına, dövlətimizin və dövlətçiliyimizin obyektiv və tarixin həqiqətlərə uyğun doğru-düzgün yazılmasına əsaslı şərait yaratdı. 80-ci illərin sonu — 90-cı illərin əvvəllərində tarix elmində yaranmış subyektiv "ideyalar", populizm, nihilizm, dilentantçılıq, konyunkturçuluq və digər xoşagəlməz meyillər geniş yayılmağa, yaxın və uzaq tariximizin mürəkkəb problemlərinə dair "ağ və qara ləkələr" süni şəkildə artmağa başlamışdı. Xüsusilə, XIX-XX əsrlər Azərbaycan tarixinin müxtəlif mərhələlərinə dair bir-birinə zidd fikirlər sürətlə yayılırdı. Tarix elmimizdə sanki bir boşluq, vakuum yaranmışdı. Dövlətimizin və tariximizin belə bir mürəkkəb zamanında Heydər Əliyev 1993-cü il sentyabrın 21-də və 1997-ci il yanvarın 31-də Azərbaycan MEA-da ziyalılarla, elmi institutların və ali təhsil müəssisələrinin rəhbərləri ilə, elmi ictimaiyyətin və Azərbaycan tarixçilərinin qabaqcıl nəsli ilə tarixin yaddaşına həkk olunan görüşlər keçirdi. Bu görüşlərdə ulu öndər Azərbaycan tarixi elmində yaranmış vəziyyəti dərindən təhlil etdi, tarixçi alimlərin təklif və mülahizələrinə hörmətlə yanaşaraq XIX-XX əsrlər tarixinin yenidən yazılmasına dair konkret göstərişlər və tapşırıqlar verdi. Bu görüşlərdə Heydər Əliyev son vaxtlarda tarix elmində baş qaldırmış nihilist, populist və volyuntarist meyillərin aradan qaldırılmasını, Vətən tariximizin, xüsusilə XIX-XX əsrlər tarixinin yeni təfəkkür tərzində tədqiq edilməsinin zəruriliyini vurğuladı. Eyni zamanda, XIX-XX əsrlər Azərbaycan tarixinin yazılmasını daim nəzarət altında saxlayacağını, ona hərtərəfli kömək və yardım edəcəyini də bildirirdi. Bu, Prezident Heydər Əliyevin Azərbaycan tarixinə dövlət siyasəti səviyyəsində diqqət və qayğısının parlaq ifadəsi, tarixçilər qarşısında isə duran Dövlət Proqramı, fəaliyyət proqramı idi.

***On ikincisi,*** iyirminci yüzilliyin 90-cı illərinin ortalarından başlayaraq respublika iqtisadiyyatında köklü dəyişikliklər aparıldı, azad bazar iqtisadiyyatına dərin sosial-iqtisadi, siyasi və mədəni islahatlar keçirildi. Bu istiqamətdə dövlət mülkiyyətinin özəlləşdirilməsi, sahibkarlığın inkişaf etdirilməsi, aqrar islahatların həyata keçirilməsi, şəhər və kənd təsərrüfatlarının inkişaf etdirilməsi istiqamətində əhəmiyyətli tədbirlər həyata keçirildi, fərmanlar və qərarlar verildi.

Azərbaycan Prezidenti cənab İlham Əliyevin dediyi kimi, son 15 ildə 1 milyon 500 mindən çox iş yeri açılmışdır. Bu gün Azərbaycan iqtisadi artım baxımından dünyada birinci yerdə olan lider ölkədir. Ölkəmiz hərtərəfli möhkəmlənir, güclənir və bölgədə baş verən proseslərə həlledici təsir göstərir.

***On üçüncüsü,*** Heydər Əliyev çox gözəl bilirdi ki, Azərbaycanın dövlət müstəqilliyini möhkəmləndirmək, Dağlıq Qarabağ hadisələrini ədalətlə həll və erməni işğalçıları tərəfindən zəbt olunmuş torpaqlarımızı azad etmək üçün müasir standartlara cavab verə bilən güclü Silahlı Qüvvələr lazımdır. Bu məqsədlə ordu quruculuğunda köklü islahatların aparılması zəruri idi. 90-cı illərin əvvəllərində isə Azərbaycan Ordusu pərakəndə halda və könüllü hərbi birləşmələrdən ibarət idi və bəzən mərkəzə tabe olmurdu. Belə bir şəraitdə könüllü hərbi birləşmələri buraxmaq, mərkəzləşdirilmiş ordu yaratmaq və onu komplektləşdirmək, əlbəttə çox çətin idi və vaxt tələb edirdi. Ancaq böyük dövlətçilik təcrübəsinə, yüksək təşkilatçılıq qabiliyyətinə və dəmir iradəyə malik olan ümummilli liderimiz qısa zaman kəsiyində Silahlı Qüvvələrin yaradılmasına, onun döyüş texnikası ilə və müasir dünyəvi silahlarla təchiz və təmin olunmasına, siyasi və təşkilat cəhətdən möhkəmləndirilməsinə nail oldu. Şəxsən özünün diqqətində və nəzarətində saxladığı ordu quruculuğu məsələsi ilə əlaqədar hərbi hissələrə getdi, cəbhə xəttində oldu, əsgər və zabitlərlə görüşdü, generalları dinlədi, mütəxəssis təkliflərini bəyəndi və dünya təcrübəsindən istifadə edərək NATO və Türkiyə Silahlı Qüvvələrinin nümunəsində güclü Silahlı Qüvvələri yarada bildi ki, bu gün biz öz milli ordumuzla fəxr edə bilərik. Ordumuzun bütün şəxsi heyəti və komandirləri işğal edilmiş torpaqlarımızı azad etməyə, Ali Baş Komandanımızın əmrinə hazırdır. Danılmaz faktdır ki, müasir Azərbaycan ordusunun yaradılmasının və formalaşdırılmasının memarı ümummilli lider Heydər Əliyevdir.

Heydər Əliyev Azərbaycan dövlətçiliyinin gələcək inkişaf yollarını müəyyənləşdirdi. Prioritet istiqamətlər bundan ibarət idi: 1) Qərbə inteqrasiya; 2) demokratik inkişaf və hüquqi dövlət quruculuğu; 3) azad bazar münasibətlərinə keçid; 4) dərin sosial-iqtisadi və hüquqi-siyasi islahatlar kursu; 5) azərbaycançılıq və vətəndaş həmrəyliyi; 6) işğal edilmiş torpaqlarımızın geri qaytarılması, ərazi bütövlüyünün bərpası və Qarabağ probleminin ədalətlə həlli. Heydər Əliyev prinsipial və qətiyyətli xarici siyasət yeridərək dövlətimizin regional və beynəlxalq maraqlarından çıxış edirdi. Nəticədə ***Bakı-Tbilisi-Ceyhan, TRASEKA proqramı, Bakı-Tbilisi-Ərzurum qaz kəməri, Bakı-Tbilisi-Qars dəmir yolu*** və digər transmilli layihələr Azərbaycanı dünyanın diqqət mərkəzinə çıxardı.

Bəli, çağdaş Azərbaycan tarixinin ən parlaq simalarından olan Heydər Əliyev ulu tanrının xalqımıza bəxş etdiyi böyük möcüzədir. Prezident Administrasiyasının rəhbəri akademik Ramiz Mehdiyevin sözləri ilə desək, ***Heydər Əliyev "Taleyin İlahi vergisidir".*** Dahi insanlara xas olan bütün mənəvi keyfiyyətlər onun şəxsində qibtəediləcək bir şəkildə əks olunmuşdur. Dövlətçilik və azərbaycançılıq onun fundamental fəaliyyətinin və ömür bioqrafiyasının məzmununu təşkil edirdi. XX əsrin reallıqlarında müstəqil Azərbaycan dövlətçiliyinin yaradılması, güclü idarəetmə qabiliyyəti, dövlət mexanizminin təkmilləşdirilməsinə rəhbərliyi ilə ümummilli lider bir daha sübut etdi ki, O - Heydər Əliyev müstəqil müasir Azərbaycan dövlətinin banisi və qurucusudur.

**Nuru MƏMMƏDOV,**
**tarix elmləri doktoru, professor.**

# Tarixi gün

**Ümummilli lider, milli dövlətçiliyimizin memarı və qurucusu Heydər Əliyevin həyatı, siyasi və idarəçilik fəaliyyəti tariximizdə müstəsna yer tutur. Ulu öndər Azərbaycan tarixində yeni parlaq səhifə açan nadir şəxsiyyət olmuşdur. 1993-cü ilin yayında Azərbaycan xalqı son imdad yeri kimi öz böyük oğlu Heydər Əliyevə üz tutanda da ölkəmiz "olum, ya ölüm" dilemması qarşısında qalmışdı. Heydər Əliyev Azərbaycanı yox olmaqdan qurtardı, müstəqilliyimizi dönməz etdi, sabitlik və təhlükəsizliyin qarantı oldu, respublikamızı inkişafa, firavanlığa doğru addımlayan, dünya birliyində layiqli yerini tutmuş bir dövlətə çevirdi.**

Azərbaycan xalqının ümummilli lideri, görkəmli dövlət xadimi Heydər Əliyevin zəngin nəzəri irsində və möhtəşəm fəaliyyətində təhsil məsələləri xüsusi yer tutur. Ulu öndərimiz ölkənin və xalqın taleyində, hərtərəfli tərəqqisində, uğurlar qazanmasında təhsilin xüsusi rolunu, əhəmiyyətini həmişə nəzərə almış, yüksək dəyərləndirmişdir. Dahi rəhbər deyirdi: "Hər bir dövlət əgər istəyirsə ki, öz ölkəsinin inkişafını təmin etsin, öz millətinin elmini, mədəniyyətini dünya standartlarına çatdırsın, o mütləq, hər şeydən çox, təhsilə fikir verməlidir, təhsilin inkişafına səy göstərməlidir, təhsil üçün bütün imkanları yaratmalıdır". Ulu öndərimiz həm təhsilin məzmunu, mahiyyəti, məqsədləri, səmərəli təşkili, müəllim əməyinin şərəfi, şagirdlərin və tələbələrin vəzifələri barədə dəyərli fikirlər söyləmiş, həm də Azərbaycan təhsilinin hərtərəfli yüksəlişi qayğısına qalmış, illər boyu bu sahədə böyük inkişafa rəvac verən sistemli tədbirlər həyata keçirmişdir.

İstər Azərbaycana birinci, istərsə də ikinci rəhbərliyi dövründə ümummilli lider Heydər Əliyev daim təhsilə, tərbiyəyə strateji sahə kimi baxmış, Vətənin, xalqın tərəqqisində onların roluna yüksək qiymət vermişdir. "Təhsil sahəsi xalqımızın bu günü, millətimizin, dövlətimizin gələcəyi üçün ən vacib bir sahədir", - deyən müdrik rəhbər Azərbaycan təhsilinin inkişafı naminə son dərəcə böyük işlər görmüşdür. Böyük dövlət xadimi təhsilə yalnız savad, bilik qazanmaq, elm öyrənmək imkanı kimi baxmamış, bütövlükdə, hər bir insanın həyatını düzgün qurmasında, fəal vətəndaş mövqeyinin formalaşmasında, cəmiyyətdə gedən tərəqqi prosesində yaxından iştirak etməsində təhsilin mühüm rola malik olduğunu önə çəkərək demişdir: "Həyat böyük bir prosesdir. Bu prosesdə uğurla iştirak etmək üçün insan müasir tələblərə uyğun olan təhsilə malik olmalıdır".

Heydər Əliyev siyasətçi və dövlət xadimi kimi şərəfli missiyanı gerçəkləşdirdi: müstəqil Azərbaycan dövlətinin memarı oldu və bu tarixi öz əməlləri ilə yazdı. Heydər Əliyevin həyatı və fəaliyyəti Azərbaycan tarixinin bir hissəsi və bələgətsiz deyə bilərik ki, bu tarixin ən şanlı səhifələrindəndir. Bu şəxsiyyətin həyatını öyrənmək, onun gördüyü işlərin, reallaşdırdığı layihələrin tarixi əhəmiyyətini dərk etmək özü böyük bir tarix məktəbini bitirmək deməkdir. Ulu öndər Azərbaycana rəhbərlik etdiyi bir qərinədən artıq dövrdə ölkənin həyatında, xalqın taleyində elə bir əzəmətli rol oynayıb ki, bu, əsrlər boyu unudulmayacaq. Respublikamızın hər bir bölgəsində Heydər Əliyevin quruculuq fəaliyyətinin silinməz izləri var. Ulu öndər həmişə həyatı boyu xalqa arxalanmışdır: "Mənim həyat amalım bütün varlığım qədər sevdiyim Azərbaycan xalqına, onun mənəvi inkişafına xidmət olub. Bu yolda bütün gücümü və iradəmi yalnız müdrik və qədirbilən xalqımdan almışam, ən çətin anlarda, ən mürəkkəb vəziyyətlərdə yalnız və yalnız xalqıma arxalanmışam. Bu da mənə dözüm, iradə verib və bütün uğurlarımı təmin edib".

Azərbaycan xalqının taleyində böyük əhəmiyyət daşıyan elə günlər vardır ki, həmin günlərdə onun gələcək həyatını müəyyən edən böyük başlanğıcların əsası qoyulub. Müxtəlif tarixi hadisələrlə əlamətdar olan belə günlərdən ən önəmlisi 1993-cü ilin 15 iyun günüdür. Tariximizə Milli Qurtuluş Günü kimi daxil olmuş bu gün xalqımız üçün çox əzizdir. Milli Qurtuluş Günü sadəcə təqvim bayramı deyil, böyük ictimai, siyasi və tarixi əhəmiyyətə malik bir gündür. Vətənini, xalqını sevən, həmin çətin, ağrılı günlərin dəhşətlərini yaşayan, hadisələri gözləri ilə görən insanlar üçün 15 iyun əsl qurtuluş tarixi, Azərbaycan xalqının ölüm-dirim mübarizəsinin tarixidir. Bu tarixi yaradan isə Azərbaycanın inkişafında, müstəqilliyində, gələcəyində müstəsna rol oynayan, daim xalqına arxalanan və xalqına arxa, dayaq olan bir insan - Heydər Əlirza oğlu Əliyevdir.

15 iyun müasir Azərbaycan dövlətinin tarixinə Milli Qurtuluş Günü kimi daxil olmuşdur. Sonralar ölkənin ali qanunvericilik orqanı xalqın ən müxtəlif təbəqələrinin arzu və istəklərini nəzərə alaraq Heydər Əliyevin hakimiyyətə qayıtdığı 15 iyun gününü əbədiləşdirmişdir. 15 iyun - Qurtuluş Günü Azərbaycan Milli Məclisinin qərarı ilə 1997-ci ilin 27 iyununda rəsmiləşdirildi. Milli Məclisin həmin tarixi qərarında deyilir: "Azərbaycan xalqının azadlığının, müstəqil dövlətçiliyinin müqəddəratının həll edildiyi ən ağır günlərdə Heydər Əliyevin öz xalqının iradəsinə tabe olaraq ölkə rəhbərliyinə qayıtması, əslində, onun müstəqil Azərbaycan Respublikasını, Azərbaycan xalqını, milli azadlıq hərəkatında qazanılmış tarixi nailiyyətləri məhv olmaqdan xilas etmək kimi çox çətin və şərəfli missiyanı könüllü olaraq öz üzərinə götürməsi idi". Bu, sözün əsl mənasında, "ömrümün qalan hissəsini də xalqıma qurban verirəm" deyib meydana atılan böyük ürəkli Vətən oğlunun öz xalqı, öz Vətəni qarşısında misilsiz fədakarlığı idi".

Düz 25 il bundan əvvəl, yəni 1993-cü il iyun ayının əvvəlində ölkəmizdə cərəyan edən hadisələr hər birimizin yadındadır. Həmin vaxt Azərbaycan dövlətçiliyi və müstəqilliyi görünməmiş təhlükə qarşısında idi. Siyasi və iqtisadi böhranla üzləşmiş ölkəmizdə vəziyyət olduqca ağır idi. Azərbaycan öz tarixinin çox çətin dövrünü yaşayırdı. Ölkəmiz elə vəziyyətə düşmüşdü ki, bir daha dirçələcəyinə gümanımız yox idi. Azərbaycanın bir dövlət kimi mövcudluğu şübhə altında idi. Elə bir xaos, özbaşınalıq şəraiti yaranmışdı ki, bundan baş çıxarmaq hər kəsin işi deyildi. Respublikamızda sabitliyin bərpa olunacağına ümid yox idi. Xalq daha ağır günə düşə bilərdi. Daha bir addım bəs idi ki, xalq dərin uçuruma yuvarlansın. Problemlər baş alıb gedirdi. Həmin problemləri aradan qaldıra biləcək yeganə qüvvə isə yalnız Heydər Əliyev şəxsiyyəti ola bilərdi.

Ölkəni görünməmiş bəlalardan xilas etmək üçün lazım olan enerji, müdriklik və uzaqgörənlik yalnız bu nadir insanda var idi. Ümidlər yalnız ona idi. Ölkədəki özbaşınalıqdan cana yığılan, belə yaşayışın mümkünsüzlüyünü dərk edən xalq ayağa qalxdı və əldən getməkdə olan müstəqilliyin nicatını ancaq böyük şəxsiyyət və siyasətçi Heydər Əliyevdə görərək onu təkidlə Bakıya dəvət etdi. Xalqın çağırışına heç vaxt biganə qalmayan ulu öndərimiz 1993-cü il iyunun 9-da Naxçıvandan respublika paytaxtına gəldi və iyunun 15-də Ali Sovetin sədri seçildi. Həmin gün müstəqil dövlətçilik tarixinin ikinci dövrü başlandı. Ölkə onu gözləyən fəlakətlərdən, daxili və xarici antiazərbaycan qüvvələrin qəsdlərindən, vətəndaş müharibəsindən, dövlətçiliyin məhvindən xilas oldu.

Azərbaycanın çox zəngin və şərəfli tarixi var. Bu tarix öz yaddaşında xalqın taleyini müəyyənləşdirmiş nadir şəxsiyyətləri əbədi yaşadır. Heydər Əliyev onların ən görkəmlisi, ən qüdrətlisidir.Təkcə Azərbaycanın deyil, bütün dünyanın taleyinə həlledici təsir göstərən nəhəng siyasətçilər və dövlət xadimləri arasında Heydər Əliyev öz dühası, müdrikliyi ilə xüsusi yer tutmuş, hələ sağlığında ikən əfsanəyə dönmüş, bəşəri miqyas kəsb etmişdir.

Heydər Əliyevin adı və şərəfli həyatı öz Vətəninə, xalqına məhəbbətin təkrarsız təcəssümü, millətə və dövlətə xidmətin misilsiz nümunəsi kimi əsrlər boyu yaşayacaq, Azərbaycanın indiki və gələcək nəsilləri üçün əbədi örnək olacaqdır. Heydər Əliyev canından çox sevdiyi xalqına möhkəm dövlətçilik təsisatlarına malik demokratik və bəşəri dəyərlərə sadiq, dünya birliyində layiqli yer tutan müasir, müstəqil Azərbaycan bəxş etdi. Ən yeni tariximizin 35 il məhz onun şərəfli adı, nəhəng siyasi fəaliyyəti ilə bilavasitə bağlıdır. Bu illərdə ölkəmizin qazandığı bütün uğur və nailiyyətlər, inkişaf və tərəqqi, xalqımızın milli mənliyinin formalaşması Heydər Əliyev dühasının bəhrəsidir. Biz çox xoşbəxtik ki, qismətimizə onun kimi dahi və nadir şəxsiyyətlə, qüdrətli lider və dövlət rəhbəri ilə eyni dövrdə yaşamaq səadəti nəsib olmuşdur.

Heydər Əliyev Azərbaycan dövlətinin, xalqının bir millət kimi yetkinləşməsində müstəsna əhəmiyyət kəsb etdiyindən tarixinin parlaq şəxsiyyətlərindən birinə çevrildi. XX əsrdə ikinci dəfə müstəqilliyinə nail olmuş demokratik Azərbaycan dövlətinin qurulması istiqamətindəki xidmətləri yüksək idarəçilik təcrübəsinə malik olan ümummilli liderimizin böyük tarixi şəxsiyyət olduğunu təsdiq etdi. 1993-cü ildə xalqın təkidli tələbi ilə onun hakimiyyətə qayıdışından sonra Azərbaycanda demokratik təsisatların yaranmasına meydan verildi. Məhz həmin dövrdən Azərbaycanda iqtisadi islahatların aparılması, bazar iqtisadiyyatının inkişafı üçün normativ-hüquqi bazanın yaradılması, Azərbaycana irihəcmli investisiyaların cəlb edilməsi, sahibkarlığın inkişafı üçün dövlətin qayğı və himayəsi, beynəlxalq maliyyə qurumları ilə əlaqələrin genişləndirilməsi ümummilli liderimiz Heydər Əliyevin gərgin və səmərəli əməyinin bəhrəsidir. 15 iyun - Milli Qurtuluş Günü heç vaxt azərbaycanlıların yaddaşından silinməyəcək həlledici bir gündür. Heydər Əliyevin yenidən siyasi hakimiyyətə qayıdışı kimi tarixə düşən bu gün Azərbaycanın müstəqil dövlət kimi tərəqqisinin başlanğıcı oldu. Azərbaycan xalqının tam müstəqil yaşamağa qadir olduğu və bu yoldan dönməyəcəyi bütün dünyaya sübut olundu. Həmin gündən başlayaraq bütün sahələrdə dönüş yarandı.

Milli Qurtuluşun müstəqil Azərbaycan dövləti, azərbaycançılıq ideologiyası və təfəkkürü, bütövlükdə sivil bəşəriyyətə qovuşmaq yolunu seçmiş xalqımız üçün mühüm tarixi, ictimai, siyasi, iqtisadi, beynəlxalq, hüquqi əhəmiyyəti olduqca böyükdür. İnamımızın, ümidimizin simvolu olan bu gün həm də təhlükəsiz sabaha açılan qapıdır. Müstəqillik tariximizin bu şanlı səhifəsini gələcək nəsillərə ibrət dərsi olmaq üçün həmişə vərəqləmək vacibdir.

Ümummilli liderimiz ömrünün bütün qalan hissəsini müstəqilliyimizin möhkəmlənməsinə sərf etdi. Ulu öndər bütün dünyaya bəyan etdi ki, yolumuz demokratiya yoludur və biz bu yoldan heç vaxt dönməyəcəyik. Azərbaycanın demokratiya yolunda qısa zaman ərzində əldə etdiyi nailiyyətlər dünyanın aparıcı dövlətləri və nüfuzlu beynəlxalq təşkilatları tərəfindən də yüksək qiymətləndirilir.

Bir xalqın və bir dövlətin tarixi üçün 25 il çox qısa zamandır. Amma həmin Qurtuluş Günündən ötən bu illər böyük dəyişikliklərlə yadda qalmışdır. Azərbaycan xalqı milli dövlətini yaratmış və özünün xilaskarının fəaliyyəti nəticəsində bu dövləti əbədi etmişdir. Əgər həmin gün, xalqın istəyi və tələbi ilə dövrümüzün müdrik tarixi şəxsiyyəti, təcrübəli və iradəli dövlət xadimi Heydər Əliyevin hakimiyyətə qayıdışı gerçəkləşməsəydi, indi biz müstəqil, qüdrətli, hər zaman tərəqqi edən, yeniləşən və demokratikləşən Azərbaycan dövlətindən danışa bilməzdik. Bu qayıdış Azərbaycanın müstəqilliyini dünya müstəvisində reallığa çevirdi. Bu, əsrlərin sınağından keçə-keçə min bir əziyyətlə, amma dönmədən məqsədinə doğru addımlayan bir millətin özünə qayıdışı idi. Bununla Azərbaycan özünün müstəqillik tarixinin daha şərəfli, daha əzəmətli bir mərhələsinə qədəm qoydu. Həmin mərhələnin baş memarı isə ümummilli liderimiz Heydər Əliyev idi.

15 iyun 1993-cü il Azərbaycan tarixində tarixə bərabər gün kimi səciyyələndirilməlidir. Bu gün ölkəmizin sürətli inkişafı, uğurları məhz Milli Qurtuluşun bəhrəsidir. Təsadüfi deyildir ki, 15 iyun - Qurtuluş Günü Milli Məclisin qərarı ilə 1997-ci il iyunun 27-də rəsmiləşdirildi. Həmin tarixi qərarda deyilir: "Azərbaycan xalqının azadlığının, müstəqil dövlətçiliyinin, müqəddəratının həll edildiyi ən ağır günlərdə Heydər Əliyevin öz xalqının iradəsinə tabe olaraq ölkə rəhbərliyinə qayıtması əslində onun müstəqil Azərbaycan Respublikasını, Azərbaycan xalqını, milli azadlıq hərəkatında qazanılmış tarixi nailiyyətləri məhv olmaqdan xilas etmək kimi çox çətin və şərəfli missiyanı könüllü olaraq öz üzərinə götürməsi idi".

1993-cü il 15 iyunun Azərbaycanın tarixinə Milli Qurtuluş Günü kimi yazılmasını şərtləndirən amillərə işıq salır. Ulu öndər Heydər Əliyev üçün ən böyük sevinc xalqın etimadı, Azərbaycanın müstəqilliyi, azadlığı, suverenliyi idi. O, 1993-cü ilin oktyabrında keçirilən andiçmə mərasimində bildirmişdir: "Azərbaycan xalqı öz tarixinin ən mürəkkəb, faciəli dövrünü yaşayır. Məhz bu dövrdə mənim üzərimə qoyulan bu vəzifənin məsuliyyətini dərindən dərk edirəm və əmin etmək istəyirəm ki, bütün fəaliyyətimi, bütün həyatımı bu etibarı doğrultmaq, xalqın ümidlərini doğrultmaq işinə həsr edəcəyəm".



Prezidentliyinin ilk mərhələsində həyata keçirdiyi islahatlar, böhran içərisində qalan Azərbaycanın iqtisadiyyatının gücləndirilməsi istiqamətində həyata keçirdiyi genişmiqyaslı quruculuq işləri xalqın gələcəyə olan inamını daha da artırdı. Ulu öndər Heydər Əliyev sabitliyi hər bir inkişafın əsası kimi önə çəkərək, ölkədə ictimai-siyasi sabitliyin qorunmasını hər kəsin vətəndaşlıq borcu olduğunu bildirdi. Uğurlu siyasət Azərbaycanı qısa müddətdə sabitlik məkanına çevirdi, ölkəmizlə iqtisadi əlaqələrin qurulmasında maraqlı olan dövlətlərin sayı artmağa başladı. Ulu öndər Heydər Əliyevin gərgin səyləri nəticəsində 1994-cü il mayın 12-də atəşkəs sazişinin imzalanması bu sabitliyin daha da möhkəmləndirilməsinin, Azərbaycanın bugünkü uğurlarının stimulu oldu. Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra Azərbaycanda demokratik təsisatların yaradılmasına meydan verildi. Ümummilli lider ilk növbədə siyasi bacarığı və gücü ilə ölkəni vətəndaş müharibəsi təhlükəsindən, seperatizmdən, ictimai-siyasi pərakəndəlikdən və anarxiyadan xilas etdi, xalqı yenidən vahid məfkurə ətrafında birləşdirdi.

Azərbaycan yalnız böyük öndərin qayıdışından sonra özünün geosiyasi imkanlarını gerçəkləşdirə bildi. Heydər Əliyevin dərin siyasi zəkası sayəsində Azərbaycanın beynəlxalq aləmdən təcrid olmaq təhlükəsi arxada qaldı, ölkəmiz dünyada özünə layiqli yer tutdu. Respublikamızın ictimai-siyasi, sosial-iqtisadi, elmi-mədəni həyatında dönüş yarandı, sivil və hüquqi dövlət quruculuğu işlərinə başlandı. Milli Ordunun formalaşması, nizami silahlı qüvvələrin yaradılması, torpaqlarımızın müdafiəsi ilə bağlı mühüm addımlar atıldı, cəbhədə atəşkəsə nail olundu.

Ümummilli liderimiz Heydər Əliyevin Azərbaycan tarixindəki rolu haqqında dünya siyasətinin tanınmış simalarından olan Türkiyənin doqquzuncu prezidenti Süleyman Dəmirəlin dəyərli sözlərini xatırlayıram: "Çörçill ingilis millətinə 40 il xidmət etdi, ancaq bu, xidmətin sonunda, 1940-cı ildə lazım oldu. O zaman Çörçillin edəcəyi xidməti göstərəcək ikinci adam yox idi. Bəşər tarixində insanlar hər zaman millətinə xidmət edir, ancaq bəzən lazım olurlar. Ruzveltin 1942-ci ildə, de Qollun 1958-ci ildə, Adenauerin 1946-cı ildə lazım olduğu kimi... Hörmətli Heydər Əliyev Azərbaycan millətinə çox xidmət etmişdir, amma 1993-cü ildə lazım idi. Onun gördüyü işi görəcək başqa heç kim yox idi. Yaxşı ki o vardı!.."

Möhtərəm Heydər Əliyevin xalqımızın və dövlətimizin taleyində, tarixində təkrarolunmaz rolu bizə haqq verir ki, onu Azərbaycanın bütün dövrlərdə yetişdirdiyi şəxsiyyətlərin ən ucası, ən dəyərlisi, ən böyüyü adlandıraq!

Ümummilli liderimizin həyata keçirdiyi xilaskarlıq missiyası xalqımızın və bütün dünyanın gözü qarşısında cərəyan etmiş, ölkəmizi gələcəyə inamla baxan güclü bir dövlətə çevirmişdir. Bu gün isə Azərbaycan cənab İlham Əliyevin rəhbərliyi altında aydın bir yolla öz parlaq sabahlarına doğru addımlayır. Bu yol Heydər Əliyev yoludur. Bəli, tam əminliklə demək olar ki, Azərbaycanın gözəl gələcəyi var. Bu gələcəyin təməli isə məhz 25 il əvvəl, 1993-cü ilin 15 iyununda qoyulub.

**Vaqif ƏMİRASLANOV,**
**Bakı Humanitar Kollecinin direktoru,**
**tarix üzrə fəlsəfə doktoru,**
**YAP üzvü.**

# Qanunçuluğun və hüquq qaydasının möhkəmləndirilməsində daxili işlər orqanlarının rolu

**Qanunçuluq və hüquq qaydası hüquq nəzəriyyəsi elminin tədqiqat predmetinə daxil olan əsas mövzulardan biridir. Cəmiyyətin hüquqi sistemində bu kateqoriyaların qarşılıqlı əlaqəsi və bir çox ümumi əlamətlərə malik olması inkaredilməzdir. Qanunçuluq və hüquq qaydasının eyni prinsiplər əsasında formalaşması, siyasi hakimiyyətlə bağlılığı, vətəndaşların hüquq və azadlıqları, vəzifələri ilə uzlaşması, normativlik xüsusiyyəti təhlil olunan bu hüquqi hadisələrin ümumi aspektlərini xarakterizə edir. Lakin ümumi cəhətlərə malik olması heç də bizə bu hüquqi kateqoriyaları eyniləşdirməyə əsas vermir.**

Təsadüfi deyildir ki, gündəlik ictimai-siyasi leksikonda bu iki kateqoriya əsasən birlikdə işlədilir. Məsələn: qanunçuluq və hüquq qaydasının möhkəmləndirilməsi.

Hüquq qaydası ölkədə qanunçuluq vəziyyətinin real göstəricisi, onun nəticəsidir.

Qanunçuluq və hüquq qaydası mühüm sosial dəyərlər kimi, ictimai və dövlət həyatında özbaşınalığın, sui-istifadə hallarının, sosial ziddiyyətlərin qarşısını alır, ümumilikdə cəmiyyəti xaos və anarxiyadan, zorakılıqdan qoruyur.

Azərbaycan Respublikasının qanunvericilik sistemi hüququn demokratik prinsipləri, ümumbəşəri dəyərlər əsasında formalaşır. Bu da öz növbəsində ölkəmizdə qanunçuluğun daha da möhkəmləndirilməsi üçün yaxşı zəmin yaradır.

Azərbaycan Respublikasının qanunvericilik sistemində ən yüksək hüquqi qüvvəyə malik olan qanun Konstitusiyamızdır. Məhz bu baxımdan, Azərbaycan Respublikasında qanunçuluğun məzmununa onun mühüm elementi kimi konstitusiya qanunçuluğu anlayışının da daxil edilməsi xüsusi önəm kəsb edir.

XX əsrin 90-cı illərində Azərbaycanda mövcud olan vəziyyət buna əyani sübutdur. Həmin dövrdə ölkədə tüğyan edən cinayətkarlıq, qanunsuz silahlı dəstələr, dövlət aparatında özlərinə yuva qurmuş siyasi intriqantların məkrli niyyətlərini həyata keçirən müxtəlif qruplar və bandalar vətəndaşlarımızın həyatı, həmçinin dövlətimizin müqəddəratı üçün əsas təhlükəyə çevrilmişdilər və dövlət hakimiyyətində təmsil olunan şəxslər qanunçuluq rejimini təmin etməyə qadir deyildilər.

1993-cü ildə Azərbaycan xalqının təkidli tələbi ilə yenidən siyasi hakimiyyətə gələn ümummilli lider Heydər Əliyev bu sahədəki problemlərin aradan qaldırılmasını əsas vəzifələrdən biri kimi müəyyən etdi və bu məqsədlə ölkədə qanunçuluq rejiminin təmin olunmasında daxili işlər orqanlarının xüsusi rolunu nəzərə alaraq ilk növbədə bu orqanların daxilən təmizlənməsini, onların öz vəzifələrinin icrası ilə məşğul olaraq siyasi oyunlara qarışmamalarını vacib tələb kimi ortaya qoydu.

Ulu öndərin sədrliyi ilə 1994-cü il aprelin 29-da xüsusi müşavirə keçirildi və Heydər Əliyev daxili işlər orqanlarındakı mənfi təzahürləri ayrı-ayrı rəhbər şəxslərin səriştəsiz fəaliyyəti, onların işində şəxsi maraqların vəzifə borclarından önə keçməsi ilə əsaslandırdı. Aprel müşavirəsindən sonra bu orqanın fəaliyyətində əsl inqilabi dəyişikliklər baş verdi. Daxili işlər orqanlarının bütün şəxsi heyəti vəzifə səlahiyyətlərini layiqli formada həyata keçirməyə səfərbər oldu. Ümummilli liderin 1994-cü ildə imzaladığı "Cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi, qanunçuluğun və hüquq qaydasının möhkəmləndirilməsi tədbirləri haqqında" tarixi fərmanla ölkədəki mütəşəkkil cinayətkarlıqla mübarizənin başlanğıcı qoyuldu. Ölkədə siyasi sabitlik yaradıldı, cinayətkarlığın artan dinamikasının qarşısı alındı, əməkdaşların cinayətkarlığa qarşı mübarizədə, ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təminində, daxili sabitliyin yaradılması sahəsində qanunla müəyyən edilmiş vəzifələrini layiqincə yerinə yetirməsi nəticəsində insan və vətəndaş hüquq və azadlıqlarının etibarlı təminatı üçün yaxşı zəmin yaradıldı, qanunçuluq rejimi bərqərar oldu.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev respublikaya rəhbərliyinin ilk günlərindən ulu öndər Heydər Əliyevin daxili işlər orqanlarına diqqət və qayğı siyasətini davam etdirmiş, bu strukturda fəal inkişaf tempinin saxlanılmasına, daha böyük nailiyyətlərin əldə edilməsinə lazımi şərait yaratmışdır. Azərbaycan Respublikasının daxili işlər naziri, general-polkovnik Ramil Usubovun rəhbərliyi altında daxili işlər orqanlarının əməkdaşları tərəfindən cinayətkarlıqla mübarizə, ictimai asayişin qorunması və ictimai təhlükəsizliyin təmini vəzifələri uğurla yerinə yetirilmiş, ölkədəki kriminogen durum nəzarətdə saxlanılmışdır.

Görülən işlərin nəticəsidir ki, respublikamız cinayətkarlığın səviyyəsinə görə uzun illərdir ki, MDB və Şərqi Avropa məkanında ən təhlükəsiz və sabit ölkələrdən biri hesab olunur.

Qanunçuluğun möhkəmləndirilməsi kimi, hüquq qaydasının da möhkəmləndirilməsi vətəndaş cəmiyyəti quruculuğunun vacib şərtlərindən biridir.

Hüquq qaydası anlayışına yaxın olan, lakin özünəməxsusluğu ilə fərqlənən kateqoriya ictimai qaydadır. Hüquq qaydası kimi bu kateqoriya da ictimai münasibətlərin nizamlı xarakteri ilə səciyyələnir.

İctimai qayda - ictimai yerlərdə insanların ünsiyyəti prosesində yaranan və sosial normalarla tənzimlənən ictimai münasibətlər sistemidir.

İctimai təhlükəsizlik insanların hüquq və azadlıqlarının, qanuni maraqlarının, mülkiyyətinin, cəmiyyətin və dövlətin davamlı inkişafını təmin edən maraqların mühafizə olunma vəziyyətidir. İctimai təhlükəsizliyin təmin edilməsi polisin fəaliyyətinin əsas istiqamətlərindən və əsas vəzifələrindən biri olaraq insan və vətəndaş hüquq və azadlıqlarına qarşı yönəlmiş ictimai təhlükəli hadisə və ya əməllərin yaratdığı təhlükənin azaldılması, qarşısının alınması və aradan qaldırılmasına istiqamətlənmiş tədbirlərin həyata keçirilməsini nəzərdə tutur.

Müasir dövrdə həyatımızdakı ictimai münasibətlər daha dinamikdir. Ötən illərlə müqayisədə cəmiyyətimizdə mövcud olan ictimai münasibətlər bir çox obyektiv məqamlar nəzərə alınmaqla, tənzimlənmə metodlarının da uyğunlaşdırılmasını zərurətə çevirmişdir. Daha dəqiq desək, respublikamızda ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin edilməsi işinin təşkili özlüyündə belə sosial tələbata cavab verməlidir. Sosial dünyanın xüsusi sferası olan cəmiyyətimiz də vətəndaşlarımızın həyat fəaliyyətinin tarixən inkişaf edən formalarını özündə ehtiva etməklə, özünün dayanıqlığı və inkişafı üçün mühafizə olunmasını tələb edir. Məhz bu kimi sosial sifarişlər daxili işlər sahəsində dövlət idarəetməsinin həyata keçirilməsi ilə icra edilir. Təcrübi olaraq, vətəndaşlarımızın konstitusion mənafeləri DİO-nun funksiyasından irəli gələrək polisin fəaliyyət istiqamətləri əsasında təşkiletmə fəaliyyəti prosesində təmin edilir. Qeyd olunması zəruridir ki, mahiyyətcə ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin edilməsi dövlət orqanlarının və ictimai qurumların fəaliyyəti, vətəndaşların əməyi və istirahəti üçün normal şəraitin yaradılmasına xidmət edir. Ötən əsrin 90-cı illərində respublikamızda ictimai asayişin arzuolunmaz vəziyyəti vətəndaşlarımızın ictimai yerlərdə sərbəst hərəkət etmələrinə, ölkə ərazisində rahat yerdəyişmələrinə və s. formada öz mənfi təsirini göstərmişdir. Ümummilli liderimiz Heydər Əliyevin hakimiyyətə qayıdışından dərhal sonra həyata keçirilən siyasi-hüquqi tədbirlər nəticəsində respublika ərazisində ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin edilməsi işi öz müsbət nəticəsini vermişdir. Məhz bu fəaliyyət istiqamətinin gerçəkləşməsi vətəndaşların təhlükəsiz yaşamaq kimi fundamental hüquqlarının yüksək səviyyədə təminatçısı olmuşdur. Bu gün də daxili işlər orqanları əməkdaşlarının səyi nəticəsində cəmiyyətin davamlı və stabil inkişafının əsası olan ictimai-siyasi sabitlik təmin edilərək cinayətkarlığa və digər hüquqpozmalara qarşı mübarizə işi daha qətiyyətli və kəsərli formada həyata keçirilir. Təsadüfi deyildir ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev polisin fəaliyyətinə yüksək qiymət verərək qeyd etmişdir: "Bu gün Azərbaycan polisi öz vəzifə borcunu layiqincə icra edir. Azərbaycanın hərtərəfli inkişafında, ictimai asayişin qorunmasında, sabitliyin saxlanılmasında çox önəmli rol oynayır. Azərbaycanın iqtisadi potensialının artması ölkədə bərqərar olunmuş sabitliyin nəticəsidir".

Yuxarıda mahiyyəti və əhəmiyyəti barədə qeyd etdiyimiz qanunçuluq və hüquq qaydası anlayışına yaxın olan kateqoriyalardan biri də dövlət intizamıdır.

Daxili işlər orqanlarının xidməti intizamı-əməkdaşlar tərəfindən həvalə olunmuş vəzifələri nümunəvi yerinə yetirməkdən, Azərbaycan Respublikasının Konstitusiyasına, qanunlarına, digər normativ-hüquqi aktların tələblərinə, öz rəhbərlərinin əmr və göstərişlərinə əməl etməkdən ibarətdir.

DİO-nun hər bir əməkdaşı etik normalara ciddi əməl etməli, insan hüquqlarına hörmətlə yanaşmalı, başqalarını hüquq qaydasını pozmaqdan çəkindirməli, insan və vətəndaş hüquqlarını müdafiə etməli, səmimi və nəzakətli olmalı, daim peşəkarlıq səviyyəsini artırmalıdır.

Daxili işlər orqanlarında yüksək nizam-intizama, mənəviyyata, əxlaqa, ailə tərbiyəsinə malik, vətəndaşlarla ünsiyyətdə nəzakətli və qayğıkeş olan əməkdaşların xidmət göstərməsi daim Daxili İşlər Nazirliyi rəhbərliyinin diqqət mərkəzindədir. Bu tələbkarlıq nəticəsində daxili işlər orqanlarında hər il nizam-intizamın daha da güclənməsi və intizam qaydasını pozan əməkdaşların sayının azalması müşahidə olunur.

Hüquqi dövlətdə qanunçuluq və hüquq qaydasının səmərəli təminat sistemi mövcuddur. Burada iqtisadi, siyasi, mənəvi və hüquqi təminatlar fərqləndirilir.

Hüquqi təminatlar qanunçuluğun və hüquq qaydasının hər cür pozulmasına yönələn əməllərin vaxtında aşkar edilməsi və qarşısının alınmasına dair müvafiq dövlət orqanlarının xüsusi fəaliyyətidir. Onun həyata keçirilməsi ilə qanunvericilik, icra və məhkəmə hakimiyyəti orqanları məşğul olur.

Bir sözlə, ictimai münasibətlərin daha ahəngdar və intensiv inkişafı cinayətkarlığın kəmiyyət və keyfiyyət göstəricilərinin də dəyişməsinə səbəb olur. Belə bir vəziyyətdə cinayətkarlıqla mübarizənin daha səmərəli aparılması, qanunçuluğun qorunması, ölkədə əlverişli iqtisadi-siyasi, sosial inkişafın davamlı olması üçün asayişin mühafizəsinin peşəkarlıqla həyata keçirilməsi, polis-vətəndaş münasibətlərinin daha yüksək səviyyəyə qaldırılması məqsədi ilə daxili işlər orqanlarında əhəmiyyətli struktur islahatları aparılmışdır. Daxili İşlər Nazirliyi sistemində Daxili Təhqiqatlar, Şəxsi Heyətlə İş, Beynəlxalq Əməkdaşlıq, Daxili Təhlükəsizlik, İnsan Alverinə Qarşı Mübarizə, Miqrasiya idarələrinin, Mətbuat Xidmətinin təsis edilməsini misal göstərmək olar. Ölkə başçısının 12 mart 2007-ci il tarixli "Polis sahə məntəqələrinin fəaliyyətinin təkmilləşdirilməsi haqqında" Sərəncamı bu sahədə aparılan işləri daha da canlandıraraq, daxili işlər orqanlarının fəaliyyətinin müasir forma və metodlarla həyata keçirilməsinə zəmin yaratmışdır. Bu sərəncamın tələblərindən irəli gələrək polis orqanlarının nəzdində yeni struktur vahidi - inzibati sahələr yaradılmışdır.

Növbəti uğurlu layihələrdən biri kimi cinayətlərin, yol-nəqliyyat hadisələrinin, ictimai qaydanın və ictimai təhlükəsizliyin pozulmasının qarşısının alınmasında böyük rolu olan və paytaxt ərazisinə videonəzarəti təmin edən "Təhlükəsiz şəhər" Avtomatlaşdırılmış İdarəetmə Sisteminin tətbiqini göstərmək yerinə düşərdi.

Cinayətlərin qeydə alınması və qarşısının alınması işində ictimaiyyətlə əlaqələrin daha effektli təşkili məqsədi ilə yaradılmış 102 xidmətinin fəaliyyəti də xüsusilə qeyd edilməlidir. Bu xidmətin səyi nəticəsində cinayətlərin qeydiyyatı və qarşısının alınması daha dinamik hal almış, latent cinayətlərin sayı azalmışdır.

Daxili işlər orqanlarında aparılan islahatlar, təbii ki, qanunçuluğun və hüquq qaydasının möhkəmləndirilməsində öz müsbət nəticəsini verir. Lakin dünya təcrübəsi göstərir ki, ölkənin hüquq-mühafizə sistemi nə qədər təkmil olsa belə, cəmiyyətin demokratiya və hüquqi mədəniyyəti zəifdirsə və o, ictimai asayişin mühafizəsini yalnız polisin vəzifəsi hesab edərək özünü bu işdən kənarlaşdırarsa, yüksək nəticələr əldə etmək olduqca çətindir.

Bu gün artıq heç kəsdə şübhə doğurmur ki, ictimai asayişin, insan hüquqlarının mühafizəsində cəmiyyətin də rolu danılmazdır. Bu baxımdan ölkəmizdə ictimai asayişin mühafizəsində səmərəli fəaliyyəti təmin etmək məqsədi ilə daxili işlər orqanları ictimaiyyəti də bu işə cəlb etmək üçün müəyyən tədbirlər görür. Azərbaycanda həyata keçirilən "İctimai polis" layihəsini bu əməkdaşlığın bariz nümunəsi kimi göstərmək olar.

"İctimai polis" layihəsinin əsas vəzifəsi polis ilə cəmiyyət arasında əlaqələri yaxınlaşdırmaq və inkişaf etdirməkdən ibarətdir.

Sosial nəzarət mexanizmlərinin yaradılması sahəsində həyata keçirilən mütərəqqi nailiyyətlərdən biri kimi polis orqanlarında yeni yaradılmış inzibati sahələrdə hüquq qaydasının təmini üzrə İctimai Şuraların təsis edilməsi oldu.

Daxili işlər orqanlarında müasir dövrün tələblərinə müvafiq funksional vəzifələrin daha səmərəli yerinə yetirilməsi üçün hər cür imkan və şərait yaradılmışdır. Müasir dövrün tələbinə uyğun islahatların aparılması, maddi-texniki bazanın və şəxsi heyətin sosial müdafiəsinin gücləndirilməsi işi də mühüm əhəmiyyət kəsb etmişdir. Əməliyyat-axtarış xidməti fəaliyyətində, təlimdə və təhsildə böyük önəm daşıyan xüsusi texnika, avadanlıq və vasitələr alınmış, yeni informasiya texnologiyalarının tətbiqinə başlanmışdır. Təcrübə göstərir ki, daxili işlər orqanlarının maddi-texniki təchizatının lazımi səviyyədə olması, müvəqqəti saxlama yerlərində şəraitin standartlara cavab verməsi, əməkdaşların fiziki və mənəvi cəhətdən sağlam olması ölkədə qanunçuluğun və hüquq qaydasının səmərəli qorunması üçün əsas şərtlərdəndir.

Qanunçuluğun və hüquq qaydasının möhkəmləndirilməsi sahəsində öz üzərinə düşən vəzifələrin layiqincə yerinə yetirilməsi üçün daxili işlər orqanlarının əməkdaşları peşəkar hüquq mədəniyyətinə malik olmalıdırlar.

Daxili işlər naziri, general-polkovnik Ramil Usubovun təbirincə desək, peşəkarlıq - məşğul olduğun sahədə işi yüksək səviyyədə təşkil etmək, lazımi biliklərə, nəzəri və praktiki hazırlığa malik olmaq, problemləri görmək və onları aradan qaldırmağı bacarmaq, həlli vacib olan məsələləri dəqiq müəyyənləşdirib yerinə yetirmək, müasir iş metodlarına yiyələnmək və onları praktiki fəaliyyətdə tətbiq etmək, xidməti vəzifələrin icrasına vicdanla, böyük məsuliyyətlə yanaşmaqdır.

Bu mühüm istiqamətdə qarşıda duran vəzifələrin uğurla həyata keçirilməsində nazirliyin Polis Akademiyası da çox mühüm rol oynayır. Yüksəkixtisaslı hüquqşünas kadrlar hazırlayan bu xüsusi təyinatlı ali təhsil müəssisəsində beynəlxalq standartlar səviyyəsində hərtərəfli islahatlar aparılmış, zəngin fondu, elektron kataloqu olan kitabxana yaradılmışdır. Akademiyanın Bayrağı, habelə təhsildə fərqlənən və intizamı ilə seçilən kursantlar üçün "Heydər Əliyev" təqaüdü təsis edilmişdir. Akademiyanın qarşısında duran əsas vəzifə mükəmməl biliyə, yüksək mənəvi-psixoloji keyfiyyətlərə, xüsusi fiziki hazırlığa, möhkəm iradəyə və qətiyyətə malik polis zabitləri hazırlamaqdır. Nazirin tələbinə müvafiq olaraq, kursantlarda zabit qüruru, saf mənəviyyat formalaşdırmaq üçün xüsusi səylər göstərilir, tədris prosesində ən mükəmməl və praktikada özünü doğruldan metodlar tətbiq edilir, tələbələrə qətiyyət, vətənpərvərlik, humanizm kimi dəyərlər aşılanır.

Hazırda xidmətin müasir standartlar səviyyəsində təşkilinə yönəlmiş islahatların davam etdirilməsi qanunçuluğun, hüquq qaydasının təmin edilməsi, insan hüquq və azadlıqlarının etibarlı müdafiəsi, cinayətkarlığa qarşı mübarizənin uğurla aparılması fəaliyyətimizin əsas prioritetləridir. Bu sahədə sistemli şəkildə təşkilati-əməli işin həyata keçirilməsi, o cümlədən müasir və təkmil yeniliklərin tətbiq edilməsi, əməkdaşların həm peşəkarlıq səviyyəsinin artırılması, həm də mənəvi yetkinləşməsi üçün müvafiq tədbirlərin görülməsi davam etdirilir.

**Ceyhun SÜLEYMANOV,**
**DİN-in Polis Akademiyasının dövlət və hüquq nəzəriyyəsi kafedrasının rəisi, h.ü.f.d., dosent, Əməkdar müəllim, polis polkovniki.**

**Hikmət EYVAZOV,**
**DİN-in Polis Akademiyasının Elmi-tədqiqat və redaksiya-nəşriyyat şöbəsinin rəisi, h.ü.f.d., dosent, polis polkovnik-leytenantı.**

## 17 iyun Tibb işçiləri günüdür

# İnsanlar Mərkəzi Klinik Xəstəxanaya ümidlə gəlir



**Beynəlxalq standartlara cavab verən Mərkəzi Klinik Xəstəxana paytaxtın Parlament küçəsi 76-da yerləşir. Çoxmərtəbəli bu şəfa ocağına hər gün ölkəmizin ayrı-ayrı guşələrindən insan axını müşahidə olunur. Klinikanın geniş ərazisi, növ-növ ağac və gül kolları gələnləri heyran qoyur, ağxalatlı ömür keşikçiləri müayinə və müalicəyə gələn xəstələri sidq ürəklə qarşılayır, çalışırlar ki, səhiyyə xidməti onları razı salsın.**

**Biz tibb işçilərinin peşə bayramı ərəfəsində Mərkəzi Klinik Xəstəxanada olduq. Klinikanın baş direktoru, Azərbaycan Respublikasının Əməkdar həkimi İxtiyar SULTANOV bizi mehribanlıqla qarşıladı. Müsahibimiz bizi maraqlandıran hər bir suala dolğun və ətraflı cavab verdi. Qəlbindən süzülüb gələn sözləri ifadə edərək dedi:**

– Öz dövlət müstəqilliyini bərpa edən ölkəmizin çağdaş tarixi, müasir Azərbaycanın memarı ulu öndər Heydər Əliyevin cahanşümul əməlləri ilə yazılmışdır. Yeni Azərbaycanın elə bir sahəsi yoxdur ki, orada bu dahi ulu öndərin möhtəşəm imzası olmasın. Odur ki, bizim çalışdığımız səhiyyə sahəsi də məhz onun müdrik siyasətinin və qayğıkeş əməllərinin real nəticəsi kimi öz inkişaf mərhələlərini yaşayır.

Ümummilli liderin siyasi kursunun layiqli davamçısı olan möhtərəm Prezidentimiz cənab İlham Əliyevin başçılıq etdiyi müstəqil dövlət quruculuğunun iyirmi altı illik tarixinin əvvəlinə nəzər salanda, SSRİ-nin dağılması ilə o zamankı cəmiyyətimizin bütün sahələrdə, o cümlədən səhiyyə sistemində yaranmış ağır vəziyyət yada düşür. Yaxın keçmişimizin acı mənzərəsi kimi səhiyyə müəssisələrində texnoloji avadanlıqların və cihazların aşınmaya məruz qalması və bu səbəbdən ölkə vətəndaşlarına tələb olunan səviyyədə tibbi xidmətin göstərilə bilməməsi üzündən onların xarici ölkələrdəki klinikalara üz tutması, həmin ölkələrdə onlara ikinci dərəcəli şəxslər qismində münasibət, eləcə də yüksəkixtisaslı tibbi kadrların işdən getməsi, nəhayət, ölkədən böyük həcmdə valyuta kütləsinin xaricə axını faktları yada düşür. O da yada düşür ki, yaranmış gərgin vəziyyətə barışıb ölkədə qalan tibb mütəxəssisləri müasir dünya səhiyyəsində mövcud olan və fəaliyyəti üçün tələb olunan nəzəri və praktik bilikləri əldə edə bilmir, professional keyfiyyətlərini itirir, bütövlükdə isə ölkənin səhiyyə sistemində reqressiv proseslər az qala qarşısıalınmaz olurdu. Mövcud vəziyyət istər təşkilati, istərsə də təcrübi baxımdan ölkəmizdə yüksək səviyyəli səhiyyə müəssisəsinin yaradılması zərurətini aktuallaşdırdı və bu zaman tibb sahəsində çalışan on minlərlə insanla bərabər ölkəmizin digər vətəndaşları da ulu öndərin növbəti hamilik qayğısının şahidi oldular. Məhz ulu öndər ölkəmizin paytaxtında Mərkəzi Klinik Xəstəxananın yaradılması kimi müdrik qərarı ilə bu gün uğurları Azərbaycanın hüdudlarından kənarda belə tanınan fundamental səhiyyə ocağının fəaliyyətinə xeyir-dua vermiş oldu.

Ulu öndərin şəxsi səyləri ilə xəstəxananın binası qısa müddətdə (01.05.1999-01.03.2001-ci illərdə) beynəlxalq standartlara uyğun rekonstruksiya edilmiş və həmin dövrdən Səhiyyə Nazirliyinin tam təsərrüfat hesablı Mərkəzi Klinik Xəstəxanası adı ilə fəaliyyətə başlamışdır.

2007-ci ildə möhtərəm Prezidentimiz cənab İlham Əliyev tərəfindən xəstəxananın fəaliyyətinə ən ali səviyyədə yüksək etimad göstərilmiş və Mərkəzi Klinika adı altında Azərbaycan Respublikası Prezidentinin Xüsusi Tibb Xidmətinin tabeliyinə verilmişdir.

Bu gün 213 ədəd ümumi çarpayı fonduna, o cümlədən 139 stasionar, 19 reanimasiya, 9 ürək-damar cərrahiyyəsi reanimasiyası, 8 kardioreanimasiya, 11 uşaq reanimasiyası, 8 təcili yardım, 10 əməliyyat, 6 əməliyyatdan sonra müşahidə (recoveri) çarpayısı, 60-dan çox poliklinika və diaqnostika otağına malik olan, statisonar yüklü xidmətlərin həyata keçirilməsi nəzərdə tutulan Mərkəzi Klinikada bütün növ tibbi xidmətlər və mürəkkəb cərrahi əməliyyat və müdaxilələr həyata keçirilir.

Dövlətin daimi qayğısı nəticəsində dünyanın tibbi texnika istehsalçısı nəhəngləri kimi tanınan firmaların (Siemens, GE, Toshibo, Karl Storz və s.) son nəsil (2015, 2016-cı illər) avadanlıqları ilə təchiz olunmaqla, xəstəliklərin erkən diaqnostika və müalicəsi sahəsində texnoloji imkanlarına görə nəinki respublikamızın, hətta bəzi inkişaf etmiş ölkələrin klinikaları ilə bələ qabaqlayır.

Ümumiyyətlə, 16 tibbi, 8 qeyri-tibbi şöbənin fəaliyyəti elə səviyyədə təşkil edilmişdir ki, burada müvafiq profilli xəstəliklərin poliklinik və diaqnostik müayinələrindən tutmuş, mürəkkəb cərrahi əməliyyatlarınadək geniş tibbi xidmətləri həyata keçirmək mümkündür.

Belə ki, xəstəxananın ən öndə gedən şöbələrindən olan Kardiologiya və Kardiocərrahiyyə şöbələrində əvvəllər respublikamızda əlçatmaz hesab edilən tibbi xidmətlər, o cümlədən müasir ürək əməliyyatları, angioqrafiya, angioplastika, aritmiyaların müalicəsində katetr ablasiyası, süni ritm aparıcılarının implantasiyası, süni ürək köçürülməsi və sair kimi çoxsaylı mürəkkəb əməliyyatlar uğurla nəticələnmişdir.

Ginekologiya və Pediatriya şöbələrinin də fəaliyyəti diqqətəlayiqdir. Belə ki, ginekoloji xəstəliklərin, sonsuzluğun, riskli hamiləliklərin və bu sahədə genetik xəstəliklərin müalicəsində tibbin ən son texnika və texnologiyalarından istifadə olunmaqla böyük uğurlar əldə edilmişdir. Süni mayalanma, süni mayalanma zamanı genetik xəstəliklərin araşdırılması (PGD- Preimplantasion Genetik Diaqnostika), perenetal diaqnostika-hamiləlik dövründə müxtəlif invaziv müdaxilələr (amniosentez, kordosentez, amnioinfuziya, amnioreduksiya və embrioreduksiya), qadın cinsi hüceyrələrinin dondurulması kimi ən müasir və mürəkkəb ginekoloji xidmət və əməliyyatlar ölkəmizdə ilk dəfə məhz Mərkəzi Klinik Xəstəxanada keçirilmişdir.

Xüsusi qeyd etmək lazımdır ki, Pediatriya şöbəsində yaradılmış şərait əsasında neanatoloji reanimasiyada ekstremal az çəkili (500 qramdan başlayaraq), iki və daha çox döllü hamilələrdən doğulmuş uşaqların süni ventilyasiyanın bütün rejimlərində izlənilməsi, yenidoğulmuşlarda ürək patologiyalarının araşdırılması, müalicəsi və respirator dəstəyinin aparılması, PDA-nın bağlanmasının konservativ və operativ yolla uğurla həyata keçirilməsi, böyrək çatmazlığı zamanı periton dializinin aparılması, hər bir yenidoğulmuş körpə üzərində geniş çərçivədə genetik-metobalik araşdırmanın aparılması kimi əvvəllər respublikamızda həyata keçirilməyən xidmətlər reallaşdırılır.

Neanatoloji reanimasiya və əməliyyat otağının geniş imkanları sayəsində yarımçıq doğulmuş, az çəkili körpələr üzərində həcmli cərrahi əməliyyatlar, Azərbaycanda ilk dəfə 700 qr körpə üzərində uğurlu cərrahi əməliyyat, 1500 qr körpə üzərində qida borusu atreziyası+traxeoözofagial fistula, 1200 qr körpə üzərində Aksesuar bronx səbəbiylə Lobektomiya, 1300 qr körpə üzərində Pilor atreziyası səbəbiylə Piloroduodenostomiya əməliyyatı həyata keçirilmiş, xəstələr tam sağlam vəziyyətə gətirilmişdir. Klinikada bronxoskopik və torakoskopik alətlərin və reanimasiyanın mövcudluğu uşaqlarda bütün növ əməliyyatların endoskopik və açıq müasir üsullarla, eyni zamanda onlarda mürəkkəb döş qəfəsi əməliyyatlarının açıq və qapalı üsullarla həyata keçirilməsinə tam şəkildə imkan verir.

Fakt olaraq qeyd etmək lazımdır ki, respublikamızda ən güclü və etibarlı reanimasiya və intensiv terapiya xidmətləri Mərkəzi Klinikada həyata keçirilir. Belə ki, müalicə olunduqları səhiyyə müəssisələrinin belə sağalmalarına ümidlərini itirdikləri minlərlə xəstələrin məhz xəstəxananın Reanimasiya və intensiv terapiya şöbəsində sağlamlıqları bərpa edilir və onlar həyata qaytarılır. Burada mövcud olan maddi-texniki baza nəinki respublikamızın, hətta ən inkişaf etmiş ölkələrin reanimasiya şöbələri ilə müqayisə oluna bilər. Belə ki, hər biri tənəffüs aparatı və monitorizasiyaya uyğun monitorlarla təchiz olunmuş 19 reanimasiya çarpayısı, həmçinin hemodializ, hemofiltirasiya, plazmafarez, MARS, ECMO, CPFA cihazları istənilən təcili hallarda istifadəyə hazır vəziyyətdədir.

Əlavə edək ki, hepafiltrli havalandırma ilə xəstə otaqlarının havasının hər saatda 6 dəfə dəyişdirilməsinə, həmçinin hər bir reanimasiya otağını neqativ və pozitiv təzyiqli hala gətirməyə və temperaturu +18-25⁰ C, rütubəti 30-60 faiz tənzimləməyə imkan verən avadanlıqlar sayəsində ölkəmizdə ilk dəfə hemofiltirasiya, ciddi ürək çatmazlığı olan (kardiomiopatiya) xəstəyə ECMO qoşularaq xarici ölkəyə transferi, qaraciyər yetməzliyində MARS (Molekulyar absorban resirkulyasyon sistem) və ya qaraciyər dializi proseduru məhz bu şöbədə həyata keçirilməkdədir.



Mərkəzi Klinikanın Cərrahiyyə şöbəsinin peşəkar kadr heyəti yüksək nailiyyətlər əldə etmişdir. Burada ən mürəkkəb endoskopik və laparoskopik əməliyyatlar, hepatobilyar sistemdə edilən bütün cərrahi əməliyyatlar, o cümlədən orqan (böyrək) transplantasiyası kimi mürəkkəb əməliyyatlar aparılır.

Urologiya şöbəsində də bütün uroloji əməliyyatlar, o cümlədən prostat xəstəlikləri, sidik daşı, böyrək şişləri və sair kimi əməliyyatlar, o cümlədən respublikamızda ilk dəfə olaraq ən müasir metodlarla aparılan endoskopik uroloji əməliyyatlar bu şöbədə həyata keçirilmişdir.

Xəstəxanada ortopediya və travmatologiya sahəsində respublikamızda həyata keçirilən ən mürəkkəb əməliyyatlar — onurğa sütununun ən mürəkkəb əməliyyatlarından olan skolyoz deformasiyasının cərrahi korreksiyası, boyun fəqərələrinin çıxarılaraq titan materiallarla əvəz edilməsi, döş və bel fəqərələrinin bir neçəsinin çıxarılaraq süni sümüklərlə əvəz edilməsi peşəkar mütəxəssislərimiz tərəfindən uğurla həyata keçirilən əməliyyatlardır. Tam amputasiya olunmuş yuxarı və ya aşağı ətrafların replantasiyası (yerinə tikilməsi), baldır nahiyyələrindən götürülmüş sinir qreftinin qopmuş qolun həmin nahiyyəsinə replantasiyası da respublikamızda ilk dəfə məhz bu şöbədə həyata keçirilmişdir.

Müayinə metodları sayəsində son dərəcə dəqiqliklə diaqnozlar qoymağa imkan verən Şüa diaqnostika şöbəsində Kompüter tomoqrafiya, Maqnit Rezonans, Doppleroqrafiya, Ultrasəs və Rentgenoskopiya müayinə metodları gündəlik rutin işlərə çevrilmişdir. Burada mövcud olan tibbi cihazlar öz sahələrində ən son istehsal modeli və onların, o cümlədən 256 dedekter çoxkəsikli Kompüter Tomoqrafiya, həmçinin 3 Tesla Maqnit Rezonans cihazının respublikamızda analoqu yoxdur.

Tibbi Laboratoriya şöbəsi öz spesifikliyi, müasir cihaz və avadanlıqlarla təchizatı baxımından çox fərqlənir. Belə ki, burada bütün analizlərin müayinəsinin mümkünlüyü ilə yanaşı, respublikamızın laboratoriyalarında aparılmayan əksər analizlər (homosistein, valproik asit, pro-BNP, Quantiferon, Prokalsitonin, Coombs, qan qrupunun JEL metodu ilə baxılması, allergik testlər (qida, tənəffüs, pediatrik) həyata keçirilir. Mənasız vaxt itkisini və vətəndaşların istəklərini nəzərə alaraq analizlərin nəticələri elektron qaydada xəstələrə göndərilir. Bəzi analizlərin etibarlı həyata keçirilməsini təmin etmək üçün əməkdaşlıq etdiyimiz TS EN İSO/İEC 15189 sertifikatına malik Türkiyə Cümhuriyyətinin Düzen Laboratuvar Qrupuna göndərilərək, nəticələri ən qısa müddətdə təmin edilir. Ən müasir Abbott markalı M 2000 SP-PCR cihazında virusların (HCV PSR, HBV PCR, CMV PCR və s.) viral yük və genotipləri təyin edilir. Bunlarla yanaşı Laboratoriyamız dünya laboratoriyalar qrupları arasında keçirilən Xarici nəzarət proqramında (Medical Services Profiency) iştirak edir və dəfələrlə həmin qrupun sertifikatı ilə təltif olunmuşdur.

Mərkəzi Klinikanın fəaliyyət göstərdiyi on beş ildən çox bir müddət ərzində bu istiqamətdə xeyli işlər görülmüşdür. Xəstəxana tibbin əsas istiqamətləri üzrə xalqımıza beynəlxalq standartlara uyğun xidmət göstərərək qısa müddətdə nəinki Azərbaycanda, eyni zamanda Qafqazda böyük nüfuza malik bir şəfa ocağına çevrilmişdir. Mərkəzi Klinikanın Azərbaycan Respublikasının Prezidentinin Xüsusi Tibb Xidmətinin tabeçiliyinə verilməsi, dünya şöhrətli alim, yüksək şəxsi və işgüzar keyfiyyətlərə malik bir ziyalı olan akademik Cəmil Əliyevin xidmətə rəhbərlik etməsi Klinikanın yeni inkişaf mərhələsinə qədəm qoymasına səbəb olmuşdur. Belə ki, bir-birinin ardınca ən son tibbi texnika və texnalogiyalarla təchiz edilmiş Mərkəzi Klinikanın Ambulatoriyasının, daha sonra Stomatologiyasının istifadəyə verilməsi, Mərkəzi Klinika Xəstəxanasında əsaslı yenidənqurma və genişləndirmə işlərinin aparılması, tibbi arsenalın ən son nəsil tibbi texnika və texnologiyalar hesabına yenilənməsi məhz akademik Cəmil Əliyevin rəhbərliyi altında mümkün olmuşdur.

Bakı şəhəri Zərifə Əliyeva küçəsi 5 ünvanda yerləşən, 3 mərtəbədən, ümumi sahəsi 4200 kvadratmetrdən ibarət olan Mərkəzi Klinika Ambulatoriyasında müasir tibbi texnologiyalar əsasında fəaliyyət göstərən Əməliyyat otağı, Diaqnostika, Ginekologiya, Pediatriya, Terapiya, Kardiologiya, Travmatologiya, Fizioterapiya və s. kimi tibbi şöbələri vətəndaşlara yüksək səviyyədə səhiyyə xidməti göstərir. Yüksəkixtisaslı kadrlar həm stasionarda, həm də Ambulatoriyada rotasiya əsasında daimi olaraq xəstələrin xidmətindədir. Rəsmi açılış tarixindən — 2009-cu ildən bu günədək Ambulatoriyada 5000000-dan çox müayinə həyata keçirilmişdir.

Müasir stomatoloji cihaz və avadanlıqlarla təchiz edilmiş 9 tibbi xidmət, 2 laboratoriya və 1 sterilizasiya otağından ibarət olan Mərkəzi Klinika Stomatologiyasında Avropa ölkələrində təhsil almış və kurslar keçmiş mütəxəssislər peşəkar tibbi xidmətlə yanaşı, etibarlı sterilizasiyaya önəm verir. Sterilizasiya amerikan üsulu əsasında 5 mərhələdən ibarət olmaqla aparılır ki, bu da stomatologiya sahəsində ən vacib amillərdəndir.

Bundan başqa, 102 ədəd ümumi çarpayı fondu, o cümlədən 6 əməliyyat, 4 təcili yardım, 16 reanimasiya, 76 stasionar çarpayı, 30 poliklinika otağına malik olan Gəncə Müalicə Diaqnostika Mərkəzində bu günədək bölgələrdə həyata keçirilməyən tibbi xidmətlər, cərrahi əməliyyatlar, o cümlədən 750-dən çox ürək-damar əməliyyatı, 200-dən çox beyin əməliyyatı, böyrək tranplantasiyası, 4500-dən çox angioqrafiya xidmətləri Mərkəzi Klinikanın keyfiyyət standartları əsasında həyata keçirilmiş, yaxın vaxtlarda süni mayalanma və sair mürəkkəb əməliyyatların həyata keçirilməsi planlaşdırılır. Gəncə-Qazax bölgəsində ilk angioqrafiya, açıq ürək əməliyyatı, beyin əməliyyatı, böyrək transplantasiyası və s. əməliyyatlar Gəncə Müalicə Diaqnostika Mərkəzində həyata keçirilmişdir.

Ən müxtəsər statistik rəqəmlərdən belə göründüyü kimi, təcrübəli həkimlər tərəfindən həyata keçirilən əməliyyatlar, göstərilən tibbi xidmətlər nəticəsində on minlərlə vətəndaşımız sağlamlığına qovuşmuş və şəfa tapmışlar. Az əhəmiyyətli olmayan bir fakt da ondan ibarətdir ki, təkcə ölkə vətəndaşları deyil, əcnəbi vətəndaşlar, diplomatik nümayəndəliklərin, nüfuzlu xarici şirkətlərin əməkdaşları da xəstəxanamızda göstərilən tibbi xidmətlərdən istifadə edir, öz sağlamlıqlarını bizə etibar edirlər.

Akademik Cəmil Əliyevin şəxsi səyləri və himayəsi ilə milli səhiyyə kadrlarının hazırlanması, onların dünyanın bir sıra ölkələrinə təkmilləşmə kurslarında bilik və təcrübə qazanması işi təmin edilmişdir. Bunun real nəticəsi olaraq Mərkəzi Klinikada yüksək bilik, bacarıq və təcrübəyə malik peşəkarlardan ibarət kadr potensialı toplanmışdır. Hazırda xəstəxanada ümumi sayda 1095 nəfər, o cümlədən 156 həkim, 437 orta və kiçik tibb işçisi, 336 texniki-inzibati işçi, 69 nəfər müqavilə əsasında və 97 həkim-rezident əmək fəaliyyəti göstərir. Gəncə Müalicə-Diaqnostika Mərkəzində isə 310 nəfərdən çox işçi, o cümlədən 54 həkim, 101 orta tibb işçisi və 155 texniki-inzibati işçilər sakinlərə fasiləsiz xidmət göstərir.

Onlarla xarici həkim və tibbi mütəxəssislər dəvət əsasında xəstəxanada tibbi xidmət göstərir. Həkim kadrlardan 30-a yaxını xarici ölkələrdə (Türkiyə Cümhuriyyəti, Avstriya, İngiltərə, Almaniya, ABŞ və Rusiyada) təhsil almışdır. Digər həkimlərin hər biri, orta tibb işçilərinin isə bütün məsul vəzifədə çalışanları müxtəlif xarici ölkələrdə uzunmüddətli (əsasən 6 aydan-2 ilədək) kurslardan keçirilərək peşəkar mütəxəssis kimi hazırlanmışlar. Bunu da qeyd etmək lazımdır ki, Mərkəzi Klinikada kadrların ixtisaslaşması və təkmilləşməsi istiqamətində Elm-Təhsil Komitəsi daimi fəaliyyət göstərir. Həmin komitə tərəfindən indiyədək 1000-ə yaxın şəxs xaricə kurslara, seminar və konfranslara göndərilərək, onların müasir tibbi biliklər əldə etmələri təmin edilib.

Mərkəzi Klinikada xidmət mədəniyyəti elə təşkil olunmuşdur ki, günün hansı saatlarında müraciət edilməsindən asılı olmayaraq, bütün sahələr üzrə yüksəkixtisaslı mütəxəssislər tərəfindən müayinə və müalicə təmin edilir. Yəni gecə saatlarında belə rahatlıqla hər bir mürəkkəb əməliyyatı, məsələn, beyin, ürək-damar və s. əməliyyatları təcili formada uğurla həyata keçirmək və ya istənilən diaqnostik (USM, Rentgen, KT, MRT, Angioqrafiya, EXO, EKQ və s.) müayinədən keçmək mümkündür. Bunun üçün peşəkar tibbi heyət 24 saatlıq növbəli qrafik əsasında fəaliyyət göstərir.

Mərkəzi Klinikada tibbi təhlükəsizlik və infeksiyaya nəzarət məsələlərinə xüsusilə ciddi fikir verilir. Bu məqsədlə xəstəxanada xaricdə təhsil almış və respublikamızda nadir peşəkarlardan hesab edilən mütəxəssisin rəhbərlik etdiyi İnfeksiya Nəzarət Komitəsi fəaliyyət göstərir. Qətiyyətlə demək olar ki, malik olduğumuz sterilizasiya cihazlarının və avadanlıqlarının respublikamızda analoqu yoxdur. Bu cihazlar tibbi alətlərin tamamilə steril olmasına imkan verməklə, vətəndaşlarımızın infeksiyadan və digər yoluxucu hallardan etibarlı müdafiəsini təmin edir, onların tam əminliklə təhlükəsiz tibbi xidmət almasına imkan verir.

Mərkəzi Klinikada səhiyyə ixtisasına uyğunluq amilinə xüsusi nəzarət və diqqət yetirilir. Odur ki, xəstəxanada fəaliyyət göstərən kadrlar, xüsusən də həkim və orta tibb işçilərinin hər biri tibbi sahədə ali və ya orta ixtisas mütəxəssisləridir. Yəni, işə qəbulla bağlı müraciət edən mütəxəssis kadrların bu sahədəki ixtisas sənədləri və bacarıqları əvvəlcədən yoxlanılır, onların hansı tibbi xidmətləri icra edə biləcəkləri, yaxud hansıları icra edə bilməyəcəkləri siyahı şəklində tərtib olunub rəsmiləşdirilir. Burada çalışan həkimlər müəyyən edilmiş, peşə yönümü çərçivəsindən kənara çıxdıqları halda onların barəsində ciddi intizam tədbiri görülür. Bu məqsədlə Mərkəzi Klinikada xüsusi olaraq "İntizam və Etika" komissiyası yaradılmışdır. Bununla birlikdə həkimlərin və digər tibb işçilərinin fəaliyyətinə Tibbi Ekspertiza Komissiyası tərəfindən də xüsusi nəzarət həyata keçirilir. Hər bir tibbi fəsad və ölüm halları ciddi araşdırılaraq müzakirə olunur, təqsiri olan şəxslər müvafiq qaydada cəzalandırılır. Görülən bu tədbirlər nəticəsində kollektivdə mənəvi-psixoloji iqlimin saflaşdırılması, tibbi personalın öz vəzifə borclarına, xüsusən də xəstələrə qarşı məsuliyyətlə yanaşması təmin edilir.

Məlumdur ki, Mərkəzi Klinika respublikamızda geniş tibbi xidmətləri təqdim edən ilk təsərrüfat hesablı müəssisədir. Bu sahədə tibbi xidmətlərin qiymətlərinin və onların maya dəyərinin formalaşdırılması mürəkkəb bir proses kimi hər zaman qarşıda durur. Qiymət formalaşması bir tərəfdən iqtisadi məsələ kimi, müəssisənin fəaliyyətinin təmin edilməsi deməkdir, çünki təsərrüfat hesablı müəssisə olaraq mövcudluğu və inkişafı bundan asılıdır. Digər tərəfdən isə tibbi xidmətlərin ödəniş qiymətləri məsələsi sosial xarakter daşıyır. Etiraf etmək lazımdır ki, ilk dövrlərdə tibbi xidmətin maya dəyərinə aid bütün təşkiledicilər (tibbi cihaz, alət, dərman və peşəkar mütəxəssislər) respublikaya kənardan gətirildiyinə görə xidmətin ödəniş qiymətinə təsir edirdi və cəmiyyətin alıcılıq imkanları ilə çox zaman üst-üstə düşmürdü. Mərkəzi Klinika vətəndaşlarımızın keyfiyyətli tibbi xidmətləri xaricdə yox, öz ölkələrində almalarını təmin etmək, həmçinin ölkədən çıxan valyutanın qarşısını almaq, onu milli səhiyyəmizin inkişafına yönəltmək məqsədilə bir sıra əməli tədbirlər həyata keçirdi. Odur ki, bu gün Mərkəzi Klinikada eyni tibbi xidmətlər xaricdə və ölkəmizdə olan özəl tibb müəssisələri ilə müqayisədə daha keyfiyyətli həyata keçirilir, ödəniş qiymətləri isə daha aşağı tarifdə tətbiq edilir.

Yuxarıda qeyd olunanlardan göründüyü kimi, Mərkəzi Klinika böyük potensial imkanlara və üstünlüklərə malik bir şəfa ocağıdır. Və ötən dövr ərzində burada çox böyük işlər görülmüşdür. Əlbəttə, qarşıda duran işlərimiz gördüklərimizdən qat-qat çoxdur və təbii ki, bu həcmdə işlərin görülməsi və mürəkkəb tibbi xidmətlərin həyata keçirilməsi xəstəxanaya xalqın inamını artırır.

Tibb İşçiləri Günü münasibətilə ölkəmizin səhiyyə işçilərini təbrik edir və inanırıq ki, onlar insanların sağlamlığı keşiyində müsəlləh əsgər kimi dayanacaqlar.

**Qədir ASLAN,**
**"Respublika".**





# "Füyuzat"ın yüzüncü sayı*

**Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi yubileyi günlərində qoca Şərqdə ilk demokratik respublikanın ideoloji əsaslarını yaradıcılarından biri — Əli bəy Hüseynzadənin nəşr etdiyi "Füyuzat" jurnalının 100-cü sayı oxucuların görüşünə gəldi.**

"Füyuzat" 1906-cı il noyabrın 1-də böyük xeyriyyəçi Hacı Zeynalabdin Tağıyevin vəsaiti, xeyirxah köməyi ilə öz nuru, öz işıqlı ideyaları, mütərəqqi düşüncələri ilə əzəmətli keçmişi olan Türk dünyasına, Bakıda söz, fikir tarixinə qədəm qoydu.

Azərbaycanın böyük mütəfəkkir oğlu Əli bəy Hüseynzadə ürəyindəki ülvi arzuları dilə gətirdi, Türk aləminə işıqlı yol göstərdi.

Ürəyində Əli bəy düşüncələrini yaşadan, təbliğ edən vətən oğlu, fəlsəfə doktoru Allahşükür Qurbanov demiş, "Fyuzat" yalnız Azərbaycanın deyil, bütün kimlik şüurunun oyanmasında və təkamülündə, milli istiqlal mücadiləsi fikrinin yaranmasında, formalaşmasında və inkişafında tarixi rol oynamışdır... Müxtəlif vaxtlarda, ayrı-ayrı əsrlərdə nəşr olunan eyniadlı, eyni məfkurəli, eyni amallı bu məcmuələrin hər ikisinin 112 yaşı var. Çünki klassik "Füyuzat"ın ideyaları, arzuları, ruhu yeni "Füyuzat"da yaşayır, davam edir. Müasir "Füyuzat"ın kökləri, qaynaqları Əli bəy Hüseynzadənin ideyalarından, ruhu isə klassik "Füyuzat"dan gəlir".

"1906-1907-ci illərdə Əli bəy Hüseynzadənin təşəbbüsü və redaktorluğu ilə nəşr edilən "Füyuzat" jurnalı həm Əli bəyin ideyalarının, həm də bütövlükdə "Füyuzat"ın təbliğat mərkəzi idi".

Üç–göy, qırmızı və yaşıl rəmz olaraq türkləşməyi, islamlaşmağı və müasirləşməyi əks etdirir. Bu ideologiyanın ilk tələbi maarifçiliyi genişləndirmək, tərəqqiyə nail olmaq idi.

Bu sətirləri yazanda xəyal məni XX əsrin 50-60-cı illərinə apardı.

Unudulmaz gənclik illərimizin munisi, tələbə yoldaşım Ofelya Bayramlı bir gün "Azərbaycan qadını" jurnalı redaksiyasına gəlib, mənə iki kitab hədiyyə etdi. Əli bəy Hüseynzadənin "Siyasəti-fürusət" və "Qırmızı qaranlıqlar içində yaşıl işıqlar". Ə.B.Hüseynzadənin "Füyuzat" jurnalında dərc edilmiş seçilmiş məqalələri, görkəmli alim Yaşar Qarayevin "Əli bəyin irsi və varisləri" adlı ön sözü və Ofelya xanımın bu dahi insanın "Həyatı və türkçülük fəaliyyəti" haqqında elmi müqəddiməsi toplanmış bu kitabların üz qabığının iç səhifəsində yazılmış avtoqraf məni çox sevindirdi. "Hörmətli Sabir müəllim! Siz Ə.B.Hüseynzadənin ruhunu rəhbərlik etdiyiniz məcmuədə yad etdiyiniz üçün bu kitabı sizin şəxsi kitabxananıza hədiyyə edirəm. Hörmətlə Ofelya. 24.02.99".

Ofelya xanımın bu diqqəti məni ötən əsrin 50-ci illərinin xatirələr aləminə apardı. O zaman mən elmi-tədqiqat işilə əlaqədar olaraq dövri mətbuatı və arxiv sənədlərini nəzərdən keçirir, mövzuma dair qeydlər aparırdım. Azərbaycan və rus mətbuatında, xüsusilə "Füyuzat" jurnalında Əli bəy Hüseynzadənin məqalələrində çox dəyərli məlumatlara və fikirlərə rast gəlmişdim. Onun qadın məsələsinə, maarif, qadın təhsilinə yazılarından bir mənbə kimi istifadə edib 1967-ci ildə ilk fikir söyləmək mənə qismət olmuşdur. O dövrdə ötən əsrin 50-ci illərin axırlarında repressiya tufanının səngidiyi bir vaxtda Vəli Məmmədov, Ofelya Bayramlı, Xeyrulla Məmmədov, Yaşar Qarayev, Teymur Əhmədov, Şamil Salmanov, Tofiq Hacıyev və başqa tələbə yoldaşlarımız böyük həvəslə tariximizin unudulmuş səhifələrini açmağa, təqiblərə, hazır cəzalara məruz qalmış millətimizin dövlət, mətbuat, maarif, ədəbiyyat, incəsənət xadimlərini üzə çıxarmağa, professor Xeyrulla Məmmədov demiş, "Xüsusi fondlarda, qorxunc qriflər altında, yeddi möhür arxasında məhbəsdə saxlanılan mənəvi dəyərlərimizin inciləri olan kitabların ilk oxucuları olduq, onları öyrənib yeni təfəkkür tərzində söz deməyə, yazmağa başladıq. Nəriman Nərimanov, Əli bəy Hüseynzadə, Əhməd bəy Ağayev, Əlimərdan bəy Topçubaşov, Məmməd Əmin Rəsulzadə, Hüseyn Cavid və başqa görkəmli maarifpərvər ziyalılarımız haqqında ilk söz deyə bilmişik.

Əli bəy Hüseynzadə irsinin gözəl tədqiqatçısı Ofelya xanım tələbəlik illərimizi yada salanda mənim üçün çox xas olan bir xatirə söylədi. "Sabir, sən elə o zaman bizə deyirdin ki, Əli bəy Hüseynzadə Azərbaycanın elm, maarif, mətbuat, ideya və fəlsəfi fikir tarixində bir işıq şöləsidir. Milli mədəniyyətimizin möhtəşəm sütunlarından biri olub. Onda biz bu sözlərin gəlişi gözəl deyildiyini zənn etdik. Ancaq bu fikir məni tutdu. Gələcək elmi araşdırma aparmağıma bir açar oldu. İndi Əli bəy irsinin tədqiqi mənim həyatımın mənasıdır". Mən ona dedim:

"Çox gözəl. Mən də fərəhlənirəm və fəxr edirəm ki, bu böyük, xeyirxah işi sən öhdənə götürmüsən. Böyük titullu alimlərin görmədiyi, öyrənmədiyi çox mühüm bir işin həllini sevə-sevə, böyük zəhmət hesabına sən həyata keçirmisən".

O da təqdirəlayiqdir ki, Ofelya xanımın Əli bəyin ideyalarının elmi tədqiqi və geniş şərhi haqqında məqalələri yeni "Füyuzat" jurnalında dərc edilmişdir.

Cəmi iki il fəaliyyət göstərmiş klassik "Füyuzat"ın çox qısa müddət ərzində dərc olunmuş 32 sayında beyinləri silkələyən, ürəkləri coşduran, zəkaları nurlandıran həyati yazılar, mübarizə yolu göstərən yazıların dərc edilməsi mətbuat tariximizə yeni fikir, yeni ideyalar gətirmiş, mövzu dairəsini zənginləşdirmişdir. Unudulmuş türkçülük, turançılıq, islamçılıq baxışları yeni anlamda dilə gəlmişdir. İnsanpərvərliyin, xalqlar bərabərliyinin rəmzi olmuş azərbaycançılıq ideologiyası cücərməyə başlamışdır. Klassik "Füyuzat" Azərbaycanın milli mətbuat çələngində öncül yerlərdən birini tutmuş, səsi, sorağı sərhədlər aşmışdır.




Bəşəriyyətin təkamülündə maarifçiliyin yayılmasını ön plana çəkən Əli bəy Hüseynzadə və onun söz azadlığının carçısı "Füyuzat" jurnalı çaxnaşmalar içində vurnuxan çar üsul-idarəsini çox narahat edirdi. Ona görə 1907-ci il noyabrın 1-də "Füyuzat" mütərəqqi ideyalarını yaydığı üçün bağlandı.

Amma Əli bəy Hüseynzadənin türkçülüyün təkmülünə işıqlı yol açan ideyaları ürəklərdə yaşayırdı. Bu dirçəliş, bu oyanma milli azadlıq hərəkatını getdikcə daha da gücləndirirdi. 1918-1920-ci illərdə Şərqdə ilk demokratik, azad, müstəqil Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasında demokratik ruhlu ziyalılarımızın, o cümlədən Əli bəy Hüseynzadənin və onun mübariz ruhlu "Füyuzat" jurnalı böyük rol oynamışdı.

Bu işıqlı ideyalar inkişaf edən Azərbaycan xalqının sovet dövründə də qadağalara, təqiblərə, cəza tədbirlərinə baxmayaraq, ürəklərdə yaşadı. Azərbaycan xalqı elm, mədəniyyət, maarif, incəsənət sahəsində, iqtisadiyyatda uğurlar qazandı. Ancaq buna baxmayaraq, qarşıda hələ görülməsi işlər vardı. Sovet rejimi də sübut etdi. İnsanlar öz azadlığına, müstəqilliyinə nail olmaq üçün ayağa qalxdı. 1990-cı illərin qanlı hadisələri xalqımızı sarsıtmadı, başda ümummilli lider Heydər Əliyev olmaqla yurdumuza azadlıq, əmin-amanlıq gəldi, üçrəngli bayrağımız yenidən havada dalğalandı, himnimiz səsləndi, demokratik cümhuriyyətimiz bərpa olundu. Azərbaycançılıq məfkurəmiz öz yerini tutdu. Türk dünyası yenidən canlandı. Şərqdə ilk demokratik müsəlman dövləti, çiçəklənən müstəqil Azərbaycan dünya şöhrəti qazandı.

Belə bir azadlıq dövründə klassik "Füyuzat" jurnalının varisi—yeni "Füyuzat" yenidən milli mətbuatımızın sıralarında öz yerini tutdu. Onun yaradıcısı və baş redaktoru, professor, görkəmli filoloq alim və publisist Teymur Əhmədov öz gənc həmkarları ilə birlikdə böyük səy, hünər göstərib böyük yeni "Füyuzat" mövzu müxtəlifliyi və ideya baxımından orjinallığı ilə diqqəti cəlb edən dərgi yaratdı. Bu nəfis nəşrin son on bir il ərzində 62 nömrəsi çap olunmuşdur. Hər biri də alimlərimizin maraqlı, dəyərli elmi və publisistik məqalələri ilə tarixi foto-şəkillərlə, nəfis tərtibatı ilə ictimaiyyətin diqqətini cəlb etmişdir. "Füyuzat"ın hər nömrəsində professor Teymur Əhmədovun baş redaktordan adlı istiqamətverici müraciəti ilə açılır. Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi yubileyində "Füyuzat"ın 100-cü nömrəsinin ictimaiyyətə təqdim olunması əlamətdar hadisədir. Burada akademik Nizami Cəfərovun "Azərbaycançılıq ideologiyası: etnoqrafik əsasları, təşəkkülü və təkamülü" adlı məqaləsi, tarix üzrə fəlsəfə doktoru dosent Firdovsiyyə Əhmədovanın "Böyük inqilab" Azərbaycana nə verdi?", professor Akif Rüstəmovun "Milli münasibətlərin kəskinləşməsi şəraitinə KİV-in fəaliyyəti" məqalələri, filologiya üzrə fəlsəfə doktoru Pərvanə Məmmədlinin "Başqa dilim, elmi var mənim" adlı təsirli məqaləsi və b. müəlliflərin yazıları, şeirləri dərc edilmişdir.

Erməni saxtkarlığını, vəhşiliyini və satqınlığını ifşa edən mövzuların, bir çox kitabların müəllifi professor Teymur Əhmədov "Baş redaktordan" adlı məqaləsinin manjetində yazır: "Mənfur xislətli erməni millətçilərinin tarixi keçmişini, fitnəkar əməllərini nəzərə alan Əli bəy Hüseynzadə 1906-cı ildə "Həyat" qəzetində dərc etdirdiyi "Milliyyət və insaniyyət" adlı məqaləsində yazırdı: "Amandır, bu canilərdən, iblislərdən özünü qoruyun!...".

Teymur Əhmədov bir çox mənbələrə istinad edərək erməni saxtakarlığı haqqında oxucularını tanış edir. Ermənilərin ərazi, maddi-mənəvi nemətlər, bayraq, dil, əlifba və s. tarixi uydurmaları, oğurluqları haqqında yeni məlumatlar verir.

Akademik Nizami Cəfərov Azərbaycançılıq ideologiyasının tarixinə nəzər salaraq yazır ki, "azərbaycançılıq ideologiyası öz mahiyyəti etibarı ilə milli olduğu qədər də bəşəri, hümanist bir ideologiya" olub etnoqrafik əsasları Azərbaycan xalqının müstəqil bir etnos olaraq ümumtürk birliyindən ayrılması prosesinə dayanır: həmin prosesin orta əsirlərin sonu, yeni dövrün əvvəllərində—Azərbaycan səfəvilər dövründən başlandığını təxmin etmək mümkündür...".

Müəllif daha sonra qeyd edir ki, azərbaycançılıq ideologiyası XIX əsrin sonu—XX əsrin əvvəllərində çox mürəkkəb, qaynar ictimai-siyasi, mədəni-intellektual münaqişələr, mübarizələr gedişində təşəkkül tapmışdı ki, onun beşiyi başında Əli bəy Hüseynzadə və füyuzatçılar, Cəlil Məmmədquluzadə və mollanəsrəddinçilər, Məmməd Əmin Rəsulzadə və müsavatçılar dayanmışlar: Əlbəttə, yeni təşəkkül tapan ideologiyanın ilk (və tarixi) uğuru Azərbaycan Xalq Cümhuriyyətinin (1918-1920) yaranması oldu.

Bu maraqlı elmi düşüncənin yanında Azərbaycanın görkəmli ziyalıları H.Zərdabi, Ə.Hüseynzadə, M.Ə.Rəsulzadə, Ə.Topçubaşov, Ü.Hacıbəyov, S.Vurğun, M.İbrahimov, B.Vahabzadə, Xəlil Rza Ulutürk, R.Rzanın foto şəkilləri verilmişdir.

Görkəmli tədqiqatçı, tarixçi alim Firdovsiyə xanımın "Böyük inqilab" Azərbaycana nə verdi?" adlı geniş məqaləsində hadisələrə yeni yanaşma var. Yeni tarixi faktlar və fikirlər diqqəti cəlb edir.

Bu dəyərli elmi məqalənin ardınca yeni "Füyuzat"da verilmiş professor Akif Rüstəmovun "Milli münaqişələrinin kəskinləşməsi şəraitində KİV-in fəaliyyəti" məqaləsi də vaxtında və yerində verilmişdir.

Müəllif tariximizin bu həyəcanlı dövründə mətbuatın və jurnalistlərin üzləşdiyi olaylara toxunur, erməni millətçilərinin saxtkarlığını bir daha yada salır. Məqalədə deyilir: "SSRİ-də gedən proseslər ermənilərin əl-qolunu açdı və onlar məkirli planlarını həyata keçirməyə başladılar. Ermənistan Azərbaycanın Dağlıq Qarabağ bölgəsinə ərazi iddiaları irəli sürdü. Moskvanın bir sıra kütləvi informasiya vasitələri ermənilərin haqsız tələblərinə dəstək verərək onları daha da qızışdırırdı...".

AMEA-nın müxbir üzvü Könül Bünyadzadənin "Baharın ümidləri" məqaləsi xoş ovqatla yazılmış fəlsəfi-bədii düşüncələridir.

Pərvanə Məmmədli Cənubi Azərbaycanda türkologiya, tarix, dilçilik, ədəbiyyat və folklora dair dəyərli əsərlərin, şeir və poemaların müəllifi Məhəmməd Zehtabinin həyatına və elmi fəaliyyətinə həsr etdiyi məqaləsində Əli bəy Hüseynzadənin və füyuzatçıların ruhunun olduğunu hiss edirik. Onun yaradıcılığında "İslama qədərki, İran türklərinin dili və ədəbiyyatı", "Ərzurum türk folklorundakı izləri" adlarında çap edilmiş silsilə yazıları ümumtürk ədəbiyyatına daxil olan dəyərli yazılarındandır.

M.Zehtabi uzun illər apardığı araşdırmalar nəticəsində "İran türklərinin əski tarixi" adlı üçcildlilik kitab yazmış və bu kitab türk dünyasında böyük bir hadisə kimi qarşılanmışdır.

Müəllif M.Zehtabi haqqında yazır: "O, millətinə olan sevgisinə ömrü boyu sadiq qalmışdır. Onun dilinə, elinə xor baxıb qara yaxan şovinistlərə həmişə tutarlı cavablar vermiş, onları susdurmuşdur". Əqidəsi üzündən başı çox bəlalar çəkən vətənpərvər ziyalılara o tayda "pantürkist", bu tayda isə "millətçi" damğası vurmuşlar...".

"Füyuzat" jurnalının 2007-ci ildən bəri çap olunmuş saylarında yüzlərlə belə maraqlı mövzulara rast gəlirik. Onların səhifələrində vətənpərvərlik ruhunda yazılmış vətən tariximizin açılmamış, yasaq edilmiş qaranlıq səhifələrinə işıq düşür. tariximizi, mədəniyyətimizi öyrənirik. Mövzu rəngarəngliyi onu oxucularına sevdirir. Bədii, nəfis tərtibi, üllüstrasiyaları, nadir tarixi şəkillər, fotolar zövqümüzü oxşayır.

Bütün bunlar gənc nəslin elmi-mədəni tərbiyəsində, işıqlı fikirlərinin, sağlam ideyaların təbliğində böyük rol oynayır.

Ona 200-cü, 1000-ci saylarının işıq üzü görməsini, milli demokratik, müstəqil dövlətimizin əbədiyaşarlığını arzu edirik.

**Sabir GƏNCƏLİ,**
**tarix elmləri doktoru.**

* "Füyuzat"ın 1906-1907-ci illərdə 32 sayı, onun davamı kimi, 2007-2018-ci ilin əvvəlinədək 68 sayı nəşr olunmuşdur — Red.

*Səbail rayonu*

## Qurtuluş Gününə həsr olunmuş möhtəşəm bayram tədbiri

Tariximizə Milli Qurtuluş Günü kimi daxil olmuş 1993-cü ilin 15 iyun günü onu qiymətləndirənlər, dərindən dərk edənlər üçün çox əzizdir. Vətənini, xalqını sevən, həmin çətin, ağrılı günlərin dəhşətlərini yaşayan, hadisələri gözləri ilə görən insanlar üçün 15 iyun əsl qurtuluş tarixidir. Bu tarixi yaradan isə yenə də Azərbaycanın inkişafında, müstəqilliyində, müstəsna rol oynayan Heydər Əliyevdir.

Milli Qurtuluş Günü ilə əlaqədar rayon icra hakimiyyəti və Azərbaycan Dövlət Televiziya və Radio Verilişləri QSC-nin birgə təşkilatçılığı ilə Badamdar qəsəbəsində möhtəşəm bayram konserti təşkil olunmuşdur.

**Səbail Rayon İcra Hakimiyyətinin başçısı Eldar Əzizovun,** rayonun hüquq-mühafizə orqanlarının elm, təhsil, mədəniyyət, səhiyyə və digər sahələrin, təsərrüfat və xidmət sahələri kollektivlərinin, veteran və gənclər təşkilatının, din xadimlərinin, rayon ictimaiyyətinin, çoxsaylı KİV nümayəndələrinin və qəsəbə sakinlərinin iştirakı ilə Badamdar qəsəbəsindəki Heydər Əliyev parkında xalq musiqiləri, dünya və Azərbaycan bəstəkarlarının mahnılarından, şən melodiya və rəqslərdən ibarət böyük ədəbi-bədii bayram tədbiri keçirilmişdir.



Tədbirdə qeyd olunmuşdur ki, düz 25 il əvvəl yenicə müstəqilliyini qazanmış respublikamız dağılmaq, parçalanmaq təhlükəsi ilə üz-üzə durduğu bir vaxtda ulu öndər Heydər Əliyevin səyləri, bacarığı, təcrübəsi sayəsində Azərbaycan dövlətçiliyi ona qarşı yönəlmiş qəsdlərdən uğurla çıxdı. Ümummilli liderin qətiyyəti xalqa ruh yüksəkliyi gətirdi, inamımızı özümüzə qaytardı, sabitlik və əmin-amanlıq yaratdı və bununla da 15 iyun tariximizə Milli Qurtuluş Günü kimi daxil oldu.

Qeyd olunmuşdur ki, ulu öndər Heydər Əliyevin səyləri nəticəsində Azərbaycan öz müstəqilliyini və dövlətçiliyini qoruyub saxlaya bilmişdir. Heydər Əliyevdən sonra isə bu siyasəti möhtərəm Prezidentimiz cənab İlham Əliyev uğurla inkişaf etdirmiş, Azərbaycan daha da möhkəmlənmiş və qüdrətlənmişdir.

Çox böyük bir xoşbəxtlikdir ki, bu gün ölkəmizin başında ulu öndərin siyasi kursunun layiqli davamçısı cənab İlham Əliyev durub və bu gün İlham Əliyev, həqiqətən, ən yeni tarixin parlaq şəxsiyyətidir.

Bayram konsertinin sonunda əzəmətli atəşfəşanlıq keçirilmişdir.

**Məhəmməd VƏLİYEV,**
**"Respublika".**

## Son zəng xatirələrdə yaşayacaqdır





14 iyun, qəlbləri oxşayan yay səhəri paytaxtın hər yerində olduğu kimi, Yasamal rayonundakı Mirəli Seyidov 27 ünvanda yerləşən 21 nömrəli məktəbin həyətində bayram təntənəsi duyulur, milli musiqimiz dalğa-dalğa ətrafa yayılır, valideynlər, şagirdlər, müəllimlər son zəng tədbirində iştirak etmək üçün xoş ovqatla təhsil ocağına axışırdılar.

Şagirdlər xatirə şəkilləri çəkdirir, çöhrələrindəki həyəcan hissləri aydınca hiss olunurdu. Axı onbirincilər bu gün illərlə qoynunda nəfəs aldıqları doğma məktəbdən, sevimli müəllimlərdən ayrılacaq, arzular qanadında uğurlu addımlar atacaq, Vətənə, xalqa layiq övlad kimi böyüyəcəklər.

Budur, gözlənilən an gəlib çatır. İlk zəng tədbiri başlayır. İlk öncə, Azərbaycan Respublikasının Dövlət Himni səslənir. Sonra isə məktəblilərin maraqlı proqramla mahnı və rəqsləri bir-birini əvəz edir. Hiss olunurdu ki, onlar bu gün həyatın ən gözəl anını yaşayırlar.

Son zəng tədbirini giriş sözü ilə açan məktəbin direktoru Rəna Ağazadə vurğuladı ki, son illər Prezident İlham Əliyevin rəhbərliyi ilə təhsil sahəsində geniş islahatlar aparılır. Müəllimlər gənclərin həyatında, peşə fəaliyyətində böyük iz qoyur. Müəllimlərin fəaliyyət sahəsi həm də təhsildə baş verən dəyişikliklərin əsas güc qaynağı və islahatların dinamikasını müəyyənləşdirən sferadır. Bu gün bizim məktəbdə də təhsil sahəsində müsbət tendensiyalar davam edir.

Məktəbdə çalışan 75 nəfər müəllim şagirdlərin ideyalarına bağlı, milli təfəkkür daşıyıcısı kimi əsl vətəndaş olaraq yetişməsində üzərinə düşən vəzifələri şərəflə yerinə yetirir, daha doğrusu, onlar gözlərinin nurunu və qəlblərinin hərarətini gənc nəslin təlim-tərbiyəsinə həsr edirlər. Əminliklə demək olar ki, məktəbin 45 məzunu qarşıdakı imtahanlarda müvəffəq qiymətlərlə ölkəmizin ali məktəblərinə daxil olacaqlar.

Tədbirdə çıxış edən Yasamal Rayon İcra Hakimiyyəti hüquq şöbəsinin müdiri Ramil İsrafilov, rayon icra hakimiyyətinin başçısı Əziz Əzizovun son zəng, Ramazan bayramı və Milli Qurtuluş Günü ilə təbrikini müəllimlərə və məzunlara çatdırdı.

Son zəng mərasimində məktəbin tərbiyə işləri üzrə direktor müavini Zöhrə Yusufova, sinif rəhbərləri Xatirə İsmayılova və Məlahət Ələkbərova çıxış etdilər.

Tədbirdə təhsil sahəsindəki uğurlarına görə məktəbin bir qrup müəllimi rayon icra hakimiyyətinin fəxri fərmanına layiq görüldü.

**Qədir ASLAN,**
**"Respulika".**

## M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin Bakı filialı iş yerlərinə sənədlərin qəbulunu elan edir

**M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin Bakı filialı müsabiqədə iştirak etmək üçün aşağıda qeyd olunan iş yerlərinə sənədlərin qəbulunu elan edir:**

*Tədris-metodiki şöbənin müdiri, (1 yer).*

*Dekan (filologiya fakültəsi, 1 yer).*

Vəzifələri tutmaq üçün müsabiqədə ali təhsilli, elmi dərəcəsi və elmi adı olan, Azərbaycan və rus dillərini sərbəst bilən, tədris prosesinin təşkili və idarə olunması sahəsində ən azı 3 il və ya ali təhsil müəssisəsində tədris sahəsində ən azı 5 il iş stajı olan əməkdaşlar sənəd verə bilərlər.

**Müsabiqədə iştirak etmək istəyən şəxslər aşağıdakı sənədləri təqdim etməlidirlər:**

- ✓ şəxsiyyəti təsdiq edən sənədin surəti
- ✓ CV
- ✓ ali təhsil haqqında sənədin surəti
- ✓ elmi dərəcəsi və elmi adı təsdiq edən sənədin surəti

Müsabiqədə iştirak etmək istəyənlər sənədləri 18 iyun 2018-ci il tarixindən 10 iyul 2018-ci il tarixi saat 17:00-dək hr@msu.az elektron poçt ünvanına göndərməlidir.

**Əlaqə telefonu:** + 99412 598 93 28.

**AZƏRTAC**

## İNSAN AMİLİNİ TƏCƏSSÜM ETDİRƏN YENİ MONOQRAFİYA




**Görkəmli alim, iqtisad elmləri namizədi, professor Mahmud Quluzadənin bu günlərdə yeni monoqrafiyası işıq üzü görüb. "İnsan amili və Azərbaycan Respublikası qeyri-neft sektorunun sosial-iqtisadi inkişafının sürətləndirilməsi" adlanan monoqrafiyada insan amili iqtisadi inkişaf və sosial problemlərin uğurlu həllində qeyri-neft sektorunun fövqəladə əhəmiyyət kəsb etməsindən bəhs olunur, Azərbaycanın qeyri-neft məhsullarının xarici bazarlara ixrac imkanlarının daha da genişləndirilməsi oxucuların nəzərinə çatdırılır.**

